1920-ci ilin yayından etibarən Azərbaycan daxil Cənubi Qafqazdan Türkiyəyə yoğun bir şəkildə müsəlman nüfusun köçü yaşanmışdı. Qafqazdan gələn mühacirlərin böyük bir hissəsi bolşevik və erməni zülmü nəticəsində yurdlarını tərk edərək qardaş ölkəyə pənah aparmışdı. Türkiyə Xarici İşlər Nazirliyi tərəfindən Nazirlər Kabinetinə göndərilmiş olan 20 noyabr 1920-ci il tarixli məktubda da bu məsələyə diqqət çəkilmiş, hətta İran azərbaycanlılarının da yerli xan və sərdarların zülmündən bezib, Türkiyədə sığınacaq axtardığı qeyd olunmuşdur[ 1].

Cənubi Qafqaz və İrandan gələn mühacirlərin çoxu Azərbaycan türkü olduğu üçün, Türkiyə hökuməti köçənləri qəbul etməkdə tərəddüd etməmişdi. Türk milli mübarizə tarixinin önəmli simalarından sayılan, o dövürdə şərq cəbhəsi komandanı olan Kazım Karabəkir Paşa bu barədə xatirələrində yazırdı:

*"İrəvan civarından xeyli sayıda müsəlman qaçqını gəlirdi. Nə qədər çox sayıda gəlsə, bizim üçün faydalı idi. Yerimiz çox idi. Bu məsələ ilə əlaqədar bolşeviklərlə razılaşaraq, Gömrüyə də vəzifəli zabitlər təyin etmişdim. Rahatlıqla alırdıq. Bəzi çətinliklərlə qarşılaşsaq da, İrəvandakı Qızıl Ordunun 20-ci firqə komandanlığına məktub göndərərək, işi yoluna qoymağa səy göstərmişdim"*[2, s.910].

Gələn mühacirlər Osmanlı hökümətinin 20 aprel 1914-cü il tarixli "mühacirin nizamnaməsi" əsas tutularaq, xüsusilə, Van, Muş kimi şərq vilayətlərinə yerləşdirilmişdi. 23 aprel 1920-ci ildə Ankarada Mustafa Kamal Paşanın rəhbərliyində Türkiyə Böyük Millət Məclisinin (TBMM ) fəaliyyətə başlaması ilə Anadoluda iki hakimiyyətlik yaranmışdı. Milli mübarizəyə qarşı

çıxan, ingilizlərin oyuncağı olan İstanbul (Osmanlı) hökümətinə qarşı milli iradəni təmsil edən Ankara (Türkiyə) hökuməti hələ yeni formalaşdığından, mühacirlərin yerləşdirilməsi ilə əlaqədar qüvvədə olan nizamnaməyə görə hərəkət edilmişdi. TBMM hökümətinin 12 dekabr 1920-ci il tarixli qərarı ilə Azərbaycan və İrandan gələn mühacirlərin vətəndaşlığa qəbulu da uyğun görülmüşdü. O dövürdə Anadoluda milli azadlıq mübarizəsi davam etməkdə idi və hərbi səfərbərlik elan olunmuşdu. Zülmdən qaçaraq qardaş ölkəyə sığınan mühacirlərin bir hissəsi, bəlkə də, səfərbərlikdən çəkinərək, geri dönmək niyyətində ola bilərdi. Bunun qarşısını almaq üçün, Türkiyə höküməti yaşamış olduqları psixolojik böhrandan qurtulmaq üçün, mühacirlərə bir müddət hərbi möhlət haqqı tanımışdı[3].

Mühacirləri xüsusilə, şərq vilayətlərinə yerləşdirməklə, Türkiyə höküməti bölgədə həm türk nüfusunu artırmaq, həm də iqtisadi cəhətdən bu ərazilərin inkişafını saxlamaq istəmişdi. 10 avqust 1920-ci ildə Antanta dövlətləri ilə Osmanlı höküməti arasında imzalanan Sevr müqaviləsinə görə, şərqi Anadoluda dənizə çıxışı olacaq şəkildə müstəqil bir Ermənistan dövləti ilə onun cənubunda muxtar Kürdistan qurulmalı idi [4, s.515-517]. Türkiyənin parçalanmasını əsas alan Sevr müqaviləsini tanımayan TBMM hökuməti, hərbi sahədə mübarizəsini sürdürməklə bərabər, masa arxasında ehtimal olunan müzakirələrdə də əsilsiz erməni iddialarına qarşı əlini gücləndirmək istəmişdi. Bu bölgədə müsəlman türk nüfusun çox olması siyasi cəhətdən Türkiyənin mənfəətlərinə uyğun idi. Mühacirlərin yerləşdirildiyi bölgədə maddi sıxıntı çəkməmələri üçün Türkiyə hökuməti soydaşlarına qarşı əlindən gələn yardımı əsirgəməmişdi [5].

O dövrdə Azərbaycandan Türkiyəyə gedən mühacirlər arasında sadə xalq kütlələri ilə bərabər, siyasi xadimlər, ordu mənsubları, aydınlar, zəngin torpaq sahibləri və burjuaziya nümayəndələri də var idi. Sovet kəşfiyyat xidmətinin siyasi mühacirlər arasına öz casuslarını da yerləşdirmə ehtimalını göz önündə tutan Ankara hökuməti, daha diqqətli bir siyasət izləməyə səy göstərmişdi[6, s.122-125].

Azərbaycanlı siyasi mühacirlər əvvəllər ağırlıqlı olaraq Qars, Trabzon və Samsun vilayətlərində yerləşərək anti-bolşevik fəaliyyətlərini davam etdirmişdilər[7, s.93].Türkiyə hökuməti də siyasi mühacirlərin fəaliyyətinə bir müddət göz yumaraq, hətta maddi ehtiyaclarının qarşılanması üçün 4 may 1921-ci il tarixli qərarı ilə "mühacirin ödənəği"ndən vəsait ayırmışdı [8]. Bundan başqa, Mustafa Kamal Paşanın şəxsi göstərişi üzərinə Əhməd bəy Ağaoğlu vasitəsilə siyasi mühacirlərə 12 min türk lirəsi məbləğində də maddi yardım çatdırılmışdı [6, s.123].Azərbaycan Xalq Cümhuriyyəti dövründəParis sülh konfransına gedecək nümayəndə heyətinin tərkibində yer alan Əhməd bəy Ağaoğlu İstanbulda ikən ingilizlər tərəfindən həbs olunub, Malta adasına sürgün edilmişdi. 26 aylıq məhkum həyatından sonra Ankara hökumətinin

böyük səyləri nəticəsində diyər türk əsirləri ilə bərabər azadlığa qovuşan Ağaoğlu hislərini bu şəkildə dilə gətirmişdi: *"Məmləkəti qurtaran Kuvayi-Milliye (milli qüvvətlər) bizi də qurtardı"*[9].

Türkiyə hökuməti keçmiş Azərbaycan milli ordusu mənsublarına da türk birliklərində xidmət göstərməsinə icazə vermişdi. Azərbaycanlı əsgər və zabitlər də türk milli azadlıq hərəkatına qatılaraq, Anadolunun düşmən işğalından qurtarılmasında böyük fədakarlıqlar göstərmişdilər [10, s.31-43].

Ankara hökümətinin azərbaycanlı siyasi mühacirlərin anti-bolşevik fəaliyyətlərinə göz yumması sovetlərlə imzalanan 13 oktyabr 1921-ci il tarixli Qars müqaviləsinə qədər davam etmişdi. Qars müqaviləsinin 10-cu maddəsinə görə, tərəflər öz sərhədləri daxilində diyərinin əleyhinə hər hansı bir təşkilatın, qrupun fəaliyyətinə icazə verməməli idi [11,s.44]. Sovet Azərbaycanın səfiri İbrahim Əbilovun Ankaraya gəlişindən sonra, bu məsələnin həlli istiqamətində bəzi addımlar atılmışdı. Əbilov türk rəsmi dairələrinə anti-bolşevik fəaliyyətlərini sürdürən azərbaycanlıların siyahısını təqdim edərək, onların Türkiyədən deportasiya edilməsini tələb etmişdi. Qərb imperializminə qarşı mübarizədə müttəfiqi olan sovetlərlə münasibəti pozmamaq üçün Türkiyə hökuməti ilk iş olaraq, rusca bilən ordu mənsublarını şərq cəbhəsindən qərbə köçürmüşdü. Daha sonra da başda müsavatçı olmaqla, digər anti-bolşevik qruplar da Trabzon və Qarsdan çıxarılmağa başlanmışdı. Ancaq Ankara azərbaycanlı siyasi mühacirləri deportasiya etməyərək, onları sovet sərhədlərindən daha uzaq vilayətlərə köçürməklə, dolaylı yolla da olsa, himayəsini davam etdirmişdi [12,s.357]. Hətta o dövrdə siyasi mühacirlərlə mübarizə məsələsində "passiv" qaldığı düşüncəsi ilə rəhbərliyinin gözündən düşən və geri çağrılaraq cəzalandırılması gündəmdə olan Sovet Azərbaycanının Qars şəhərindəki konsulu İslam Hacıbəylinin Türkiyəyə sığınmaq xahisi də müsbət qarşılanmışdı. Türkiyə hökumətinin 17 yanvar 1922-ci il tarixli qərarı ilə İslam Hacıbəylinin şərq vilayətləri xaricində yerləşə biləcəyi uyğun görülmüşdü [13].

İran üzərindən Türkiyə sərhədlərini keçmək istəyən azərbaycanlı siyasi mühacirlərə də sovetlər əleyhinə fəaliyyətdən uzaq durmaq şərti ilə, gəlmələrinə izin çıxmışdı. Türk hökümətinin 19 fevral 1922-ci il tarixli qərarı ilə bəzilərinə vətəndaşlıq belə verilmişdi [14].

1920-1922-ci illərdə Azərbaycan siyasi mühacirlərinin müəyyən hissəsi hələki, TBMM hökumətinin nəzarəti altında olmayan Osmanlı dövlətinin paytaxtı İstanbula da yerləşmişdi. İstanbula gələn bəzi müsavatçı və sabiq hökümət üzvləri müəyyən səbəblərə görə Mustafa Kamal Paşa liderliyindəki TBMM hökumətinə soyuq baxmış, hətta aralarında ingilis kəşfiyyatı ilə əməkdaşlıq edənlər də olmuşdu.[12, s.351-352]. Azərbaycan siyasi mühacirətinin bir hissəsi milli hökumətin süqut etməsində Ankaranın da rolu olduğunu düşünməkdə idi. Bu görüşü müdafiə edən türkiyəli siyasətçivə tədqiqatçılar da vardır[ 12s.163-184]. Siyasi mühacirlərdən türk milli azadlıq hərəkatına rəğbət

bəsləyən və dəstəyini əsirgəməyənlər arasında isə, Azərbaycanın sabiq İstanbul konsulu Yusif Vəzirin (Çəmənzəmənli) adını xüsusilə qeyd etmək lazımdır. Ankara universiteti türk inqilab tarixi institutu arxivində saxlanılan sənədlərdən də anlaşıldığına görə, Yusif Vəzir ingilislərlə əməkdaşlıq edən şəxslər və anti-milliyətçi dərnəklər haqqında kəşfiyyat xarakterli çox mühüm məlumatları Ankaraya çatdırmış və yazışmalarında "Mehmet Haşim bəy" ismindən istifadə etmişdi[ 12s.345-356].

Azərbaycan Xalq Cümhuriyyətinin qurucularından M.Ə.Rəsulzadənin 1922-ci ilin yayında Türkiyəyə gəlişi ilə, dağınıq fəaliyyət göstərən Azərbaycan mühacirətini bir mərkəz altında toplamaq mümkün olmuşdu. 1924-cü ildə Rəsulzadənin rəhbərliyi altında İstanbulda qurulan Azərbaycan Milli Mərkəzinin Türkiyənin digər şəhərlərində də şöbələrinin açılmasına icazə verilmişdi [15, s.98].

1922-ci ilin aprelində sovet təhlükəsizlik xidməti (ÇEKA) əməkdaşları bütün beynəlxalq hüquq qaydalarını pozaraq, Türkiyənin Moskvadakı səfirliyinə soxularaq, axtarış aparmış və rəsmi sənədlərə əl qoymuşdular. Bu hadisə diplomatik krizisə səbəb olmuş və Türkiyənin səfiri Ali Fuad Cebesoy etiraz olaraq, Rusiyanı tərk etmişdi [16,s.358-359]. Bu gərginlikdən sonra rəsmi Ankara da siyasi mühacirətin mətbuat yolu ilə sovetlərə qarşı mübarizə aparmasına yaşıl işıq yandırmışdı. O illərdə nəşr olunan Yeni Qafqasya, Azeri Türk, Yeşil Yapraq, Odlu Yurd jurnalları və Bildiriş qəzeti Azərbaycan siyasi mühacirətinin işğalçı kommunizm ideologiyasına qarşı ən təsirli silahı olmuşdu [17, s.42.].

Azərbaycanın milli davasını türk ictimaiyyətinə tanıtmaq üçün bir sıra əsərlər çap edilmişdi. Bunların arasında M.Ə.Rəsulzadənin qələmindən çıxan *"Azərbaycan Cümhuriyyəti Keyfiyet-i Teşekkülü və Vaziyet-i Hazırası"* əsərini nümunə göstərə bilərik ki, kitabın ilk nüsxəsi şərq cəbhəsi komandanı Kazım Karabəkir Paşaya göndərilmişdi. Karabəkir Paşa da 3 iyul 1923–cü il tarixli cavab məktubunda belə bir qiymətli çalışma üçün Rəsulzadəyə təşəkkürünü bildirmiş, islam aləmi və Turan yurdu üzərindəki qara buludların dağılacağı günlərin çox uzaqda olmadığı, azərbaycanlı ziyalı və vətənpərvərlərinin tarixin bu çətinliklərinə qarşı sinələrini sipər edəcəyindən ümidvar olduğunu bildirmişdi[18].

1924-1928-ci illərdə Qafqazdan Türkiyəyə yeni köç dalğası yaşanmışdı. Ermənistanda və Gürcüstanda yaşayan Azərbaycan türklərinə qarşı həyata keçirilən siyasət nəticəsində, məhsuldar torpaqlarından məhrum buraxılmış, ana dilində məktəbləri bağlanmış, milli və dini adət-ənənələri qadağan edilmiş yüzlərlə ailə Türkiyənin rəsmi nümayəndəliklərinə müraciət edərək, sığınma verilməsini istəmişdilər. Türkiyə Xarici İşlər Nazirliyindən Daxili İşlər Nazirliyinə göndərilən 1 iyul 1925-ci il tarixli məktubda Ermənistan rəsmi dairələrinin azərbaycanlıların yaşadıqları yeri tərk etməsi üçün hər vasitəyə əl

atdığı, hətta Türkiyəyə köçmələrinə icazə verildiyi yazılmaqdaydı. Məktubda ayrıca, Ankaradan izin çıxmadığı təqdirdə, mühacirlərin Sovet Azərbaycanına və İrana hicrətə məcbur qalacaqları vurğulanmış, bu məsələnin təcili bir şəkildə həll olunması istənmişdi [19].

Gənc türk dövləti əvvəlki illərdə olduğu kimi, sovet rejimindən ona pənah gətirmiş soydaşlarına yenə də qucaq açmış, əlindən gələn maddi və mənəvi yardımı əsirgəməmişdi. Rəsmi sənədlərdən də anlaşıldığına görə, 1926-cı ildə Rusiyadan 12 min türk əsilli mühacir [20], 1928-ci ildə isə Ermənistandan 400 azərbaycanlı ailə Türkiyəyə köç edib, yerləşmişdi [21].

Türkiyə Cümhurriyyətinin qurucusu Mustafa Kamal Atatürk onlara sığınan soydaşları ilə əlaqədar düşüncələrini bu şəkildə dilə gətirmişdi:

*"Rusiyadan bizə sığınan, aralarında siyasət adamları da olan soydaşlarımız bizim qardaşlarımızdır. Türk milləti öz istiqlal mübarizəsini verdiyi ərəfədə belə, məhkum millətlərin hürriyyət və azadlıq davalarını hər zaman dəstəkləmişdir. Əlbəttə ki, öz soydaşlarının istiqlal mübarizələrinə də biganə yanaşmamışdır. Fəqət, bu mübarizə şüursuz və plansız bir milliyət davası şəklində görülməməlidir. Milliyət davası, siyasi bir mübarizədən əvvəl şüurlu bir qayə məsələsidir. Şüurlu qayə müsbət elmə, elmi üsullara dayandırılmış hədəfə doğru getmək deməkdir. O halda təbliğatlarda da müsbət üsullara müraciət etmək şərtdir.Mövcud şərait və imkanlar mütləq diqqətə alınmalıdır. Türkiyə xaricində qalan türklər ilk olaraq mədəni məsələlər üzərində durmalıdırlar. Həqiqətən də, biz türklük davasını bu şəkildə müsbət ölçüdə görməkdəyiz"* [ 22, s.65].

Göründüyü kimi, Mustafa Kamal Paşa istiqlalları üçün mühacirətdə mübarizəsini sürdürən bütün türk əsilli soydaşlarından dövrün şərtlərini də nəzərə alaraq, daha çox mədəni və ictimai fəaliyyətlərə ağırlıq verməsini istəmişdi. Çünki, 1925-ci ildən beynəlxalq vəziyyət Türkiyə və SSRİ-ni yenidən bir-birinə yaxınlaşdırmışdı [23, s.421-425]. Bu yaxınlıq istiqlalları üçün mübarizəsini sürdürən azərbaycanlı siyasi mühacirlərin fəaliyyətinə də təsirsiz ötüşməmişdi. Sovetlər əleyhinə çıxan mətbuat orqanlarının nəşri qadağan edilmiş, siyasi mühacirlərin böyük bir hissəsi Türkiyəni tərk etmək məcburiyyətində qalmışdı.

## Ədəbiyyat:


1. Türkiye Cumhuriyeti Başbakanlık Cumhuriyet Arşivi – BCA, Bakanlar Kurulu Kararları Katalogu, 30.18.1.1 /2.24.3 ( Ek: 97-3).
2. Kazım Karabekir, İstiklal harbimiz**,** İstanbul, 1988
3. BCA, Bakanlar Kurulu Kararları Katalogu, 30.18.1.1 /2.24.3.
4. Rifat Uçarol, Siyasi tarih ( 1789-1994 ), İstanbul, 1995
5. BCA, Toprak İskan Genel Müdürlüğü Kataloğu, 272.12/ 38.30.10.
6. Aygün Attar və Sebahettin Şimşir, Tarihten günümüze Türkiyede yaşayan Azerbaycan Türkleri, Ankara, 2013
7. Qasımov Musa, Azərbaycan Türkiyə diplomatik-siyasi münasibətləri, Bakı , 1998.
8. BCA , Bakanlar Kurulu Kararları Katalogu, 30.18.1.1 /3.18.16.
9. Hakimiyet-i Milliye, No: 231, 10 iyul 1921
10. Ahmet Karaca, " 30 Ağustos Başkomutanlık zaferinin 76.yıldönümü", Azərbaycan Türk Kültür Dergisi, No: 322, Ankara, 1998
11. İsmail Soysal, Türkiyenin siyasal antlaşmaları (1920-1945) - I, Ankara, 1983
12. Ağayev Mehman, Kurtuluş savaşı yıllarında Türkiye Azerbaycan ilişkileri, İstanbul, 2008
13. BCA, Bakanlar Kurulu Kararları Katalogu, 30.18.1.1 / 4.44.10
14. BCA, Bakanlar Kurulu Kararları Katalogu, 30.18.1.1 / 4.48.16
15. Oruclu Məryəm, Azərbaycan və mühacirətdə Müsavat partiyasının fəaliyyətləri (1911-1992), Bakı, 2001
16. Ali Fuat Cebesoy, Moskva hatıraları, İstanbul. 2002
17. Sebahettin Şimşir, Azerbaycanlıların Türkiyede siyasi ve kültürel fealiyetleri (1920-1991), Ankara, 2001

18 .Ankara Üniversitesi Türk İnkilap Tarihi Enstitüsü Arşivi (TİTE-A) , Kutu No : 97, Belge No:8

19 .BCA, Toprak İskan Genel Müdürlüğü Kataloğu, 272.12/ 45.76.4

20 .BCA, Toprak İskan Genel Müdürlüğü Kataloğu, 272.11 / 22.113. 28-2.

21 .BCA, Toprak İskan Genel Müdürlüğü Kataloğu, 272.11 / 23.122. 19-2

22 . Belkıs Ulusoy, Azerbaycan Siyasi Mühaciretinin İstanbuldakı Basın Etkinliklerinin Kamuoyu Oluşturmadaki Rolü ( 1923-1931 ), İstanbul universiteti doktorantura tezi, 2003

23 .Tükiye Cumhuriyeti Tarihi II, Ankara , 2002

TARİX, İNSAN VƏ CƏMİYYƏT-2020, 1 (28), s.30-39

# ERMƏNİSTANIN AZƏRBAYCAN RESPUBLİKASINA QARŞI HƏRBİ TƏCAVÜZÜ CƏNUBİ QAFQAZ REGİONUNDA HƏYATA KEÇİRİLƏN BEYNƏLXALQ ENERJİ LAYİHƏLƏRİ ÜÇÜN TƏHLÜKƏDİR (1991-2016)

***Cəbi Əmirvar oğlu Bəhramov***
AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu
djabibaxramov@mail.ru

**Açar sözlər:** *Azərbaycan Respublikası, Cənubi Qafqaz regionu, enerji layihələri*

*Məqalə müstəqillik  əldə edildikdən sonra Azərbaycan Respublikasına qarşı Ermənistanın və müttəfiqlərinin təcavüzkar siyasətinin və bu kimi məsələlərin səbəblərinin tədqiq edilməsi tarixinə həsr olunmuşdur. Zəngin faktiki materiallar əsasında müəllif, xronoloji ardıcıllıqla Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycanın keçdiyi ən çətin yolun tarixini və neft strategiyasının həyata keçirilməsini, habelə müasir dövrdə Cənubi Qafqaz regionunda mövcud olan beynəlxalq enerji layihələri üçün əsas təhlükə mənbələrini göstərməyi bacarır.*

***Джаби Бахрамов***

## АГРЕССИЯ АРМЕНИИ ПРОТИВ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ ЯВЛЯЕТСЯ УГРОЗОЙ ДЛЯ РЕАЛИЗАЦИИ ЭНЕРГЕТИЧЕСКИХ ПРОЕКТОВ НА ЮЖНО-КАВКАЗСКОМ РЕГИОНЕ

**Ключевые слова:** *Против Азербайджанской Республики, Южно Кавказский регион, энергетические проекты*

*Статья посвящена истории исследования причин агрессии Армении и ее союзников против Азербайджанской Республики после приобретения государственной независимости, когда она стала самостоятельно использовать свои энергоресурсы для социально-экономического развития. На основании богатого фактического материала автор сумел в хронологической последовательности историю труднейшей пути пройденной Азербайджаном под руководством Гейдара Алиева и реализация  нефтяной стратегии, а так же сумел показать основные источники угроз для международных энергетических проектов реализуемых на Южно-Кавказском регионе в современный период.*

# THE AGGRESSION OF ARMENIA AGAINST THE REPUBLIC OF AZERBAIJAN IS A THREAT TO THE IMPLEMENTATION OF ENERGY PROJECTS IN THE SOUTH CAUCASUS REGION

***Jabi Bahramov***

**Keywords**: *Against Azerbaijan Republic, the region of Southern Caucasus, construction of energy*

*The article is devoted to the history of the investigation on the causes of Armenia's and its allies' aggression against the Republic of Azerbaijan after the acquisition of state independence when she began to use its own energy resources for socio-economic development. Based on the rich factual material, the author managed to trace in a chronological sequence the history of the hardest path passed by Azerbaijan under the leadership of Heydar Aliyev and the implementation of the oil strategy, also managed to show the main sources of threats to international energy projects implemented in the South Caucasus region in the modern period.*

Sovet imperiyasının süqutu və keçmiş müttəfiq respublikaların müstəqillik əldə etməsi prosesi ilk baxışda asan görünsə də, həlli çox ağır olan siyasi və sosial-iqtisadi problemlər yaratdı. Siyasi münasibətlərin qırılması iqtisadi əlaqələrin pozulmasına və keçmiş postsovet məkanında ağırsiyasivə iqtisadi böhranın yaranmasına səbəb oldu.

1941-1945-ci illər müharibəsi dövründə alman faşizmi üzərində qələbədə və XX əsrin ikinci yarısında keçmiş SSRİ-nin bütün respublikalarında, habelə dünyanın bir çox ölkələrində milli neft sənayesinin yaradılmasında müstəsna rol oynamış Azərbaycan SSR-in özünün neft sənayesi 1980-ci illərin sonu – 1990-cı illərin əvvəlində respublikada yaranmış siyasi-iqtisadi böhran, bunun nəticəsində Mərkəzi hökumətin təhriki ilə başlanmış erməni separatizminin törətdiyi Dağlıq Qarabağ münaqişəsinin ağır fəsadları və o zamankı ölkə rəhbərliyinin bu sahəyə diqqətinin azalması nəticəsində ağır vəziyyətə düşmüşdü.

Dövlət müstəqilliyinin ilk illərində (1992-1993-cü illər) respublikada neft hasilatı 12,5 milyon tondan 9,6 milyon tona, qaz hasilatı isə 9,9 milyard kubmetrdən 6,5 milyard kub.metrə enmiş, yəni neft hasilatı 3 milyon tonadək, qaz hasilatı isə 3,4 milyard kubmetr aşağı düşmüşdü [1,s.367]. Müstəqilik əldə etmiş keçmiş müttəfiq respublikalardan fərqli olaraq, 1991-1993-cü illərdə Azərbaycan Respublikasıdaha da dərinləşmiş iqtisadi böhranla bərabər, siyasi böhranla da üzləşmişdi. Bir tərəfdən Rusiya Federasiyasının təcavüzkar dairələrinin hərbi-siyasi yardımına arxalanan Ermənistanın hərbi təcavüzü, digər tərəfdən isə ölkə daxilində hakimiyyət uğrunda gedən amansız mübarizə Azərbaycanxalqınıvətəndaş

müharibəsi və parçalanma həddinə gətirib çıxarmışdı. Digər tərəfdən özünün geosiyasi vəziyyətinə görə Azərbaycan Respublikası keçmiş SSRİ-nin süqutundan sonra dünya dövlətləri üçün kəskin mübarizə və maraq obyektinə çevrilmişdi. Belə bir ağır hərbi-siyasi vəziyyətin yaranmasının əsas səbəblərindən biri isə Azərbaycan Respublikasının zəngin enerji ehtiyatlarına malik olması idi. Hələ XIX əsrin ikinci yarısından 1920-ci ilədək Azərbaycanın "qara qızılı"nın əsl qiymətini bilən Avropanın böyük neft şirkətləri artıq 1989-cu ildən respublika hökuməti ilə Xəzər dənizindəki zəngin neft yataqlarının birgə işlənilməsi haqqında danışıqlara başlamışdılar. Azərbaycan neftinə olan bu marağın artmasında 1989-cu ildə Şotlandiyanın "Remko" şirkətinin Bakıya səfər edən prezidenti S.Rempin Böyük Britaniyaya qayıtdıqdan sonra «BP» şirkəti ilə apardığı danışıqların böyük rolu olmuşdu.

Qeyd etmək lazımdır ki, 1991-ci ilin əvvəlində Abşeron yarımadasında neft istehsalında əlverişli şəraitin yaradılması üçün konkret işlər görülmüşdü.1991-ci il yanvarın 18-də SSRİ hökumətinin və Azərbaycan SSR Nazirlər Sovetinin birgə qərarı ilə Xəzər dənizinin Azərbaycan sektorundakı "Azəri" yatağının birgə kəşfiyyatı və işlənilməsinə dair "Xəzərdənizneftqaz"Birliyinin və xarici neft şirkətlərinin iştirakı ilə birgə müəssisəninyaradılması üçün müsabiqə keçirilməsi qərara almışdı. 1991-ci ilin iyununda keçirilən müsabiqənin qalibi ABŞ-ın "Amoko" şirkəti elan edilmişdi. Bundan sonra layihəyə "BP-Statoyl" alyansı, "Yunokal", "Mak Dermot" və"Remko"şirkətləri də cəlb olundular. Ancaq layihədə 45 faiz iştirak payına malik olan "Amoko" öz liderliyini saxlayırdı[2, s.7].

1992-ci ilin birinci yarısında AzərbaycanRespublikasında hakimiyyət uğrunda başlanan mübarizə və Xalq Cəbhəsi-Müsavat siyasi blokunun hakimiyyətə gəlməsi xarici şirkətlərlə nəzərdə tutulan müqavilənin imzalanmasını təxirə saldı. Lakin demək lazımdır ki, AXC-Müsavat hökumətinin də iqtisadi planında neft məsələsi ön planda idi.

1992-ci ilin sentyabrın 9-da Azərbaycan Respublikası Prezidentinin Fərmanıilə Dövlət Neft Şirkəti (ARDNŞ) yaradıldı və o, xarici şirkətlərlə danışıqları davam etdirməyə başladı. 1992-ci ilin sonuna yaxın Xəzər dənizinin Azərbaycan Respublikası sektorundakı dörd ən böyük neft yatağı –"Azəri", "Çıraq" və "Günəşli" yataqlarında və "Şahdəniz" perspektiv strukturunda kəşfiyyat və başqa işlərin birgə aparılmasına dair beş niyyət protokolu imzalandı."Amoko", "Penzoyl" və BP şirkətləri ilə yanaşı, layihəyə Türkiyə Cümhurriyyətinin "TPAO" şirkəti də cəlb edildi. Rusiya Federasiyasının "Lukoyl"şirkətinə və İranİslamRespublikasının neft şirkətlərinə isə layihədə iştirakda imtina olundu[3, s.255]. Bu isə, o dövrdə onsuz da çox ağır siyasi vəziyyətdə olan Azərbaycan Respublikasına qonşu olan dövlətlər – Rusiya Federasiyasıvə İran İslam Respublikası tərəfindən göstərilən təzyiqlərin artmasına səbəb oldu.

Rusiya Federasiyasının əlində oyuncaq «dövlət» olan Ermənistan RF MN-nə məxsus 366-cı alayın birbaşa iştirakı ilə1992-ci ilin fevralında Xocalı şəhərində Azərbaycan xalqına qarşı soyqırımı cinayəti törətdikdən sonra,həmin ilin mayında təcavüzü genişləndirərək, öz ərazisində yerləşdirilmiş RF-nın hərbi kontingentinin yardımı ilə AzərbaycanRespublikasının böyük hərbi-strateji əhəmiyyət kəsb edən Şuşa, Laçın, 1993-cü ilin aprelində isə Kəlbəcər rayonlarını işğal etdi[1, s.316]. Lakin burada belə bir fakta diqqət yetirmək lazımdır ki, 1991-ci ilin dekabrın 8-də SSRİ dövlətinin rəsmən süqut etdiyi elan edilsə də, Rusiya Federasiyasının təcavüzkar dairələri də Azərbaycan Respublikasının müstəqillik faktı ilə barışmaq istəmirdilər. Əslində,bu dairələr keçmiş SSRİ rəhbərliyində təmsil olunduqları üçün onların böyük əksəriyyəti qondarmaDağlıq Qarabağ münaqişəsinin yaradılmasının təşəbbüskarı idi.

1988-ci ilin fevralında Azərbaycan SSR-in Dağlıq Qarabağ bölgəsində SSRİ hökumətinin təhriki ilə başlanan erməni separatizmi 1991-ci ilin sonunda SSRİ-nin süqutundan sonra Ermənistanın Azərbaycan Respublikasına qarşı təcavüzünə çevrildi. Özünü SSRİ-nin hüquqi varisi elan edən Rusiya Federasiyasının təcavüzkar dairələrinin birbaşa əmri ilə 1991-ci il dekabrın sonundan 1993-cü ilin oktyabrın 28-dək onların hərbi-siyasi yardımı və bilavasitə iştirakı ilə Ermənistan silahlı qüvvələri Azərbaycan Respublikasına qarşı işğalçılıq müharibəsinə başladı. Bu fikri təsdiq edən ən mühüm faktlardan biri odur ki, 1992-ci ilin aprelayında Rusiya Federasiyası MNBQ yanında Müdafiə Tədqiqatları İnstitutu təsis edildikdən sonra, həmin institut tərəfindən RF Nazirlər Kabinetinə təqdim olunan «Rusiya Federasiyasının milli təhlükəsizliyi üçün yaranan əsas təhlükələrə qarşı müqavimət strategiyasının konseptual qaydaları» adlı sənəddə təsdiq edir[1,s.322].

Bu təcavüzkar ruhlu sənəddə Azərbaycan Respublikası ilə bağlı dörd maddə diqqəti xüsusilə cəlb edir. Həmin bu maddələrin hər birində Azərbaycan xalqına özünün ən qiymətli təbii sərvətlərindən biri olan neftdən müstəqil dövlət olaraq istifadə etdiyi təqdirdə RF-nın hansı hərbi-siyasi vasitələrə əl atacağı açıq şəkildə göstərilir[2,s.8].Bu sənəddə açıq-aydın şəkildə elan olunur ki, «...Mühüm vəzifə «Xəzər neft müharibəsi»nin istənilən şəkildə reallaşmasına yol verməməkdir. Bu sənədin Azərbaycana aid 4-cü maddəsində RF tərəfindən bütün tətbiq edilən vasitələr nəticə verməyəcəyi təqdirdə, «Bakıdakı rejimi» məcbur etmək üçün erməni hərbi qüvvələrinin Azərbaycan Respublikasının Gəncə və Yevlax şəhərləri istiqamətlərində hücumunun gücləndirilməsi göstərilir.

Heç şübhəsiz, RF-nın yüksək hərbi-siyasi dairələrində belə bir ciddi sənədin hazırlanması onu deməyə əsas verir ki, özünü keçmiş SSRİ-nin varisi elan edən Rusiya Federasiyasının hərbi-siyasi dairələri də öz siyasi taleyinin, o cümlədən təbii sərvətlərinin sahibi olan Azərbaycan xalqının müstəqil, azad və

suveren milli dövlət quruculuq istəyi ilə barışmaq istəmirdilər. Ona görə də, buna hər vasitəilə yol verməməyə çalışırdılar.

Qeyd etmək lazımdır ki,ənənəvi olaraq respublika iqtisadiyyatının əsasını neft sənayesi təşkil etdiyi üçün,1991-1993-cü illərdə də Azərbaycan Respublikasına rəhbərlikedən hakimiyyət sahiblərinin də hamısının iqtisadi planlarında neft əsas yer tuturdu.1993-cü ilin iyununda imzalanması nəzərdə tutulan AXC-Musavat hakimiyyətinin də hazırladığı müqavilənin sərtləri Azərbaycan Respublikasının bütün maraqlarına heç də tam səkildə cavab vermirdi. Müqavilənin sərtlərinə görə, ARDNŞ-in gəlir payı 70 faiz, xarici şirkətlərin gəlir payı isə 30 faiz təşkil edirdi[1, s.316].

1993-cü ilin mayında ARDNŞ ilə xarici şirkətlər arasında "Azəri", "Günəşli" və "Çıraq" yataqları üzrə birgə fəaliyyət haqqında 6-cı memorandum imzalandı və həmin il iyunun 4-də ARDNŞ-in Direktorlar Şurası birgə fəaliyyət haqqında bəyannamə qəbul etdi.Demək lazımdır ki,hazırlanmış bu müqavilədə XX əsrdə Bakı nefti hesabına super dövlətə çevrilən RF təmsil olunmamışdı.Ona görə də AXC-Müsavat rəhbərliyinin bu səhvindən məharətlə istifadə edən RF-nın təcavüzkar dairələri ölkədə hərbi-siyasi böhranın baş verməsi üçün Ermənistanın hərbi təcavüzünü genişləndirdilər. AXC-Müsavat rəhbərliyinin daxili və xarici siyasətdəki buraxdığı kobud səhvlər, səriştəsizlik və təcrübəsizlik 1993-cü ilin iyununda ölkədə çoxağır siyasi-ictimai və hərbi böhranın yaranmasına səbəb oldu. Ölkə daxilində vətəndaş müharibəsinin başlanması təhlükəsinin artmasını görən xalqın görkəmli ziyalıları Azərbaycan xalqı adından təcrübəli dövlət xadimi, Naxçıvan MR Ali Məclisinin Sədri Heydər Əliyevi Bakıya dəvət etdilər.

1993-cü il iyunun 15-də Azərbaycan Respublikası Ali Sovetinin sədri seçilən Heydər Əliyev elə ilk günlərdən çox ağır və həlli çətin olan məsələləri öz üzərinə götürdü. Ölkə tədricən siyasi və hərbi böhrandan çıxmağa başladı. Heydər Əliyev 1993-cü ilin ikinci yarısında respublikadayaranmış siyasi-iqtisadi və hərbi böhran şəraitində AXC-Müsavat hakimiyyətinin hazırladığı neft müqaviləsinin imzalanmasını təxirə saldı. Bir il ərziində gedən danışıqlar zamanı Prezident Heydər Əliyev edilən bütün təzyiqlərə baxmayaraq, Azərbaycan xalqının mənafeyinə xələl gətirə biləcək hər hansı müqaviləyə imza atmadı. O, yeni müqavilənin hazırlanması ilə bağlı nəzarəti öz əlində saxladı və hazırlanmış yeni müqavilənin çox böyük dəqiqliklə yoxlanılmasıüçün xarici ölkələrdən də ekspertlərin daxil olduğu komissiya yaratdı.

Prezident Heydər Əliyevin göstərişi ilə ARDNŞ-in rəhbərliyinə də təcrübəli mütəxəssislər cəlb olundu. Aparılan danışıqlarda əvvəlkindən fərqli olaraq, üç yox, iki –"Azəri" və "Çıraq"neft yataqlarından söhbət açılmasıvə bölgü məsələsində Azərbaycan Respublikasının payının 80 faiz təşkil edəcəyi nəzərdə tutulmuşdu. Xarici neft şirkətləri tərəfindən ödəniləcək bonusun həcmi 500 milyon dollar müəyyən olunurdu ki, bu məbləğin də yarısı müqaviləni

imzalayan şirkətlərin ölkələrinin parlamentlərində ratifikasiya edildikdən sonra, dərhal ödənilməli idi[2].

Digər tərəfdən, o vaxt Türkiyə Cümhuriyyəti Bosfor və Dardanel boğazlarından keçən neftdaşıyan tankerlərin sayının azaldılması tələbi ilə çıxış edərək, tez-tez bas verən qəzalar nəticəsində İstanbul səhəri və digər yaşayış məntəqələri üçün təhlükə törəndiyini bəyan etmişdi. Türkiyə hökuməti 1994-cü ilin martında boğazlardan gəmilərin keçməsi üçün yeni cədvəl tərtib edərək Beynəlxalq Dəniz Təşkilatına təqdim etdi və onun qəbuluna nail oldu. Bu isə Orta Asiya və Azərbaycan neftinin Novorossiysk vasitəsilə ixrac olunması ehtimalını heçə endirirdi.

Qərb ölkələrinin neft şirkətləri ilə ARDNŞ arasında1994-cü ilin mayında Türkiyənin İstanbul şəhərində aparılan danışıqlar çox ağır gedirdi. Danışıqların daha səmərəli olması üçün Prezident Heydər Əliyevin fərmanı ilə 1994-cü il martın 1-də İlham Əliyev ARDNS-in birinci vitse-prezidenti təyin edildi[3, s.246]. Prezident İlham Əliyev sonralar"Caspian Energy" jurnalına verdiyi müsahibəsində deyirdi: "Bu zaman bizim qarşımızda bir necə əsas vəzifə dayanmışdı: birincisi, müqavilənin imzalanmasına nail olmaq. İkincisi, müqavilədəAzərbaycan üçün ən əlverişli sərtlər – həm hüquqi, həm də iqtisadı – yaratmaq. Üçüncüsü isə, müqavilənin işləməsinə nail olmaq".Danışıqların son mərhələsində xarici şirkətlərin nümayəndələri müqavilənin qüvvəyə minməsini onun imzalanmasından və iştirakçı ölkələrin parlamentlərində ratifikasiyasından sonra deyil, yalnız Xəzər dənizinin hüquqi statusunun həll olunmasından sonra qəbul edəcəklərini söylədilər.Müqavilə ətrafında belə bir vəziyyətin yaranmasının əsas səbəbkarı isə 1994-cü il sentyabrın 21-də RF XİN-nin "Əsrin müqaviləsi"-nin imzalanmasından sonra onu tanımadığı barədə verdiyi bəyanat oldu[3, s.246].

Təbii ki, Azərbaycan hökuməti buna razı ola bilməzdi. Çünki, bu şərtin qəbul edilməsi müqavilənin kağız üzərində qalacağı demək idi. Buna görə də, Prezident Heydər Əliyevin tapşırığı ilə ARDNŞ-in birinci vitse-prezidenti İlham Əliyev ABŞ-ın hökumət nümayəndələri ilə danışıqlaraparmaq üçün Vaşinqtona yollandı və danışıqlar öz müsbət nəticəsini verdi [3, s.247].

Lakin,yuxarıda deyildiyi kimi, Rusiya Federasiyasının təcavüzkar dairələriAzərbaycan Respublikasının Xəzər dənizində xarici şirkətlərlə neft hasilatına dair müqavilə imzalamasına yol verməк istəmirdilər. 1993-cü ilin yazında Xəzərin Azərbaycan Respublikası sektorunda neft yataqlarının xarici ölkələrin neft şirkətləri ilə birgə işlənməsinə dair müqavilənin imzalanması mərasiminin yaxınlaşdığını görən həmin dairələr, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı Azərbaycan Respublikasının dövlət müstəqilliyinə zərbə vura biləcək təkliflər irəli sürərək, onun iqtisadi maraqlarının dənizin yalnız 12 millik zona çərçivəsində məhdudlaşacağını bildirdilər. Bu isə

Azərbaycan Respublikasının öz sektorunda yerləşən "Azəri", "Çıraq" və "Günəşli" neft yataqları üzərində nəzarətini itirməsi demək idi.

Rusiya Federasiyası hökuməti Xəzər dənizinin hüquqi statusu məsələsini ortaya ataraq, Azərbaycan Respublikası ilə Böyük Britaniya arasında 1994-cü ildə imzalanmış "Energetika sahəsində əməkdaşlıq haqqında" memorandumda "Xəzər dənizinin Azərbaycan sektoru" ifadəsinin işlədilməsinə qarşı öz etirazını bildirmişdi. Artıq Azərbaycan Respublikasının müstəqil xarici və daxili siyasət yeridəcəyini yəqin edən Rusiya Federasiyasının imperiyapərəst militarist qüvvələri Ermənistana hərbi yardımı gücləndirərək, 1993-cü ilin iyul-oktyabr aylarında ölkənin Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarının işğal olunmasına şərait yaratdılar.

Bundan əlavə, RF Prezidenti B.Yeltsin 1994-cü il iyulun 21-də “Rusiya Federasiyasının Xəzər dənizində maraqlarının təmin olunması haqqında” 395-RPS saylı sərancam imzaladı.Bu isə, əslində, Xəzər dənizində Azərbaycan Respublikasına qarşı “soyuq müharibənin” elan edilməsi demək idi [4, s.611].

”Əsrin müqaviləsi” imzalandıqdan sonra, 1994-cü il oktyabrın 12-də RF XİN A.Kozırev Prezident Heydər Əliyevə zəng edərək, hədə-qorxu gəlməklə bərabər, RF Baş Naziri V.S.Cernomordinə təqdimat yazaraq, Azərbaycana qarşı siyasi və iqtqsadi sanksiyalar tətbiq etməyi tələb etmişdi.RF-in Müdafiə Naziri P.S.Qraçov isə Prezident Heydər Əliyevlə görüşü zamanı “...əgər Azərbaycan Respublikası planlaşdırdığından imtina etməsə,bu zaman erməni tankları Bakı şəhərinin küçələrində görünə bilər”- deyə hədələsə də, çox sərt cavab almışdı[4, s.612]. Yalnız, Azərbaycan Prezidenti Heydər Əliyevin apardığı diplomatik səylər nəticəsində 1994-cü il mayın 12-də Ermənistanla müharibədə atəşkəs əldə edilməsinə dair saziş imzalandı.Lakin,bütün bunlara baxmayaraq, RF-in hərbi-siyasi dairələri Ermənistanı ən müasir silah və hərbi texnika ilə təmin etmək işini bu gün də davam etdirirlər.Təkcə bu faktı göstərmək kifayətdir ki,RFtərəfindən Ermənistana 1997-2017-ci illərdə dəyəri 4 milyard dollardan çox olan silah, pulu ödənilmədən verilmişdir[4, s.612].

1997-ci il yanvarm 13-də Parisdə "Lənkərandəniz" və "Talısdəniz" yataqlarının birgə İstismarına dair "Elf-Akitien" və "Total" şirkətləri ilə ARDNŞ arasında müqavilələr imzalandı. Avqustun 1-də isə Vasinqtonda – Ağ evdə ABŞ-ın "Şevron", "Ekson", "Mobil" və"Amoko"sirkətləri ilə ARDN Şarasmda Xəzər dənizinin Azərbaycan sektorundakı"Abseron", "Naxçıvan", "Oğuz" və "İnam" neft yataqlarında birgə işlənilməsi haqqında 8 milyard dollar dəyərində 3 yeni müqavilə imzalandı. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin ABŞ-a rəsmi səfəri zamanı imzalanan bu müqavilələr ölkəmizin siyasi və iqtisadi müstəqilliyinin daha da möhkəmlənməsi üçün mühüm bir əsas yaratdı[1, s.376].

"Əsrin müqaviləsi" imzalandıqdan sonra Azərbaycan Respublikasının qarşısında duran ən mühüm problemlərdən biri hasil edilən neftin dünya

bazarlarına çıxarılması məsələsi idi. İlk növbədə milli mənafeləri ön plana çəkən Prezident Heydər Əliyev Azərbaycan neftinin xarici bazarlara çıxarılmasi işində çoxşaxəli neft kəmərlərinin cəkilişinə üstünlük verdi. Bu, əslində Azərbaycan Respublikasının təkcə Qafqaz regionunda deyil, o cümlədən Avropada strateji maraqlarının uzun müddət ərzində təmin edilməsi idi. Buna görə də Azərbaycan Respublikası hökuməti Rusiya Federasiyası və Gürcüstan dövləti ilə danısıqlar aparmağa başladı. "Azəri", "Çıraq" və "Günəsli" yataqlarından hasil olunacaq ilkin neftin Qara dəniz limanlarına "Simal" və "Qərb" neft kəmərləri ilə nəqli barədə müqavilələr bağlandı. Bakı-Novorossiysk "Simal" kəmərinin Azərbaycan Respublikasına aid hissəsi 1996-cı ilin sonuna qədər hazır oldu və 1997-ci il oktyabrın 25-də istifadəyə verildi. "Qərb" marşrutu üzrə Bakı-Supsa neft kəmərinin tikintisi 1998-ci ilin axırlarında basə çatdırıldı. 1999-cu il aprein 17-də bu kəmər və”Supsa” terminalı istifadəyə verildi[1, s.377].

1996-cı ildən dənizdə ABƏŞ-in (İndi “BP Azərbaycan” Beynəlxalq Əməliyyat Şirkəti-C.B,S.G) qəzdığı ilk neft quyusu güclü fontan vurdu və yataqların böyük ehtiyatları bir daha təsdiq olundu. 1997-ci il noyabrın 12-də Azərbaycanın tarixində mühüm hadisə bas verdi - "Əsrin müqaviləsi" üzrə ilkin neftin hasilatına başlanıldı. Bununla əlaqədar təşkil olunmus mərasimdə çıxıs edən Prezident Heydər Əliyev Azərbaycan xalqını, bütün Azərbaycan Respublikası vətəndaşlarını bu tarixi və əlamətdar hadisə münasibəti ilə təbrik edərək demişdi: "1994-cü ilin sentyabr ayında biz ilk böyük neft müqaviləsini imzalayarkən dünyaya nümayiş etdirdik ki, Azərbaycan müstəqil dövlətdir və müstəqil dövlət kimi öz təbii sərvətlərinin sahibi olaraq, onlardan istifadə edilməsi haqqında qərarlar qəbul edir. Üç il keçəndən sonra biz bir daha təsdiq edirik ki, Azərbaycan müstəqil dövlətdir. Azərbaycanın dövlət müstəqilliyi dönməzdir, əbədidir və biz artıq bu müstəqilliyimizin gözəl bəhrələrini görürük. Bizim bu gün gördüyümüz işlər XXI əsrdə gələcək nəsillər ücün görülən işlərdir”[5, s.150].

"Əsrin müqaviləsi" üzrə əsas işlərin birinci fazasının başlanması üçün Xəzər dənizindən Aralıq dənizınə qədər uzanan, ildə 50-60 milyon ton neft nəql edə biləcək, uzunluğu 1768 km olacaq iridiametrli Bakı-Tbilisi-Ceyhan boru kəmərinin tikintisi haqqmda saziş əldə olunması vacib idi. 1998-ci ilin mayında müqavilənin hazırlanması üçün isçi qrupu yaradılmışdı. Həmin il oktyabrın 29-da Azərbaycan, Türkiyə, Gürcüstan, Qazaxıstan, Özbəkistan prezidentlərinin və ABS energetika nazirinin imzaladıqiarı bəyanat bu kəmərə dair danışıqiara təkan verdi.

1999-cu il noyabrın 18-də İstanbulda "Xam neftin Azərbaycan Respublikası, Gürcüstan Respublikası və Türkiyə Respublikasının əraziləri ilə Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri vasitəsilə nəql edilməsinə dair" saziş itnzalandı. Bu zaman Azərbaycan, Türkiyə, Gürcüstan, Qazaxıstan və

ABŞ-ın dövlət basçıları tərəfindən imzalanan "İstanbul Bəyannaməsi" layihənin yüksək səviyyədə dəstəkləndiyinə sübut oldu.Qeyd etmək lazımdır ki, bu sazişin hazırlanmasına da ciddi maneələr törədilirdi. Şirkətlərin bəziləri kənardan təsirlər nəticəsində belə bir kəmərə ehtiyacın olmasına bədbinliklə yanasırdılar. Qoyulacaq sərmayələr haqqında da müxtəlif fikirlər vardı. Lakin yaradılan bütün maneələrə və çətinliklərə baxmayaraq, Prezident Heydər Əliyevin həyata keçirdiyi məqsədyönlü neft strategiyası uğurla nəticələndi. İstanbulda imzalanma mərasimindən sonra cıxıs edən Prezident Heydər Əliyev demişdi ki, "Əsrin müqaviləsinin imzalanmasından Bakı-Tbilisi-Ceyhan strateji neft kəmərinə daır müqavilələr paketinin imzalanmasına qədər olan beş il ərzində görülən işlərdən qürur hissi duyuruq"[6, s.153].

2002-ci il avqustun 1-də bu kəmərin tikilməsi və idarə edilmesi ücün sirkət təsis ediidi. Sentyabrın 18-də kəmərin təməli qoyuldu. Bu münasibətlə tədbirlərdə istirak etmək üçün Türkiyə Prezidenti Əhməd Necdət Sezər, Gürcüstan Prezidenti Eduard Şevardnadze, ABS-ın energetika naziri Spenser Abraham Bakıya gəlmişdilər. 3 mlrd. dollara qədər dəyəri olan bu kəmərin sahibi Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (25 faiz), Böyük Britaniyanın BP (30,1 faiz), ABS-ın "Yunokal" (8,9 faiz), KonokoFilips (2,5 faiz), Norveçin "Statoyl" (8,72 faiz), Türkiyənin "Türkiyə Petrolleri AO" (6,53 faiz), Yaponiyanın "İtocu" (3,4 faiz) və "İnpeks" (2,5 faiz), Səudiyyə Ərəbistanının "Delta Hess" (2,36 faiz), İtaliyanın “Eni” (5 faiz) və Fransanın “Total Fina Elf” (5 faiz) şirkətləri idi[6, s.497].

Xalqın iradəsi, çağırışı və təkidi ilə 1993-cü ildə Heydər Əliyevin hakimiyyətə qayıdısı Azərbaycan Respublikasının siyasi və iqtisadi həyatında taleyüklü dəyişikliklərin başlanğıcını qoydu. O zaman ARDNŞ-in birinci vitse-prezidentı, Milli Məclisin deputatı İiham Əliyev yeni neft strategiyasının hazırlanmasının və uğurla həyata kecirilməsinin ən fəal iştirakçılarından biri idi. Onun bütün fəafiyyətinin mərkəzində özünün yığcam şəkildə ifadə etdiyi belə bir möhkəm ideya dururdu: "Bizim məqsədimiz təkcə neft hasil etmək, onu nəql etmək, bundan vəsait əldə etməkdən ibarət deyil. Bizim məqsədimiz neftdən gələn bütün mənfəətləri - həm siyasi, həm iqtisadi, həm də başqa mənfəətləri Azərbaycan xalqının gələcək mənafeyinə, rifahına yönəltməkdən ibarətdir. Onun iştirakçısı olduğu saysız-hesabsız görüşlər və danışıqlar məhzbu devizaltında keçirilirdi. Əlbəttə, çətinliklər və maneələr də olurdu, bəzən müəyyən sərtlərin qəbuledilməzliyi ucbatından danışıqları dayandırmaq məqamına çatırdıq”.Prezident İlham Əliyev həmin anları sonra belə xatırılayır: "Biz xarici şirkətlərə deyirdik: siz ayrı-ayrı sirkətlərin maraqlarını müdafiə edirsiniz. Biz isə ölkənin və Azərbaycan xalqının maraqlarını müdafiə edirik. Əgər siz səhvə yol versəniz, bu sizin şirkətin yalnız bir layihəsində öz əksini tapacaq, əgər biz səhv etsək, bu səhv bütün Azərbaycan xalqının mənafeyinə

xələl gətirəcəkdir. Basqa sözlə, biz heç cür heç bir səhvə yol verə bilmərik"[2,s.10].

1994-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi" imzalananda Azərbaycan Respublikası kasıb bir ölkə idi.Onun valyuta ehtiyatları yox dərəcəsində idi. Həyata keçirilən tədbirlər sayəsində respublikanın neft sənayesi dirçəldi, sürətlə inkişaf etməyə basladı. Artıq 2002-ci ildə ölkədə 15,3 milyonton neft hasil edildi (2009-cu ifdə 51,4 milyon ton neft hasil edilmisdir). Neft müqaviləsi gəlir gətirməyə basladı. Prezidentin Fərmanı ilə 1999-cu ilin dekabrında Azərbaycan Respublikası Dövlət Neft Fondu təsis olundu, 2001-ci ilin dekabrında onu Müsahidə Şurası təşkil edildi. Azərbaycan Respublikasnın yeni neft strategiyasının banisi Heydər Əliyev bu Fondu güclü iqtisadiyyat yaratmaq vasitəsi kimi qiymətləndirmişdi.

1988-ci ildə Ermənistan Respublikasının Azərbaycana qarşı başladığı hərbi təcavüz 1994-cü il mayın 12-də ölkə ərazisinin 17,4 min $км^2$ ərazisinin işğalı ilə nəticələndi. Azərbaycan xalqına dəyən zərərin ümumi həcmi Azərbaycan hökumətinin beynəlxalq təşkilatların nümayəndələri ilə birlikdə yaratdığı Beynəlxalq Komissiyanın gəldiyi nəticəyə görə 819 milyard 15 milyonABŞ dolları təşkil edir[7].

Hazırda beynəlxalq layihələrdə istirak etməklə yanası ARDNŞ Azərbaycan Respublikasının quru və dəniz ərazilərində yerləşən 30-dan artıq yataqda müstəqil fəaliyyət göstərir.Ölkə iqtisadiyyatının inkisafında önəmli rol oynayan ARDNŞ Gürcüstan, Türkiyə, Ukrayna, İsveçrə və digər ölkələrə də böyük sərmayələr yatırmaqla və bu istiqamətdə uğurlu fəaliyyət göstərməklə dünyada Azərbaycan Respublikası iqtisadiyyatının layiqli təmsilçisinə çevrilmişdir. Ümumiyyətlə, bu gün Azərbaycan nefti, qazı və neft məhsulları müxtəlif marşrutlarla dünyanın 30 ölkəsinə ixrac edilir.

## Ədəbiyyat:


1. Azərbaycan tarixi.VII cild, Bakı: 2008.
2. Caspian energy.Bakı: 1997.
3. Azərbaycan nefti. Bakı: 2010.
4. Султанов Ч.Исторические расследования.Баку:2016.
5. ƏliyevH.Ə. Azərbaycan nefti dünya siyasətində.Bakı:1997.
6. АлиевИ.Г.Каспийская нефть Азербайджана.Москва: 2003.
7. “Azərbaycan” qəzeti, 23 fevral, 2017.

# AZƏRBAYCAN RESPUBLİKASININ ƏRAZİ BÜTÖVLÜYÜ UĞRUNDA GEDƏN DÖYÜŞLƏRDƏ QADINLARIN İŞTİRAKI (1992-1994)

***Tamam Şaməmməd qızı Cəfərova***
*Azərbaycan Dillər Universiteti*
*tjafarova59@mail.ru*

**Açar sözlər**: *qadın döyüşçülər, Qarabağ müharibəsi, Azərbaycanın Milli Qəhrəmanı, Şəhidlər xiyabanı*

*Məqalədə Qarabağ uğrunda gedən döyüşlərdə fərqlənən azərbaycanlı qadınlardan bəhs olunur. Yüzlərlə qadın erməni işğalçı qüvvələrinin Azərbaycan Respublikasına hərbi təcavüzünün qarşısını almaq üçün hərbi əməliyyatlarda iştirak edib. Onlardan bir çoxu əsgər, siqnalçı, snayper, tankçı, tibb bacısı kimi döyüşərək, canlarını əsirgəmədilər və vətən uğrunda gedən döyüşlərdə şəhid oldular. Məqalədə Azərbaycanın Milli Qəhrəmanları Salatın Əsgərova, Gültəkin Əsgərova, eləcə də 26 qadın qəhrəman haqqında məlumat yer alıb. Müəllif müxtəlif mənbələrdən istifadə edərək qadın döyüşçülərinin və şəhidlərinin döyüşlərinin tarixinə aydınlıq gətirməyə çalışıb.*

## ФАКТЫ ЖЕНСКОГО ГЕРОИЗМА В БИТВАХ ЗА ТЕРРИТОРИАЛЬНУЮ ЦЕЛОСТНОСТЬ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ(1992-1994)

***Тамам Джафарова***

**Ключевые слова:** *женщины-бойцы, Карабахская война, Национальный Герой Азербайджана, Аллея Шахидов*

*В статье рассказывается об азербайджанских женщинах, отличившихся в сражениях за Карабах. Сотни женщин участвовали в военных операциях, чтобы предотвратить против Азербайджанской Республики. Многие из них, воевавшие в качестве солдат, связистов, снайперов, танкистов, медсестер нежалели свою жизнь и в боях за Родину пали смертью шехидов. В статье содержится информация о Национальных героях Азербайджана Салатын Аскеровой, Гюльтекин Аскеровой, а также 26 женщинах героев. Используя различные источники, автор пытался пролить свет на историю сражений женщин-бойцов и шехидов.*

# PARTİCİPATİON OF WOMEN İN THE BATTLES FOR THE TERRİTORİAL İNTEGRİTY OF THE REPUBLİC OF AZERBAİJAN (1992-1994)

***Tamam Jafarova***

**Keywords:**_female fighters, Karabakh war, National Hero of Azerbaijan, Alley of Martyrs_

*The article deals with Azerbaijani women who distinguished in the battles for Karabakh. Hundreds of women sacrificed their lives as soldiers, communicators, snipers, tankers, nurses to prevent the military aggression of the Armenian occupying forces against the Republic of Azerbaijan and many of them were women martyrs for the Motherland. The article contains information about the National Heroes of Azerbaijan, Salatin Askerova, Gultekin Askerova, as well as 26 heroic female fighters. The author tried to cast light on theways of battles of women veterans and martyrs by using various sources.*

Azərbaycan qadınlarının milli tariximizin bütün dövrlərində öz iradəsi və mərdliyi, saflığı və sədaqəti ilə ölkənin ictimai-siyasi həyatında, xalqın milli-mənəvi dəyərlər sisteminin formalaşdırılmasında müstəsna yeri vardır. Dövlət müstəqilliyinin bərpasından sonra Azərbaycan Respublikasının ərazi bütövlüyünün qorunması, müdafiə qüdrətinin artırılmasında və milli ordu quruculuğunda zəngin mənəvi-intellektual səviyyəsi ilə fərqlənən Azərbaycan qadınları da yaxından iştirak etmişlər.Bu iş bu gün də davam edir. Qadınlar XX əsrin 80-ci illərinin sonu 90-cı illərinin əvvəllərində milli-azadlıq hərəkatının bütün mərhələlərində və o cümlədən Qarabağ uğrunda gedən döyüşlərdə öz qəhrəmanlıqları ilə fərqlənmişlər.

Azərbaycan qadınları 1992-1994-cü illərdə Azərbaycan Milli Ordusunun bütün qoşun növlərində, hərbi tibb müəssisələrində, qospitallarda və digər sahələrdə əvəzsiz xidmət etmişlər. Qarabağ uğrunda gedən döyüşlərin ən qızğın dövründə Azərbaycan Respublikasının 74 min hərbi qulluqçusundan 2 min nəfəri qadın idi və onlardan 600 nəfəri hərbi əməliyyatlarda birbaşa iştirak etmişdi. 1992-ci ildə qadınlardan ibarət batalyon da yaradılmışdı. 1992-ci ildən başlayaraq Müdafiə Nazirliyinin ilk nizami briqadası könüllülər hesabına kompleksləşdirilirdi. Xüsusən, tibb bacıları və qadın həkimlərin ordu sıralarına yazılması kütləvi hal almışdı.

Qadınlar döyüşən hərbi hissələrin sıralarında kişilərlə bərabər vuruşurdular. Məsələn, birinci desant-hücum briqadasının sıralarına yazılan ilk döyüşçülərdən biri Nurcahan Hüseynova olmuşdur. Qarabağ müharibəsi

veteranı Elmira Hüseynova ilk dəfə Azərbaycanın Milli Qəhrəmanı Allahverdi Bağırovun qərargahında xidmətə başlamış, cəbhənin ən qaynar nöqtələrində olmuş, 100-dən çox vətəndaşımızın erməni əsirləri ilə dəyişdirilməsi əməliyyatlarında iştirak etmişdir. O, 1992-ci ilin yazından Şirin Mirzəyevin 836 saylı hərbi hissəsinin 5-ci batalyonunda döyüşçü, jurnalist, həmin ilin payızından isə 6-cı batalyonda döyüşçü, tibb xidmətinin rəisi kimi çalışmışdır [1,s.19].

Azərbaycanın ilk şəhid qadın jurnalisti Salatın Əsgərova Dağlıq Qarabağda erməni silahlılarının törətdiyi vəhşiliklər barədə "Molodyoj Azerbaydjana" qəzetinin müxbiri kimi cəbhədən reportajlar hazırlayırdı. O, 1991-ci il yanvarın 9-da Laçından Şuşaya yollanarkən, Qaladərəsi kəndi yaxınlığında əyləşdiyi maşının erməni silahlıları tərəfindən atəşə tutulması nəticəsində həlak olub. Azərbaycan Respublikası Prezidentinin 6 noyabr 1992-ci il tarixli 294 saylı Fərmanı ilə Əsgərova Salatın Əziz qızına, ölümündən sonra, Azərbaycanın Milli Qəhrəmanı adı verilib. Qətlə yetirildiyi yerin yaxınlığındakı kənd onun adı ilə Salatınkəndadlandırılır [2, s.26; 3, s.23].

Ermənistanın hərbi təcavüzünə qarşı aparılan müharibə zamanı şəhidlik zirvəsinə ucalmış Gültəkin Əsgərova 20 noyabr 1960-ci ildə Bakı şəhərində doğulub. Azərbaycan Tibb Universitetini bitirdikdən sonra1985-ci ildə əmək fəaliyyətinə 8 saylı Təcili Yardım Stansiyasında başlayır.1992-ci il aprelin 4-də 5 tibb bacısı ilə könüllü cəbhəyə gedir. 19 iyul 1992-ci ildə Əsgəran rayonunun Aranzəmin yüksəkliyi uğrunda gedən döyüşdə qəhrəmancasına şəhid olub[4, s.9; 5, s.6]. Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə Əsgərova Gültəkin Məlik qızına (1960-1992) Azərbaycanın Milli Qəhrəmanı adı verilib [3, s.34].

Ölümündən sonra "Azərbaycan Bayrağı" ordeni ilə təltif olunanQaratel Şəmi qızı Hacımuradova 1948-ci ildə Ağdam rayonunun Aşağı Əskipara kəndində doğulub. 1962-ci ildən Bakı Ticarət Texnikumunda, 1965-1970-ci illərdə Azərbaycan Xalq Təsərrüfatı İnstitutunda təhsilini davam etdirib. Q.Hacımuradova 1976-1991-ci illərdə neft-kəşfiyyat idarəsində işləmiş, müharibə başlayan andan kəndin könüllü özünümüdafiə dəstəsinə qoşulmuşdu. 1990-cı ildə Bağanıs-Ayrımda baş verən soyqrımı cinayətindən sonra ermənilər ətraf kəndləri müntəzəm olaraq atəşə tuturdular. Aşağı Əskipara strateji cəhətdən mühüm mövqedə olduğundan kənd gənclərindən ibarət könüllü özünümüdafiə batalyonu yaradılır.Q.Hacımuradova erməni işğalçılarının kəndi işğal etməsinin qarşısının alınması zamanı aparılan ağır döyüşlərin birində düşmən əlinə sağ keçməmək üçün özündə saxladığı zəhəri içərək həlak olur [6, s.19 ].

Qarabağ müharibəsi veteranı Gülnarə Cabbarova 1971-ci ildə Qubada dünyaya göz açıb.Həyat yoldaşı ilə bərabər Ağdam istiqamətində gedən döyüşlərə qatılıb. Ağdam hospitalında tibb bacısı olaraq xidmət edib. Ağdamın

Yusifcanlı kəndində yerləşən hərbi xəstəxanada tibb bacısı olaraq xidmət edib [7, s.5].

Bədən Tərbiyəsi və İdman Akademiyasında təhsil alan, döyüş yoldaşları arasında "Qaqa" ləqəbi ilə tanınan Aidə Şirinova birinci dərəcəli idman ustası olub. Bərdə şəhəri hərbi və idman müəllimlərindən təşkil olunmuş batalyona daxil olaraq, əsgərlərin fiziki hazırlığı üzrə rəis, sonra əsgərlərin sosial müdafiəsi üzrə batalyon komandirinin müavini vəzifəsinə təyin edilib. Talış, Gülüstan, Marağa, Marquşavan, Həsənqaya, Aşağı və Yuxarı Çaylı, Ağdərə, Qırmızıkənd, Kasaped, Dəmirli, Orta kənd, Dranbon, Çıldıran və başqa yaşayış məntəqələrinin erməni hərbi birləşmələrindəntəmizlənməsində iştirak edib[8, s.11].

Ağdaş rayonunda doğulan Rühəngül Paşa qızı Hüseynli gəncliyini Qarabağ döyüşlərində keçirib. Ali iqtisad təhsili alıb. Respublika Nəqliyyat Nazirliyində şöbə müdiri işləyib. Xidməti fəaliyyəti ilə bağlı Qarabağ regionunda - Xocalı, Şuşa, Xocavənd, Qubadlı, Cəbrayıl, Xankəndində ezamiyyətdə olub. Onun əsas fəaliyyəti döyüş ərazisini nəqliyyatla təmin etməkdən ibarət idi. 1992-ci ildə Xocavənddə gedən döyüşlərin birində yaralanıb [9, s.11].

Növrəstə Ağakərim qızı Yusifova Bakıda doğulub, ali təhsillidir. İlk dəfə Şıxov batalyonuna daxil edilməsi üçün müraciət etsə də, qəbul edilməyib. Binəqədi rayon İcra Hakimiyyətinin indiki binasında Qarabağ Müdafiə Batalyonunun Könüllülər Şurası onun atıcılıq üzrə respublika birincisi olduğunu nəzərə alaraq,snayperçi-atıçı kimi heyətə qəbul edərək, döyüş bölgəsinə göndərib. Azərbaycanın ilk snayper və kəşfiyyatçı qadını kimi Növrəstə Yusifova Ağdam, Goranboy, Qubadlı, Ağdərə, Zəngilan və digər rayonların düşməndən müdafiəsində iştirak edib. Növrəstə Yusifova hazırda Qarabağ Əlilləri və Veteranları Cəmiyyətinin sədridir [10, s.11].

Sevil Rəsulova 1960-cı ildə Ağdaş rayonunda anadan olub. Bakıdakı 175 saylı məktəbdə təhsil alıb. 1990-cı ilin yanvarında Ağdam könüllü batalyonuna yazılaraq, ölkəmizin ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə fəal iştirak edib. Naxçıvanik,Sırxavənd vəAğdərə yüksəklikləri uğrunda gedən döyüşlərdə vuruşub. Malıbəylidən dinc sakinlərin çıxarılmasında iştirak edib. 1992-ci ilin iyul ayının 30-da ayağından yaralansa da, yenidən cəbhəyə qayıdıb. Əsgəran uğrunda gedən döyüşlərin birində isə başından və çiynindən qəlpə yarası alıb. Laçının müdafiəsi uğrunda döyüşlərdə onurğa sütunundan yaralanıb. I qrup Qarabağ müharibəsi əlilidir [11, s. 5].

Kəmalə Məmmədova 1991-ci ildə 18 yaşında könüllü olaraq Qarabağa - döyüş bölgəsinə gedib. 1992-ci ildə başından güllə yarası alsa da, 2 aylıq müalicədən sonra, yenə döyüşə qayıdıb. 1993-cü il Murovda və Ağdamda gedən döyüşlərdə iştirak edərək, dəfələrlə döyüş mövqeyindən yaralı əsgər yoldaşlarını xilas edib. Hazırda respublika Fövqəladə Hallar Nazirliyi orqanlarında xidmət edir.

Vəfa Mansurova 1966-cı il iyulun 23-də Qazax rayonunun Daş Salahlı kəndində anadan olub. Doğma kəndini düşmənlərdən qorumaq üçün silahdaşları ilə bərabər yaşayış yerinin ətrafında səngər qazdırıb, gecələr sərhəddə gözətçi növbələri yaradıb. Ziyalılarının, ağsaqqalların köməyi ilə kənddə ianə yığdıraraq, könüllü hərbi birləşmələr üçün xeyli sursat aldırıb. Onun və silahdaşlarının sayəsində düşmən sərhəddə yerləşən Daş Salahlı kəndinə yaxın düşə bilməyib [12].

Gülarə Musayeva 1954-cü ildə anadan olub. 1971-1976-cı illərdə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Riyaziyyat fakültəsində təhsil alıb. 1989-cu ildə Tədqiqatlar Elmi-İstehsal Birliyinin baş direktoru Tofiq İsmayılovun təqdimatı ilə Qarabağa - Xalq Komitəsinə təqdim olunub. 18 sentyabr 1990-cı ildən komitə tərəfindən Respublika Təşkilat Komitəsinə - Xankəndinə göndərilərək xüsusi təyinatlı nümayəndə kimi Dağlıq Qarabağ Muxtar Vilayətində, həmçinin Laçın, Qubadlı, Zəngilan, Kəlbəcər, Cəbrayıl, Fizuli, Ağdam, Qazax və Ağstafa bölgələrində fəaliyyət göstərib.Həmin illərdə Qarabağa Xalq Yardımı Komitəsində Rəyasət Heyətinin, komitənin orqanı olan “Azərbaycan” qəzetinin ştatdankənar xüsusi müxbiri və redaksiya heyətinin üzvü olub. 1992-ci il dekabrın 7-də Bakı şəhəri Nizami rayonu hərbi komissarlığı tərəfindən döyüşən orduya həqiqi hərbi xidmətə çağırılaraq, Müdafiə Nazirliyi Kəşfiyyat İdarəsi rəisinin sərəncamına göndərilib.1993-cü il yanvarın 16-da 707 nömrəli hərbi hissədə gənclərlə iş üzrə təlimatçı, 1994-cü ildən 1998-ci ilə qədər 171 nömrəli hərbi hissədə 2-ci tabor komandirinin müavini, 1998-ci ildən 2002-ci ilə qədər 251 nömrəli hərbi hissə komandirinin tərbiyə işləri üzrə müavini vəzifələrində çalışıb. Azərbaycan Respublikası müdafiə nazirinin 31 may 2002-ci il tarixli əmrinə əsasən tərxis olunub. Döyüş bölgəsində həqiqi hərbi xidmətdə olduğu üçün, 1997-ci ildə BDU-nun Hüquq fakültəsində diplom işini müdafiə edərək, hüquqşünas ixtisasına yiyələnib. 1992-ci ilin dekabrında Müdafiə Nazirliyinin Kəşfiyyat idarəsinin sərəncamına - 472 saylı hərbi hissəyə, oradan da Qazaxdakı 707 nömrəli hərbi hissəyə göndərilib. 1992-ci ilə qədər Xankəndində yerləşən Respublika Təşkilat Komitəsinə ezam olunub. Bu qrupa Dadaş Rzayev və Əlif Hacıyev də daxil idi. Gülarə Musayeva türk dilləri üzrə mütəxəssis kimi “polkovnik Qalina İsaqovna Tişinka” məxfi adı altında hərbi kəşfiyyat əməliyyatlarında iştirak edirdi [13, s.5].

Qarabağ uğrunda gedən döyüşlərdə iştirak edən şəfqət bacısı, çavuş Dilşad İsmayılova 1992-1994-cü illərdə cəbhədə yaralanan 587 əsgəri döyüş meydanından çıxara bilmişdi.

1963-cü ildə Qobustan rayonunda doğulan Gülpəri Sərkərova isə döyüş yoluna könüllü olaraq 1992-ci ildə Ağdamda, “Dəmiryeyənlər” adlı batalyonda başlamış, kəşfiyyatçı olmuşdur. Sırxavənd-Kican əməliyyatında, Papravənd

kəndinin müdafiəsində böyük qəhrəmanlıq göstərib. 1994-cü il mayın 12-də imzalanan atəşkəsdən sonra Neft Daşlarında işləyib.

1962-ci ildə Maştağa qəsəbəsində doğulan, 187 saylı orta məktəbi və Bakı 1 saylı Tibb Məktəbini bitirən Elmira İbrahimova 1992-ci ildə Sabunçu rayon Hərbi Komissarlığa müraciət edərək cəbhə bölgəsinə göndərilməsinə nail olub. O, Tərtərdə "Qurtuluş" batalyonunda xidmət edərkən şəhid olmuş şəfqət bacısı Rəhilə Orucovanı əvəz edib. Marquşevan, Mehmanə, Sırxavənd, Dovşanlı, Çıldıran və Tərtər su anbarı ətrafındakı döyüşlərdə iştirak edib.

Qarabağ müharibəsi veteranı Şirin Həmid qızı Şirinxub (1948-ci il) 1993-cü ilin yanvarında könüllü olaraq cəbhəyə yollanıb. Ağdam rayonunun Şıxlar kəndi uğrunda döyüşlərdə idarə etdiyi "QAZ-66" maşını ilə yaralı döyüşçülərin atəş xəttindən çıxararaq, hərbi hospitala daşınmasında iştirak edib. Səhhətinə görə ordudan 1995-ci ildə tərxis olunub [14, 473-481].

Azərbaycan Respublikasının Qusar rayonundan olan Səmayə Bədəlova 1992-ci ildə könüllü olaraq cəbhəyə yollanıb. Laçın, Ağdam, Zəngilan, Cəbrayıl və Füzuli rayonlarında gedən döyüşlərdə iştirak edib. Müharibədə fərqləndiyi üçün ona tağım komandiri vəzifəsi verilib. Qadın döyüşçü 1994-cü ilin fevral ayında ilk dəfə başından yaralansa da, yarası sağalan kimi yenidən cəbhəyə qayıdıb. Səmayə Bədəlova 1995-ci ildə postda olarkən minaya düşüb ağır yaralandığı üçün hərbi xidmətdən tərxis olunub[15].

Məlahət Ənvər qızı Nəsibova 1953-cü il martın 30-da Şəmkir rayonunun Zəyəm kəndində anadan olub. Bakı Tikiş Fabrikində çalışıb.Dilarə Əliyeva adına Qadın Hüquqları Müdafiə Cəmiyyətinin üzvü kimi Bakıxanov adına tikiş fabrikinin nümayəndələri ilə Ağdam-Tərtər cəbhəsində döyüşən əsgərlərə yardım apararkən cəbhə bölgəsində qalmağa qərar verib. 2 avqust 1992-ci ildə Ağdərə rayonunun Drambon kəndinin (indiki Kəlbəcər rayonunun Heyvalı kəndi) düşməndən azad edilməsi uğurunda gedən döyüşdə Məlahət Nəsibova qəhrəmancasına həlak olub[16, s.11]. 1992-ci il avqustun 18-də Bakıda Şəhidlər Xiyabanında dəfn olunub.

Mərziyə Saleh qızı Piriyeva 1960-cı il mayın 19-da Zəngəzur mahalının indiki Qafan bölgəsində doğulub. 1990-cı ildə Bakı 1 saylı Tibb Məktəbinə daxil olub. Tibb bacısı kimi əmək fəaliyyətinə 1992-ci ildə Mərkəzi Hospitalda başlayıb. 1992-ci ildə ilin may ayında könüllü olaraq döyüş bölgəsinə, Ağdamdakı Marhızlı hospitalına göndərilib. 864-cü hərbi hissənin tərkibində Abdal Gülablı, Drambon, Sırxavənd və Çıldıran ətrafında döyüşlərdə iştirak edib. 1993-cü il aprelin 13-də strateji əhəmiyyətli Pirbulaq yüksəkliyinin düşməndən təmizlənməsi əməliyyatında ağır yaralanmasına baxmayaraq, sağaldıqdan sonra, yenidən ön xəttə qayıdıb [15, s.22-30].

Yazıçı-jurnalist Zemfira Məhərrəmlinin müəllifi olduğu "Qarabağ müharibəsi: zərif talelər" adlı kitabda Qarabağ müharibəsində iştirak edən 80

nəfər qadın döyüşçü haqqında ətraflı məlumat verilib. Onlardan döyüş əməliyyatlarında qəhrəmancasına həlak olanlar aşağıdakılardır:

- Abdullayeva Aytən Abdulla qızı (1972-ci il) 1992-ci ildə Ağdərənin düşməndən təmizlənməsində iştirak edib. 1992-ci il noyabrın 13-də həlak olub;

-Abdullayeva Ceyran Səyyah qızı (1962-ci il) Ağdam rayonunun müdafiəsində həlak olub. Hər ikisi Bakıda Şəhidlər xiyabanında dəfn edilib;

- Abbasova Elmira Balakişi qızı (1953-cü il) Gədəbəy istiqamətində sərhədlərin düşməndən qorunmasında iştirak edib, 1992-ci ilin avqustunda döyüşdə həlak olub. Şəmkirdə Şəhidlər xiyabanında dəfn olunub;

- Cabbarova Sevda Fazil qızı (1954-cü il) 1992-1993-cü illərdə Ağdam-Ağdərə bölgələrində gedən döyüşlərdə iştirak edib, 1993-cü il fevralın 8-də həlak olub. Gəncənin Şəhidlər xiyabanında dəfn edilib;

- Məleykə Əhməd qızı Əhmədova (1957, Qərbi Azərbaycan, Böyük Ayrım kəndi - 2006, ikinci Fəxri Xiyaban) Bakı 2 saylı Tibb məktəbini bitrib. 1992-ci il sentyabrın 24-də hərbi-sanitar qatarının ilk tibb bacısı kimi cəbhəyə yollanıb. Fərrux, Şelli, Çullu, Naxçıvanik, Gülablı döyüşlərində, Ağdam şəhərinin müdafiəsində iştirak iştirak edib. Hərbi əməliyyatlar dövründə Ağdam hərbi-səhra cərrahiyyə hospitalının baş tibb bacısı kimi minlərlə yaralını həyata qaytarıb. Birinci dərəcəli tibb xidməti kapitanı M.Əhmədova ölkə Prezidentinin 1994-cü il 9 oktyabr tarixli Fərmanı ilə “Azərbaycan Bayrağı” ordeni ilə təltif olunub;

- Əsgərova Alimə Zöhrab qızı (1971-ci il) Goranboy bölgəsində gedən döyüşlərdə iştirak edib. 1992-ci ilin iyununda həlak olub. Şəkinin Şəhidlər xiyabanında dəfn edilib;

- Heydərova Gülbar Heydər qızı (1965) doğulduğu Füzulidə döyüş əməliyyatlarında iştirak edib. 1993-cü il 24 iyununda qardaşı Kərimlə bir mövqedən digər mövqeyə keçərkən qarşılarında partlayan qəlpədən ağır yaralanaraq, vəfat etmişdir. Bakıda Şəhidlər xiyabanında dəfn edilib;

- Qarayeva Rəhilə Komsomol qızı (Rəhilə Qorxmaz, 1970-ci il) Qubadlı döyüşlərində iştirak edib. 1993-cü il iyulun 31-də həlak olub. Tovuzda Şəhidlər xiyabanında dəfn edilib;

- Mirzəyeva Məleykə Mehralı qızı (1962-ci il) Qubadlıda gedən döyüşlərə iştirak edib. 1993-cü ildə həlak olub. Saatlıda Şəhidlər xiyabanında dəfn edilib;

- Orucova Rəhilə Əli qızı (1965-ci il) Tərtər və Ağdam döyüşlərində iştirak edib. 1992-ci il mayın 13-də yaralıları döyüş meydanında çıxararkən həlak olub. Məzarı Bakıda Şəhidlər xiyabanındadır;

- Rəcəbova Sədaqət Abakər qızı(1971-ci il) 1992-ci ilin fevralından Ağdam, Ağdərə və Füzuli bölgələrində gedən döyüşlərdə iştirak edib. 1993-cü il avqustun 8-də həlak olub. Zaqatalada Şəhidlər xiyabanında dəfn edilib;

- Şahkərimova Aida Bəhram qızı (1976-cı il) 1992-ci il mayın 23-dən Tərtərdə gedən döyüşlərdə iştirak edib.Həmin ilin iyunun 15-də həlak olub. Bakıda Şəhidlər xiyabanında dəfn edilib.

- Könül Kamran qızı Qəhrəmanova 1972-c il iyulun 6-da Şəki şəhərində doğulub. Azərbaycan Dövlət İncəsənət Universitetində təhsilini yarımçıq qoyaraq, cəbhəyə yollanır.Şəki şəhidləri haqqında xatirə toplusundakı "Qəhrəman Könül" başlıqlı məqalədə oxuyuruq: "*... Qarabağ hadisələri Könülün həyatında döyüş nöqtəsi oldu. Həcər qeyrətli, Nigar şücaətli qız təhsili bir kənara qoyubkönüllüolaraq Xocalıya, döyüş bölgəsinə getdi. Könül 1991-ci ilinnoyabr ayından 1992-ci ilin sentyabrınadək Xocalı, Goranboy, Ağdam, Şuşa, Laçın rayonlarında gedən döyüşlərdə fəal iştiraketmiş, yaralı əsgərlərimizətibb bacısı kimi yardım göstərmişdir"* [17].O, 1992-ci il sentyabrın 30-da ağır yaralanaraq şəhid olub. Şəkidə Şəhidlər xiyabanında torpağa tapşırılıb. Vaxtilə yaşadığı küçəyə Könül Qəhrəmanovanın adı verilib [18, s.13].

Beləliklə, Ermənistanın işğalçı qüvvələrinin Azərbaycan Respublikasına qarşı hərbi təcavüzünün qarşısının alınmasında yüzlərlə qadın sıravi əsgər, rabitəçi, snayper, tankçı, tibb bacısı olaraq fədakarlıq göstərmiş, onların bir çoxu Vətən uğrunda şəhid olmuşdur. Qarabağ müharibəsində şəhid olan qadınlarının adları Azərbaycan milli tarixinin səhifələrinə qızıl hərflərlə yazılıb. Qarabağın azad edilməsi uğrunda aparılan hərbi əməliyyatlarda 2533 qadın iştirak etmişdir. Onlardan 2 nəfəri Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülmüşdür.

Qadınlar döyüşən hissələrin maddi-texniki təminatında da yaxından iştirak edirdi. Müharibənin ilk vaxtlarında Ağdam rayon İcraiyyə Komitəsinin sədri, Sosialist Əməyi Qəhrəmanı Xuraman Abbasova əsil vətənpərvərlik nümunəsi göstərərək erməni təcavüzündən əziyyət çəkən azərbaycanlı əhalinin hərtərəfli təminatını təşkil etmiş, Qarabağa yük karvanları aparmışdı. O, ermənilərə qarşı vuruşan yerli silahlı dəstələrin, xüsusi təyinatlı milis bölmələrinin və Milli Ordunun təminatında da əsl fədakarlıq nümunəsi göstərmişdir. Xuraman Abbasova Milli Ordunun yaranmasında fəal iştirak etmiş, Müdafiə Nazirliyinin fonduna 100 min rubl (təqribən 110 min ABŞ dolları) bağışlamış, rayonda yaradılmış ərazi özünümüdafiə taboru könüllülərinin təchiz edilməsi üçün Gürcüstandan 350 dəst hərbi libas alınıb gətirilməsinə nail olmuşdu.

1994-cü il mayın 8-də Bişkek protokolu imzalandı. Azərbaycanın düşmən üzərində hərbi uğurları sayəsində mayın 12-də cəbhədə atəşkəsə nail olundu.

Birinci Qarabağ savaşından sonra Azərbaycan dövləti gələcək mübarizəni davam etdirmək üçün kifayət qədər siyasi iradə, hərbi qüvvə, demoqrafik və ideoloji potensialını nəinki qoruyub saxladı, həmçinin beynəlxalq mövqeyini daha da gücləndirdi. 1994-cü il (oktyabr) və 1995-ci ildə (mart) dövlət çevrilişi cəhdlərini dəf edərək müstəqilliyin əsaslarını daha da möhkəmləndirdi.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpası naminə xalqın bütün təbəqlərinin səylərini birləşdirilməsi üçün ilkin şərait yaradıldı [19, s.33].

Müasir dövrdə Azərbaycan Respublikasının Silahlı Qüvvələrində minlərlə qadın hərbi qulluqçu xidmət edir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 23 dekabr 2011-ci il tarixli sərəncamı ilə təsdiqedilmiş "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının Qanununun 3.4 maddəsində göstərilir: "Siyahısı müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilən hərbi uçot ixtisası olan 19 yaşından 40 yaşınadək Azərbaycan Respublikasının qadın vətəndaşları özlərinin razılığı ilə hərbi qeydiyyata götürülür və bağlaşma əsasında Azərbaycan Respublikasının Silahlı Qüvvələrində hərbi xidmətə qəbul edilirlər [20,s.1-3].

Müdafiə Nazirliyində yaradılan "Qadınlar və hərbi qulluqçuların ailə üzvləri ilə iş üzrə şöbəsi" Müdafiə Nazirliyinin Aparatı, qoşun növləri, qarnizon, birlik, birləşmə və hissələr, xüsusi təyinatlı təhsil müəssisələrində hərbi qulluqçuların və onların ailə üzvlərinin asudə vaxtının səmərəli təşkili, ailə-məişət problemlərinin öyrənilməsi və yaranan çətinliklərin vaxtında həlli, xidməti vəzifələrini yerinə yetirərkən həlak olmuş və sağlamlığını itirmiş hərbi qulluqçuların ailə üzvlərinə qayğı, gənc və çoxuşaqlı hərbi qulluqçu ailələrinə dəstək və digər məsələlərdə komandanlığa və rəhbərliyə köməklik göstərir. Müdafiə Nazirliyində belə vacib qurumun yaradılması qadınlar və hərbi qulluqçuların ailə üzvləri tərəfindən minnətdarlıq hissi ilə qarşılanır. Bundan başqa Azərbaycan Ordusunun müxtəlif hissə və təşkilatlarında, eləcə də cəbhə bölgəsində yerləşən bölmələrdə fəaliyyət göstərən Qadın Şuraları yaradılmışdır. Hərbçi ailələrin problemləri nəzarətə götürülür və həlli istiqamətində addımlar atılır. Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzində görüşlər keçirilir. Azərbaycan Dövlət Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikasında şəhid övladlarının müayinə və müalicəyə cəlb olunurlar.

## Ədəbiyyat:

1. Muradlı X. "Elə oğlanların ölümünü görmüşəm... elə bilirəm özüm ölüb getmişəm..." – qadin döyüşçünün dəhşətli xatirələri // Hərbi And. 2019, 3 may.

2. Zeynalov R. Azərbaycanın Milli Qəhrəmanları. Bakı: Gənclik,1996.

3. Verdizadə S. Salatın – ölümün gözünə dik baxan qadın // İki sahil, 2015, 20 mart.

4. Bayramqızı Ə. Şəhidlər xiyabanında düşüncələr//Xalq qəzeti, 2018, 8 mart.

5. Allahverdiyev R. Həkim döyüşçü – milli qəhrəman // Respublika, 2008, 18 noyabr.

6. Musazadə K. Savaş alınlarına yazılmışdı // Ayna, 2011, 11 iyun.

7. “Toydan sonra ərimlə birlikdə müharibəyə getdim” // Bizim yol, 2011, 26 noyabr.

8. Fəttayeva M. Müstəqil Azərbaycanın ilk qadın zabiti // Bizim yol, 2011, 29 noyabr.

9. Həyatını müharibəyə həsr edən xanımlar// Bizim yol, 2011, 1 dekabr.

10. “Qarabağa getməyimə əngəl olacaq kimsəm qalmamışdı” // Bizim yol, 2011, 1 dekabr.

11. Məhbətoğlu Q., Hidayətova.“Sevil Rəsulova: “20 yanvardan 5 gün sonra cəbhəyə yollandım” // Zaman, 2012, 19-23 yanvar.

12. Mansurova Z. Azərbaycanın qəhrəman qadınları döyüş meydanlarında//azertag.az/xeber/
Azərbaycanın_qəhrəman_qadınları_doyus_meydanlarında- 08.05.2015.

13. Ağayev Q. Qarabağda döyüşmüş kəşfiyyatçı qadın:“Ermənilər bilmirdilər ki, mən azərbaycanlıyam” //Türküstan, 2017, 7-13 mart.

14. Məhərrəmli Z. Qarabağ müharibəsi: zərif talelər. Bakı: CBS, 2018, 496 s.

15. Qarabağ müharibəsi zamanı şimal bölgəsindən olan yeganə qadın döyüşçü / https://interaztv.com/society/9259, 28 may, 2020.

16. Əhmədov A. Şəhidlərimiz // Bizim Yol, 2016, 7 may.

17. Şəki qartalları: Şəki şəhidləri haqqında xatirə toplusu. A.Qafarov., M.Əmrahov, G.İsmayılova və b. – Red. M.İ.Əmrahov. – Bakı: Hüquq ədəbiyyatı, 1998, 426 s.

18. Əhmədov A. Ən böyük arzusu kino rejissoru olmaq, filmlər çəkmək idi... // Mədəniyyət, 2017, 26 iyul.

19. Араслы Дж. Армяно-азербайджанский конфликт (военный аспект). Баку: Издательство «Эргюнь», 1995, 40 с.

20. Hərbi vəzifə və hərbi xidmət haqqında Azərbaycan Respublikasının Qanunu // Azərbaycan, 2012, 11 fevral.

# "ƏKİNÇI" QƏZETİ DÖVRÜN TARİXİ SALNAMƏSİ KİMİ

***Naibə Əhmədağa qızı Əhmədova***
***Azərbaycan Dövlət Pedaqoji Universiteti***
naiba.ahmedova@mail.ru

**Açar sözlər**:*Əkinçi, XIXəsr, milli mətbuat, tarixi salnamə*

*XIX əsrin ikinci yarısında Azərbaycanın tarixi inkişafında ən təsirli, ən münasib vasitələrdən biri mətbu söz idi. Məhz bu məqalə dövrün mətbu orqanı kimi müəllifin öz təbiri ilə desək "vilayətin aynası" oldu. Məqalədə Azərbaycan milli mətbuatının banisi H.Zərdabi tərəfindən "Əkinçi" qəzetinin yaranması tarixindən, onun ayrı-ayrı bölümlərindən, qəzetin əsas ideya istiqamətlərindən bəhs edilir.*

## Газета "ЭКИНЧИ" как историческая хроника периода

**Ключевые слова:** *Экинчи, XIX век, национальная пресса, историческая хроника*

*Во второй половине XIX века одной из наиболее эффективных и подходящих средств исторического развития Азербайджана была печать. Именно эта статья, по словам автора, стала «зеркалом провинции» как пресса того времени. В статье рассматривается история создания газеты «Экинчи» основателем азербайджанской национальной прессы Г. Зардаби, ее отдельные разделы, основные идеи газеты.*

## "EKINCHI" newspaper as a historical chronicle of the period

**Key words***: Ekinchi, XIX century, national press, historical chronicle*

*In the second half of the 19th century, one of the most effective and appropriate means of the historical development of Azerbaijan was printing. It was this article, according to the author, that became the "mirror of the province" as the press of that time. The article examines the history of the creation of the "Ekinchi" newspaper by the founder of the Azerbaijani national press H. Zardabi, its separate sections, the main ideas of the newspaper.*

Həsən bəy Zərdabi "Əkinçi"nin timsalında mətbuata kütləvi informasiya vasitəsi, maarifçiliyin əsası, ictimai-siyasi şüurun formalaşması faktı kimi yanaşdı: "Hər vilayətin qəzeti gərək ol vilayətin aynası olsun, yəni ol vilayətin sakinləri elədiyi işlər, onlara lazım olan şeylər, xülasə onların hər bir dərdi və xahişi ol qəzetdə çap olunsun ki, ol qəzetə baxan adam xalqı aynada görən kimi görsün" - ilk Azərbaycan qəzetinin əsas amalı və qayəsi bu sadə sətirlərdə əks olunmuşdu.

XIX yüzillik Azərbaycan xalqının tarixində, onun sosial-iqtisadi və mədəni həyatında son dərəcə mühüm dəyişikliklər dövrü olmuşdur. Bir tərəfdən müstəmləkə əsarəti dövrü, digər tərəfdən Azərbaycan millətinin təşəkkülü milli şüurun və milli hərəkatın Azərbaycan Xalq Cümhuriyyəti zirvəsi ilə başa çatan yeni yüksəlişinə zəmin hazırlanması dövrü olmuşdur.

Şimali Azərbaycanın Rusiyanın tərkibində olması nəticəsində çar hakimiyyəti öz müstəmləkəçilik siyasətini həyata keçirmək üçün təbliğat vasitəsinə ehtiyac duydu və Tiflisdə rus dilində ilk mətbu orqan olan "Tiflisskiy vedomosti" qəzetini 1828-ci ildə nəşr etdi. Bu mətbu orqanın səhifələrində Azərbaycanla əlaqəli materiallar dərc olunub. "Abbasabad mühasirəsinin tarixi", "Müasir tarix. Azərbaycan vilayətinin hərbi vəziyyəti haqqında", "Qarabağ əyalətinə tarixi baxış", "Car və Balakən vilayətlərinə səyahət" başlığı ilə çap olunan məqalələrdə rus imperiyası, sanki, Azərbaycanı yenidən öyrənirdi. A.Bakıxanovun qəzetdə tərcümə əsərləri çap olunub. Onun"Dərbəndnamə" əsərinin tərcüməsi haqqqında qəzet qeyd edirdi:"Lazımi mənbələrin tərcüməsi Qafqazın bu tərəfinin tarixini yeni dünyaya yayır"[1,s.7].

1832-ci ilin yanvarında "Tiflisskiy vedomosti"nin Azərbaycan türkcəsində əlavəsi -"Tiflis əxbarı" adı altında nəşr olunmağa başladı. Qəzetin proqramını özündə ehtiva edən sənədlərin birində deyilir: "Bu il yanvarın 1-dən Tiflisdə aşağıdakı şərtlərlə tatar dilində (Azərbaycan dili) qəzet buraxılacaqdır: 1.Qəzet həftədə bir dəfə çıxacaqdır. 2.Rusca nəşrində olduğu kimi, tatar qəzetinin də illik abunə haqqı gümüş pulla 8 manat, yarım illik isə 5 manatdır. 3.Nömrələrin vaxtında çıxmasına və abunəçilərə müntəzəm çatdırılmasına nəzarət qəzetin baş redaktoru, saray müşaviri P.S.Sankovskiyə tapşırıldı. Qəzet almaq istəyənlər ona ya şəxsən, ya da yerli hökumət vasitəsilə müraciət edə bilərdilər"[1,s.8].

Bu sənəddən göründüyü kimi "Tiflis əxbarı" qəzeti "Tiflisskiy vedomosti"nin əlavəsi olduğu üçün, onun redaktoru saray müşaviri P.S.Sankovski idi. Arxiv materiallarından bəlli olur ki, "Tiflis əxbarı"nın Azərbaycan dilində olan variantı farsca nəşri bağlandıqdan sonra çap olunub. Bu, Paskeviçdən sonra Qafqazın baş hakimi olan baron Rozenin 1831-ci il dekabrın 30-da Maarif Naziri Livenə yazdığı məktubdan bəlli olur. Rozen yazırdı ki, məndən əvvəl burada fars dilində "Tiflisskiy vedomosti" qəzeti nəşr olunmuş, abunə azlığından qəzet bağlanmışdır. Fars dili nəinki bizə mənsub

olan və tatarlar (Azərbaycan türkləri) yaşayan Zaqafqaziya ölkəsində, hətta Azərbaycanın özündə də az yayılıbdır. Həmin nəşrdən gözlənilən fayda məni onu bərpa etmək zərurətinə inandırdı, lakin fars dilində yox... tatar dilində".

"Tiflis əxbarı"nın bir neçə nömrəsi çıxdıqdan sonra onun nəşri dövlət tərəfindən bağlanıb. Doqquz il sonra, yəni 1841-ci ildə "Zaqafqazskiy vestnik" qəzeti işıq üzü görüb. Rusiyanın Qafqaz əmirliyi bu qəzetin də yerli dillərdə nəşrinin vacibliyini nəzərə almışdı. "Zaqafqazskiy vestnik"in Azərbaycan dilində nəşr olunan vərəqi "Qafqazın bu tərəfinin xəbəri" adlanırdı və o 1845-ci ildə işıq üzü gördü.

Azərbaycan milli mətbuat tariximizin araşdırıcılarının haqlı qənaəti ondan ibarətdir ki, "Tiflisskiy vedomosti" və "Zaqafqazskiy vestnik"in əlavələri olan bu vərəqə-qəzetləri milli mətbuatımızın bünövrəsi kimi götürmək olmaz. Çünki, "Tiflis əxbarı", yaxud "Qafqazın bu tərəfinin xəbərləri" müstəqil nəşrlər deyildi. Bu əlavələr yalnız çar orqanlarının, strukturlarının rəsmi informasiyalarını dərc edirdi ki, bu da müstəqil Azərbaycan mətbuatının formalaşmasına xidmət hesab edilə bilməz. Ən əsası isə ondan ibarətdir ki, bu qəzet-vərəqələrin nə məzmunu, nə poliqrafik bazası və nə də onun işinə rəhbərlik edənlərin heç biri Azərbaycan həyatı ilə bağlı deyildi.

Azərbaycan milli mətbuatı 1875-ci ildə Həsən bəy Zərdabinin yaratdığı "Əkinçi" qəzeti ilə başlayır. Qədim Şirvanın Zərdab kəndində ziyalı bəy ailəsində dünyaya gələn H.Zərdabi (1842-1907) orta təhsilini Şamaxı və Tiflisdə almışdı. Dünyagörüşü Moskva universitetində oxuduğu zaman bilavasitə qabaqcıl rus ictimai-fəlsəfi fikrinin, inqilabi demokratizmin, K.A.Timiryazev, İ.İ.Meçnikov və D.İ.Pisarevin təsiri altında təşəkkül tapmışdı. Ç.Darvinin təkamül nəzəriyyəsini də o, universitetdə öyrənib mənimsəmiş və sonralar həmin nəzəriyyənin qızğın təbliğatçılarından biri olmuşdur.

60-cı illərdə Moskva universiteti əsasən təhsil sistemindəki dözülməz qanunlara, mühafizəkar professor və müəllimlərə qarşı yönəlmiş tələbə hərəkatının mərkəzi idi. Bu hərəkat obyektiv olaraq çarizmə qarşı çevrilmiş və çar hökuməti orqanları tərəfindən qəddarlıqla yatırılsa da, bir neçə il sonra Moskva, Peterburq və digər şəhərlərin ali məktəblərində döyüşkən tələbələr yenidən baş qaldırdılar. 70-ci illərin əvvəlində Moskvada Petrovski-Razumovski akademiyasında başlanmış inqilabi çıxışlarda vaxtilə Bakıda Zərdabinin şagirdi olmuş azərbaycanlı gənclər də fəallıq göstərirdilər: Nəcəf bəy Vəzirov, Əsgər ağa Adıgözəlov (Gorani), Əbülfət Şahtaxtinski, Məhəmmədtağı Əlizadə və başqaları.

Azərbaycanın o zamankı tarixi inkişaf səviyyəsində ən təsirli, ən münasib vasitələrdən biri mətbu söz idi. Zərdabinin "Rusiyada əvvəlinci Azərbaycan qəzeti" məqaləsində oxuyuruq: "Hər kəsi çağırıram – gəlmir, göstərirəm – görmür, deyirəm – qanmır. Axırda gördüm ki, onları haraylayıb çağırmaqdan, onlara deməkdən başqa bir qeyri-əlac yoxdur. Olmaz ki, mənim

sözümü eşidənlərdən heç bir qanan olmasın. Necə ki, bir bulağın suyunun altına nə qədər bərk daş qoysan, bir neçə ildən sonra su tökülməkdən o bərk daş mürur ilə əriyib deşilir, habelə söz də. Ələlxüsus doğru söz. Belədə qəzet çıxarmaqdan savayı bir qeyri-əlac yoxdur". Bir az aşağıda: "Heç olmaz ki, doğru söz yerdə qalsın. Hər ildə on qəzet oxuyandan birisi oxuduğunu qansa, onların qədəri ilbəil artar. Sonra düşmənin düşmənliyi, dostun doğruluğu və dost göstərən doğru yolun doğru olması aşkar olar"[2].

"Əkinçi"nin tarixi əhəmiyyətini layiqincə qiymətləndirmək üçün belə bir həqiqəti də nəzərə almaq lazımdır ki, o zaman Azərbaycan dilində kitab çap eləmək "dağ çapmaq kimi" (M.F.Axundzadə) bir iş idi.

"Bakıda müsəlman cəmiyyəti-xeyriyyəsi açılıb və biz müsəlmanlar bu xeyir işə artıq şad oluruq ki, guya bir böyük iş görmüşük. Bavücudi ki, bizim elm zəmanəmizdə heç bir millət yoxdur ki, onun nə ki, bir, hətta bir neçə cəmiyyəti-xeyriyyəsi olmasın və onlar 10 və dəxi artıq illərdir ki, xeyir iş görməyə məşğuldurlar. Cəmiyyəti-xeyriyyə açmaq çətin deyil. Ələlxüsus bu halda, amma onun  bina tutub qalmağı və tutduğu işlərin artıq nəfi olmağı çətindir. Çünki, hər bir xeyir işin artıq nəfi olmağı pul ilədir və belə xeyir işə artıq pul verən çox az olar. Ələlxüsus, bizim müsəlmanlardan. Çünki, xeyir iş görmək qanacaq ilədir və qanacaq elm ilədir, amma heyf ki, bizim müsəlmanlarda azdır"[3,s.209].

Maliyyə vəsaiti əldə etdikdən sonra H.Zərdabi Bakının qubernatoru, general-mayor D.S.Staroselskiyə ərizə ilə müraciət edərək qəzet nəşrinə icazə istədi. Bu məsələyə toxunan Zərdabi yazır: "Mən ona (yəni Staroselskiyə) fərzimi deyəndən sonra məsləhət gördü ki, qəzetin adını "Əkinçi" qoyum ki, guya, məhz əkin və ziraətdən danışacaq və özü də boynuna çəkdi ki, senzorluğunu qəbul eləsin. Bu tövr ərizə verib icazə aldım". Azərbaycan milli mətbuatının əsasını təşkil edən bu mətbu nəşrin adının "Əkinçi" olması, şübhəsiz ki, çar rejiminin fikrini qəzetin daşıyacağı əsas ideya istiqamətindən yayındırmaq məqsədi güdürdü.

"Əkinçi" qəzetinin ilk nömrəsi 22 iyul 1875-ci ildə iki həftədən bir olmaqla nəşr olunmuşdur. Daxiliyyə adlandırdığı baş məqalələr qəzetin münşisi tərəfindən yazılacaqdır."Bizim zəmanəmiz dəyişib, biz elm sahiblərinə rast gəlmişik – deyə Həsən bəy butadakı məqalələrin birində yazırdı: - Bizim ilə zindəganlıq cəngi edən millətlər elm təhsil edirlər. Ona binaən gərək biz də elm təhsil edək ki, onlara zindəganlıq cəngində qalib olmasaq da, onların bərabərində dayanıb duraq, yoxsa dövlət və xoşgüzəranlıq onların əlinə gedəcəkdir və bizlər mürur ile zindəganlıq cəngində məğlub olub, tələf olacayıq". Başqa bir nömrədə "Harayçı qardaş" təxəllüslü müəllif bu "zindəganlıq cəngindəki"-yaşayış uğrundakı mübarizədə acı məğlubiyyətlərlə bağlı sözün həqiqi mənasında haray çəkərək yazırdı: "Pəs, qardaşlar, bunun səbəbi elmsizlik deyilmi ki, bizim gözəl vətənimizdə çörək tapmaq olmadığına

xalq baş götürüb diyarbədiyar gəzib külfətindən, millətindən, məzhəbindən əl çəkib milçək təki tələf olur?” [4].

“Əkin və ziraət xəbərləri”ndə mal südündən mənfəət əldə etmək üçün müasir yağ istehsalı üsulundan, bizim, ya qeyri vilayətlərdə olan əkinçilərdən... onları becərmək vaxtında işlədilən əsbablardan, əkin yerini şum etməkdən, əkin yerini qüvvətli etməkdən ötrü o yerə qeyri şeylər qarışdırmaqdan, xülasə, əkindən və əkini biçib, götürüb, qurudub, döyüb saxlamaqdan danışıq olacaqdır.

İkinci fəsildə maldarlıqdan və mallardan əmələ gələn şeylərdən danışıq olacaqdır, yəni bizim və qeyri-vilayətlərdə nə qisim mallar saxlamaqdan və ya nə tövr saxlamaqdan və onlardan əmələ gələn şeyləri nə tövr əmələ gətirməkdən danışılacaqdır.

Üçüncü fəsildə elm xəbərləri, dördüncü fəsildə təzə xəbərlər olacaqdır. “Elmi xəbərlər” bölümündə evləri su basmağın zərərindən, elm və imtahan yolu ilə aşkar olan, məsələn, insanın bədəninə və malına nəfi olan xəbərlərdən danışılacaqdır.

“Təzə xəbərlər” bölümündə İtaliya, Fransa, Rusiya, Misir, Osmanlı dövlətlərindəki ticarətlə bağlı xəbərlərə yer ayrılmışdır. Təzə xəbərlər – bir neçə qism olacaqdır. Burada ticarət, siyasət, müharibə, Rusiya dövlətinin hökmləri, fərmanları, məhkəmələrdə çıxarılan qətnamələr, maddi məişətdə baş verən yeni hadisələr barədə məlumat veriləcəkdir.Əvvələn ticarət xəbərləri olacaq, yəni bizim vilayətimizdə və qeyri vilayətlərdə bir şey, məsələn, buğda-filan şəhərdə, ya filan kənddə nə qiymətə və nə tövr satılmaqdan xəbər verəcəkdir və.s. [4].

“Əkinçi” Bakıda çap olunsa da, tezliklə ümumrusiya müsəlmanlarının qəzetinə çevrildi. Onu Dağıstanda və Volqaboyunda, Mərkəzi Asiya və Sibirdə oxuyurdular.“Əkinçi”nin sorağı Londona da gedib çıxmışdı. Bakıya gələn bir fransız müxbiri isə H.Zərdabinin təkbaşına qəzet çap etdiyini öyrənib, onun ziyarətinə getmiş və demişdir: “Siz həqiqi qəhrəmansınız. Bizdə belə bir kasıb qəzetdə işləməyə razı olan bir nəfər də tapılmazdı. Sizin enerjinizə heyranam. Görünür, öz xalqınızı ürəkdən sevirsiniz”[5].

H.Zərdabi öz qəzetinin səhifələrində, elmin nailiyyətlərini dərindən öyrənmək üçün dillərin öyrənilməsini geniş təbliğ edirdi. İlk növbədə, o, azərbaycanlılar üçün rus dilinin öyrənilməsini vacib sayırdı. Azərbaycan xalqını başqa xalqlarla müqayisə edərək, müəllif təəssüflə etiraf edirdi ki, başqa xalqların kişi və qadınları iki – üç dil bilirlər, ancaq bizim azərbaycanlılardan nadir halda öz dilini, heç olmasa bir adi məktub belə yazmaq dərəcəsində bilən kimsə tapılar, qadınlarsa hamısı savadsızdırlar” [5].

H.Zərdabini hərəkətə gətirən milli təəssübkeşlik hissi idi. Qəzet və onun baş yazarı həmin dövrdə artıq Azərbaycanda öz mövqelərini möhkəmlədən və bu torpaqların həqiqi sahiblərinə qarşı mübarizəyə başlayan erməni

ideoloqlarının qarşısında yeganə sipərə çevrilmişdi. “Əkinçi”nin bir sıra saylarında həmin dövrün qatı millətçi mövqeyində dayanan erməni qəzeti “Mşak” və onun redaktoru Arsruni ilə kəskin polemikaya təsadüf olunur [6].

Çətin bir dövrdə nəşr olunmasına, milli qəzetlərin yoxluğuna baxmayaraq “Əkinçi” azad söz probleminin mövcudluğunu ortaya qoyurdu: “Məlumdur ki, heyvan haraya getsə gedər, hər tərəfə istəsə baxar, hər nə istəsə eləyər, haçan keyfi necə istəsə mələyər, amma insan nəinki öz istədiyini edə bilmir, hətta keyfi istədiyi kimi danışa da bilmir”[6].

Yazıların bir qismi dini fanatizm və mövhumata həsr olunmuşdu. Məişətdəki yeniliyə qarşı çıxanlara sərt cavab verən Zərdabi yazırdı: “Çəkmə geyməkdə bir günah yoxdur və hər kəs fikir eyləsə görər ki, çəkmə geyməklə insan müsəlmanlıqdan çıxmaz. Amma bir şəxs başmaq yerinə çəkmə geyəndə şüəralar onu həcv edir, mollalar ona mənbərdən lənət oxuyur, əvamünnas salam verməyir, xülasə hamımız birləşib onu kafir hesab edib, o qədər incidirik ki, biçarə naəlac qalıb öz millətini atıb gedib xaricilərlə üns tutur ki, onun övladı onların içində böyüyüb onların tərəqqisinə daxil olur. Əlbəttə, belədə nə qədər səy edək ki, buğda bitsin, olmaz”[1,s.9].

Böyük Azərbaycan mütəfəkkiri, milli dramaturgiyanın əsasını qoyan Mirzə Fətəli Axundov 1875-ci ilin aprel ayının 21-də Zərdabiyə göndərdiyi məktubunda deyirdi: “Göndərdiyiniz elanlardan şeyxülislama və müftiyə-hərəsinə 2 nüsxə verdim. Onların hər ikisindən mənə yazdığınız məktubda ifadə etdiyiniz xahişinizi yerinə yetirməyi rica etdim... Mənə göndərilən elanlara gəlincə, onlarda on dənəsini mənim xahişimə əsasən buradakı İran konsulu cənabları qəbul etdilər. Beləliklə, siz on nəfərə abunəçinin pulunu orada alacaqsınız. Mən nəzərdə tutmuşam ki, savadlı tanışlarıma təsadüf etdikdə, bu elanlardan onlara təqdim edərək, sizin qəzetinizə abunəçi olmalarını xahiş edim” [1,s.11].

“Əkinçi”nin ilk sayından sonra Axundovla Zərdabinin yaradıcılıq əlaqələri daha da genişlənir. O, qəzetdə əksini tapan dövrün mühüm ictimai-siyasi prosesləri ilə bağlı materiallara reaksiya verir, habelə “Vəkili-milləti-naməlum” imzası ilə məktublar yazırdı.

Azərbaycanın Rusiya və Qərblə iqtisadi əlaqələrindən bəhs edən bəzi məqalələrində “Əkinçi” dövrünə görə çox böyük əhəmiyyəti olan bir məsələ də irəli sürmüşdü: yerli sənayeni inkişaf etdirmək lüzumu. Bu zərurəti qəzet belə bir səciyyəvi faktla əsaslandırırdı ki, bizim camaatımız əldə etdiyi xammalı xaricilərə dəyər-dəyməzinə satıb, onların istehsal etdiyi malı çox baha qiymətə alır. Halbuki, bizim öz fabrik-zavodlarımız olsa, bu hala son qoyular.

“Əkinçi”də o dövrün iqtisadi həyatındakı çox mühüm yenilik – Bakıda neft sənayesinin kapitalizm inkişafı yoluna düşməsi də öz əksini tapmışdır.H.Zərdabi xalqın başına gələn fəlakətlərin və açılan oyunların əsas səbəbini savadsızlıqda, cahillik və fanatizmdə görürdü. Bütün bu bəlalardan

xilas olmağın yeganə yolu onun fikrincə, geniş maarif şəbəkəsinin, qabaqcıl təhsil sisteminin qurulmasi idi: "Bari gələcək vaxt üçün məktəbxanalar səyində olub, elm səbəbi ilə uşaqlarını sənətkarlığa və işlərə həris eləsinlər ki, özləri çəkən zillətləri uşaqları çəkməsinlər" - "Əkinçi"nin Qafgazda get-gedə şiddətlənən "zindəganlıq cəngindən" qalib çıxmaq üçün öz xalqına təkrar-təkrar verdiyi tövsiyyə bu idi.

"Əkinçi"nin üçüncü ilində düşmənlər, qayğılar, maneələr daha da artdı. Rusiya – Türkiyə müharibəsi və "Dağıstanda şuluqluq" başlanandan sonra "Əkinçi"nin günü dəxi artıq qara oldu" [6].

Qəzeti çap eləməkdə, xüsusilə müharibə xəbərlərinin verilməsində, "Əkinçi"ni senzuradan keçirməkdə, abunəçilərə çatdırmaqda və bir sıra başqa məsələlərdə yenə çətinliklər ortaya çıxdı. Zərdabi o "qara günlər"i xatırlayaraq yazırdı: "Müsəlmanların düşmənləri ki, Staroselskinin vaxtında bir iş görə bilmirdilər, hər tərəfdən "Əkinçi"nin üstə tökülüb onun bağlanmağına səy etdilər".

H.Zərdabinin yazdığı kimi, vaxtilə ona kömək etmiş qubernator Staroselskinin Bakıdan köçüb getməsi, onun yerinə gələnin "Əkinçi" və redaktoruna aşkar qərəzli münasibət bəsləyib, fitnəkar adamların təhriki ilə hökumət təqibini şiddətləndirməsi vəziyyəti daha da ağırlaşdırdı. Hələ 1876-cı ilin avqustunda qəzetdə deyilirdi ki, "ol cənab qəzetimiz çap olmağa razı olmağını bilmirik. Onu təzə qubernator gələndə az qalmışdı ki, bağlasınlar, amma bir tövr təzə iləcən saxlayıblar. Sonra nə olacaq, məlum deyil" [6].

"Əkinçi" bu qeyddən sonra bir il daha çap olundu. Amma hökumətin ona münasibəti getdikcə pisləşdi. İş o yerə çatdı ki, qubernator mürəttib Minasovun fitnəsinə uyaraq "Əkinçi"nin çap olunmuş bir nömrəsini ləğv edib, redaktorsuz öz istədiyi məzmunda yeni bir nömrə buraxdırdı. Dramın növbəti pərdəsi Zərdabinin real məktəbdən çıxarılması və Bakıdan uzaqlaşdırılması oldu.

"Əkinçi" qəzeti çox tez bağladılsa da, mədəniyyət salnaməsində böyük bir ad qoydu."Əkinçi" özündən sonra bir sıra milli mətbu nümunələrin nəşrinə cığır açdı.Ünsizadə qardaşlarının yaratdıqları "Ziya"("Ziyayi-Qafqaziyyə"), "Kəşkül" kimi nəşrlər "Əkinçi" ənənələrindən bəhrələnərək mətbuatın inkişafına təkan oldu.

1903-cü ildə "Şərqi – Rus"un fəaliyyətə başlaması, ətrafına demokratik dünyagörüşlü qələm sahiblərini, xüsusilə C.Məmmədquluzadəni, Ö.F.Nemanzadəni, M.Ə.Sabiri, A.Səhhəti, F.Köçərlini ətrafına cəm etməklə dövrün yeni publisistika nəslini yetişdirdi, "Molla Nəsrəddin"in intişarına müəyyən hazırlıq işləri gördü.

İlk Azərbaycan qəzetinin əhəmiyyətini, onun gətirəcəyi faydanı azərbaycanlılardan daha çox... ermənilər başa düşür və hər vəchlə Həsən bəyə maneçilik törətməyə çalışırdılar, "Əkinçi"nin nəşrinin gündəliklə dayandığı

1873-cü ildə Qafqaz Kənd Təsərrrüfatı cəmiyyətinin üzvü erməni Kələntərov gürcü dilində nəşr olunan “Saspalo qazeta”nın azərbaycanca “Kənd qəzetəsi” adlı dublikatının çıxarılması uğrunda çalışırdı. Qəzetin naşiri G.Sereteli, redaktoru isə xristianlığı qəbul etmiş acar İvan Asatiani olmalı idi. Qafgaz administrasiyasından, yaxud azərbaycanlı əhalidən bu şübhəli nəşri maliyyələşdirmək üçün 900 manat tələb olunurdu. Əslində saxta canıyananlıq və himayədarlıq pərdəsi altında “Əkinçi”nin nəşrini əngəlləmək üçün növbəti cəhd göstərilirdi. Erməni Məlik-Mehrabovun və erməni Kələntərovun bacarmadıqlarını erməni Minasov həyata keçirdi. Azərbaycan mətbuatına qənim kəsilənlər üçüncü cəhddə öz qara niyyətlərinə çatdılar. Bakı quberniya mətbəəsinin mürəttibi Minasovun donosu ilə 1877-ci ilin sentyabrında “Əkinçi”nin nəşri dayandırıldı.

“Biz naxoş olduğumuza görə bu ilin axırıncı nömrələri vaxtında çıxmayacaq və onların haçan çıxacağı məlum deyil” - iki ildən bəri Azərbaycan cəmiyyətinə maarif, mədəniyyət, milli hiss və düşüncə toxumu səpməyə çalışan H.Zərdabi qəzetin sentyabrın 29-da işıq üzü görən sonuncu sayında azsaylı oxucuları ilə beləcə vidalaşırdı [1].

Doğrudur, “Əkinçi” ruhlu ikinci bir qəzetin – “Həyat”ın nəşrini nə az, nə azacıq - düz otuz il gözləmək lazım gəldi. Arzularının çin olduğu 1905-ci ildə 63 yaşlı Zərdabi yenidən qələmə sarıldı, “Həyat”ın səhifələrində biri-birindən vacib, aktual mövzulara toxundu. “Qəzet Rusiyadakı müsəlmanları yerindən tərpətmişdi. O bir elektrik cərəyanı kimi müsəlman aləminin içərisindən keçmişdi” – deyə Zərdabilər ailəsinin sevincli günlərini xatırlayan Hənifə xanım Abayeva daha sonra yazırdı: “Qəzetin ilk abunəçiləri, onu birincilər sırasında salamlayanlar Omskdan, Tümendən olan sibirlilər, Orenburq, Ufa, Volqaboyu tatarları idilər". Zərdabinin yetirmələri – Əsgərağa Gorani və Nəcəfbəy Vəzirov “Əkinçi”yə Moskvadan yazırdılar.

1877-ci ildə “Əkinçi”ni bağladılar.Ancaq Zərdabinin dilini bağlamaq və yeniliyin qarşısını kəsmək mümkün olmadı. 1879-cu ildə Rusiyadakı ikinci türk qəzetini – “Tərcüman”ı nəşr etmək fikrinə düşən İsmayıl bəy Qaspralı Həsən bəyə məktub göndərərək ondan xeyir-dua istəmiş və nəşrə ümumi rəhbərliyi öz üzərinə götürməsini xahiş etmişdi, Hənifə xanım xatırlayırdı ki, “bu məktub Həsən bəy üçün əsl bayrama çevrilmişdi. “Baxın, artıq bizim ikinci qəzetimiz var, sonra üçüncüsü, dördüncüsü olacaq”. O, uşaq kimi sevinirdi.

Həsən bəy Zərdabi ilə əsası qoyulan milli mətbuatımız XX əsrdə Azərbaycan Xalq Cümhuriyyəti yarandıqdan sonra yeni inkişaf mərhələsinə qədəm qoymuş, milli-mənəvi dəyərlərin təbliğində mühüm rol oynamışdır.

Ötən əsrin 90-cı illərində Dövlət Müstəqilliyini bərpa edən Azərbaycanda müasir mətbuatın formalaşması və inkişafı üçün geniş imkanlar yarandı. Bu gün ölkəmizdə yüzlərlə mətbuat orqanı – qəzet və jurnal fəaliyyət göstərir. 145 il bundan öncə Azərbaycan dilində nəşr olunan milli mətbuatımız

zənginləşərək bu gün müxtəlif dillərdə, müxtəlif formatlarda dünya informasiya məkanında özünəməxsus yer tutur.

## Ədəbiyyat


1. Aşırlı A. Azərbaycan mətbuatı tarixi.1875-1920. Bakı: 2009. 296 səh.
2. "Həyat" qəzeti, 28 dekabr,1905 № 129.
3. Zərdabi H. Seçilmiş əsərləri. Bakı: 1960. 476 səh.
4. "Əkinçi 1875-1877. Tam mətni. Bakı: 2005. 496 səh.
5. Hüseynov H. XIX əsr Azərbaycan ictimai və fəlsəfi fikir tarixindən. Bakı: 2006, 400 səh.
6. Quliyev V. Tarixdə iz qoyanlar. Bakı: 2000. 584 səh.

# BAKI XAN SARAYININ TARİXİ VƏ TALEYİ

***Kamil Fərhad oğlu İbrahimov***
İçərişəhər Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi
kamilferhadoglu@yahoo.com

***Tural Kamil oğlu İbrahımov***
Azərbaycan Turizm Bürosu
trlibrhmv@gmail.com

**Acar sözlər:** *İçərişəhər, Bakı xanları, saray kompleksi, arxeoloji qazıntılar, rus işğalı, hamam*

*Qədim şəhərin ən yüksək nöqtəsində yerləşən Şirvanşahlar Sarayı tariximizin simvolu və dövlətçiliyin bir atributu olduğu kimi, Bakı xanlarının iqamətgahı da öz dövrünün dövlətçiliyinin və idarəçiliyinin rəmzi sayılmalıdır.*

*Xalq kəlamlarına, əfsanələrə, səyyah, yazıçı və hidroqrafların, həm də tədqiqatçıların yazılarına əsasən, Bakı xanları və onların iqamətgahı haqqında olan məlumatlar maraqlıdır. Bu faktların öyrənilməsi üçün ərazidə geniş tarixi tədqiqatların və arxeoloji qazıntıların aparılmasızəruri idi.*

*2016-cı ilə qədər bu əzəmətli saraydan bu günə qədər yalnız giriş portalı, bir neçə yararsız binalar, yeraltı hamam və kiçik bir məscid qalmışdı. 2016 – 2020-ci illərdə Bakı xanları kompleksinin ərazisində genişmiqyaslı arxeoloji qazıntılar, tarixi tədqiqatlar və etnoqrafik müşahidələr aparılmışdır. Son günlərdə bu möhtəşəm saray kompleksi tamamilə yenidən qurulub, ərazi abadlaşdırılıb və burada gözəl park salınıb.*

## ИСТОРИЯ И СУДЬБА ДВОРЦА БАКИНСКИХ ХАНОВ

*Камил Ибрагимов*
*Турал Ибрагимов*

**Ключевые слова**: *Ичери Шехер, бакинские ханы, дворцовый-комплекс, археологические раскопки, русская оккупация, баня*

*Подобно тому, как Дворец Ширваншахов, расположенный на самой высокой точке Старого города, является символом нашей истории и атрибутом государственности в период управления своего времени, так*

*и резиденцию бакинских ханов следует считать символом государс-твенности и правления своего времени.*

*Согластно тому, что гласят народные поговорки, легенды, писания путешественников, писателей, гидрографов, а также исследователей всегда интересовала информация о бакинских ханах и их резиденциях. Для изучение этих фактов потребовались обширные исторические исследования и археологические раскопоки этого региона.*

*До 2016 года от этого великолепного дворца до наших дней сохранились только входной портал дворца, несколько полуразрушенных построек, подземная баня и небольшая мечеть. С 2016 по 2020 годы на территории комплекса Бакинских ханов проводились масштабные археологические раскопки, исторические исследования и этнографические наблюдения. Этот великолепный дворцовый комплекс полностью реконструирован, территория благоустроена, построен красивый парк.*

## HISTORY AND FATE OF THE BAKU KHANSPALACE

*Kamil İbrahimov*
*Tural İbrahimov*

**Keywords:** *Icheri Sheher, Baku khans, palace complex, archaeological excavations, Russian occupation, bathhouse*

*Just as the Palace of the Shirvanshahs, located at the highest point of the Old City, is a symbol of our history and an attribute of statehood during the period of government of its time, so the residence of the Baku khans should be considered a symbol of statehood and rule of their time.*

*In accordance with what folk sayings, legends, writings of travelers, writers, hydrographers and researchers have always been interested in information about the Baku khans and their residences. The study of these facts required extensive historical research and archaeological excavations of the region.*

*Until 2016, only the entrance portal of the palace, several dilapidated buildings, an underground bath and a small mosque have survived from this magnificent palace to this day. From 2016 to 2020, large-scale archaeological excavations, historical research and ethnographic observations were carried out on the territory of the complex of the Baku khans. This magnificent palace complex has been completely reconstructed, the territory has been landscaped, and a beautiful park has been built.*

Azərbaycanın qədim tarixi şəhərləri arxeoloji qazıntılar nəticəsində aşkar edilən maddi-mədəniyyət nümunələrinə, həmçinin yazılı qaynaqlara əsasən öyrənilir. Müxtəlif vaxtlarda mədəni irsimiz qərəzli və məqsədli olaraq ya qismən, ya da tamamilə dağıdılmış, həcm və çəki fərqi qoyulmadan, qiymətli hesab edildiyinə görə, qarət edilmiş, başqa ölkələrə aparılmışdır. Bunların sırasına Şirvanşahlar və xanlıqlar dövrünü də aid etmək olar.

Şəhərlər bir növ canlı orqanizmdir. Hər şəhərin özünəməxsus taleyi olmuşdur. Bəzi şəhərlər hərbi, siyasi hadisələrdən кənarda qalsa da, bir qismi tarixi hadisələrin güclü burulğanında çırpınmış, bir qismi talan və yanğınlara, feodal çəкişmələrinə, təbii fəlaкətlərə tab gətirməyərəк, məhv olmuş, digərləri isə əlverişli təbii-iqlim şəraitinə, güclü iqtisadiyyatına, ticarət və sənətкarlığının inкişafına görə çiçəкlənərəк şöhrət qazanmışdı. Bakı məhz belə şəhərlərdəndir.

İçərişəhərin ən hündür yerində yerləşən Şirvanşahlar sarayı necə dövlətçilik tariximizin rəmzi, öz dövrünün dövlətçilik – idarəçilik atributu sayılırsa, şəhərin cənub-şərq küncündə yerləşən Bakı xanlarının iqamətgahı da öz dövrünün dövlətçilik – idarəçilik simvolu sayılmalıdır.

Bakı xanları və onların iqamətgahları haqqında düşünərkən, həmişə tədqiqatçıları bir sual narahat edirdi. Xalq arasındakı deyimlərə, əfsanələrə, həmçinin o dövrün səyyah, yazıçı, mühəndis-hidroqraf və digərlərinin, habelə məlumatlara əsasən öyrəndiyimiz, lakin vizual görmədiyimiz, dağınıq tikililərin olduğu əraziyə necə saray deyə bilərik? Axı, biz və bizim ata-babalarımız bu möhtəşəm sarayı görməmişik. Məhz, bu problem məsələni araşdırmaq, geniş tarixi tədqiqat və bu ərazidə aparılacaq arxeoloji qazıntıların labüdlüyünü tələb edirdi. Bu əzəmətli saraydan 2016-cı ilə qədər sadəcəgiriş portalı, bir neçə uçuq-sökük qəzalı bina, yeraltı hamam və kiçik məscid salamat qalmışdı.

Hələ 2000-ci illərdəBakı xanlarının saray kompleksi ərazisində, yer altında qalmış bir tikilinin varlığı haqqında bizdə bəzi informativ məlumatlar var idi. Azərbaycan Dövlət Arxivində aparılmış araşdırmalar nəticəsində müəyyən edilmişdi ki, İçərişəhərin cənub-şərq hissəsində (Qoşa Qala qapılarının yanı, keçmiş hərbi hissənin ərazisi) son orta əsrlərə aid hamam olmuşdur.1918-ci ildə rus təyyarəçisiV.L.KorvinKerberinsəmadan çəkdiyi fotoşəkillərdə də hamam və onun qübbələri aydın görünür[1, s.98-99].

Postsovet məkanında isə bu ərazidə Hərbi Polis İdarəsi yerləşmişdi. Hamamın iki pəncərəsi Qoşa Qala qapılarından sol tərəfdə, şərq qala divarında hal-hazırda da qalır. 2006-2007-ci illərdə hətta bu pəncərələrdən içəri girib, bəzi tədqiqatlar aparmışıq.

Məlum olduğu kimi, 1747-ci ildə Nadir şahın ölümündən sonra Azərbaycan ərazisində 20-dən çox kiçik feodal dövlətlər -xanlıq və sultanlıqlar yaranmışdı. Bakı xanlığı ərazisinə görə kiçik olsa da, Azərbaycanın şimalında yaradılmış çox önəmli və strateji siyasi dövlət qurumlardan biri idi. Xanlar

feodal zümrəsinin ali təbəqəsi olmuşlar. Bakı xanlarının sarayında rəsmi olaraq aşağıdakı xanlar yaşamış və xanlığı idarə etmişlər:

I Mirzə Məhəmməd xan (Dərgahqulubəyin oğlu) 1747-1765

Məlik Məhəmməd xan (I Mirzə Məhəmməd xanın oğlu) 1765-1784

II Mirzə Məhəmməd xan (Məlik Məhəmməd xanın oğlu) 1784-1791; 1792-1802

Məhəmməd Qulu xan (I Mirzə Məhəmməd xanın oğlu) 1791-1792

Hüseyn Qulu xan (Hacı Əliqulu Ağa xanın oğlu) 1792-1806

Bakı xanlığının əsasını Dərgahqulu bəyin atası Hüseyn bəy Məhəmməd (hakimiyyət dövrü 1718-1723) qoymuşdur. Lakin 1723-cü ildə I Pyotr tərəfindən general Matyuşkinin başçılığı altında Bakıya göndərilən hərbi ekspedisiya zamanı şəhəri ruslara müvəqqəti təhvil verdiyinə görə, xəyanətdə ittiham edilən Hüseyn bəyin vəzifəsi əlindən alınmış, oğlu Dərgahqulu bəy Nadir şah tərəfindən xan kimi təsdiqlənmişdir. Maştağanın bəyi kimi fəaliyyətə başlayan Dərgahqulu bəy (hakimiyyət dövrü 1723-1731) isə Səfəvilərin şəhər valisi öldürüldükdən sonra Bakı valisi olaraq fəaliyyətini davam etdirmişdir. Səfəvilər dövründə Bakını son vali kimi idarə edən məhz Dərgahqulu bəy olub.Dərgahqulu bəy 1736-ci ildə döyüşlərin birində yaralanaraq, dünyasını dəyişib. Onun 11 yaşlı oğlu Mirzə Məhəmməd Nadir şahın ölümündən sonra Bakı xanı olub [2, s.150].

İyerarxiya nərdivanında “Bəy” titulundan yuxarıda duran xanlar cah-cəlallı sarayları, mülk və gəlirləri ilə həmişə seçilmişlər. Bakı xanlarının sarayı zənginlik və gözəlliyi ilə, nəinki rus generallarını, hətta adi rus əsgərlərini belə, məftun etmişdir. Vaxtilə indiki Qoşa Qala qapısının yaxınlığındakı beş həyətdə yerləşmiş saray, portalda yazılmış tarixə əsasən, 1750-51-ci illərdə bir neçə mərhələdə inşa edilmişdir.

Bakı xanları inzibati, maliyyə, hərbi və məhkəmə hakimiyyətini əlində cəmləşdirib, xanlığı öz mülkləri kimi idarə edirdilər. Öz bayrağı olan və xanlığa aid sikkələr zərb etdirən Bakı xanlarının Divanı bütün vergi, müharibə və sülh, eləcə də digər mühüm dövlət məsələlərini həll edirdi. Məlik Məhəmməd xanın oğlu II Mirzə Məhəmməd xana məxsus şəxsi möhür günümüzə qədər qorunaraq bizə çatmışdır.

Rusiya imperiyası tərəfindən Bakının 1806-cı il üçüncü işğalı (I işğal – 1723-cü ildə general-leytenant M.A.Matyuşkin, II işğal - 1796-cı ildə general V.Zubov tərəfindən) zamanı İçərişəhər ərazisində bir neçə tarixi məhəllə sökülmüş, o cümlədən də Bakı xanlarının evinin yerindəki bir neçə bina qismən dağıdılmışdı. Məhz o zaman Kiçik Oala küçəsi 1-13 saylı ünvanlar ərazisindəki tarixi məhəllə sökülmüş, yerində Bakı qarnizonunu yerləşdirmək üçün əsgər kazarmaları tikilmişdi.

Bakı xanları Sarayının ərazisindəki kompleks bir neçə binadan ibarət olmuşdur. Bunlar “Məscid binası”, “Qonaq evi”, “Yataq evi”, “Tövlə” və

"Gülüstan"dan - yəni hovuzdan ibarət idi. Bu ərazidə su kəhriz sistemi, hamam və ovdan da var idi.Bakı xanlarının evinin yerindəki xanlığa aid ilk yeddi otaqlı,ikimərtəbəli "Yataq evi" adlanan bina 1730-cı illərdə məhz Dərgahqulu bəy tərəfindən inşa edilmişdir. Bina rus ordusunun qarət və özbaşınalığı ucbatından xeyli zərər görmüşdü.

Alman səyyahı Samuil Qotlib Qmelin1785-ci ildə Sankt-Peterburqda nəşr edilmiş "ПутешествиепоРоссии" kitabının III hissəsində Bakı xanlarının sarayından da bəhs edir. O, yazır: "Xanın dənizə yaxın hissədə, qarşısında gözəl bir bağın olduğu və qalanın bütün tikililərindən ayrı duran, indi təmir edilən evi var. İndiki xanın torpaq səddi yaxınlığında Şərq və Avropa üslubunda, hasara alınmış daha gözəl bir bağ var" [3, s.81].

Bakı xanlarının Abşeronda da bir neçə mülkləri və böyük bağları olmuşdur. Müasir dövrdə Nəsiminin heykəli və Milli Bankın yerləşdiyi ərazidəki bağlar çox möhtəşəm idi. 1858-66-cı illərdə Bakıda olan və unikal bir xəritə hazırlayan hidroqraf, kapitan-leytenant A.F.Ulski Bakı xanlarının sarayı, onların bağları və mülkləri haqqında çox maraqlı məlumatlar təqdim edir. Onun xəritəsində bu bağ "Ханскийсад" kimi qeyd olunur: "Bağın mərkəzində böyük mülk ucalır. Yam-yaşıl və güllü-çiçəkli, hovuzlu bağda ceyran, cüyür və tovuz quşları var, bülbüllərin oxuması insanı valeh edir..." [4, s.116-118].

XIX əsrin sonlarında nəşr olunan "Закавказскийкрай - заметки" adlı kitabda da Azərbaycan xanlıqlarında xan saraylarındakı vəzifələr, sarayların təminatı, Bakı xanı Hüseynqulu xanın qala daxilindəki sarayının ümumi ğörüntüsü haqda maraqlı məlumatlar öz əksini tapmışdır.

Onu da qeyd etmək yerinə düşərdi ki, XVII əsrin sonlarında, daha doğrusu 1684-cü ilin yanvar ayının 5-də, Səfəvi hakimiyyəti dövründə Bakıda olan alman əsilli həkim-təbib, etnoqraf və səyahətçi Engelbert Kempfer məhz Bakı xanlarının sarayı yerləşən ərazidə gözəl və yaraşıqlı mülklərin olduğunu yazır. Engelbert Kempferin istər London kitabxanasının arxivində qızıl fondda saxlanılan, qədim latın dilində yazdığı yol qeydləri əlyazmasında, istərsə də 1712-ci ildə çap edilən kitabında, həmçinin "Bakı" qrafik rəsmində bu ərazidə hər hansı bir hamamın olduğundan bəhs edilmir.

XVIII əsrin əvvəllərində Azərbaycanın daxili siyasi vəziyyəti rus işğalları üçün əlverişli şərait yaradırdı. Öz qüvvələri ilə Rusiya və Qacarlara müqavimət göstərə bilməyəcəklərini anlayan Azərbaycan xanları Rusiyanın onların istiqlaliyyətini bərpa edəcəyinə inanırdılar. Bu isə, Azərbaycan xanlarını Rusiya təcavüzünə qarşı vahid cəbhə təşkil etməyə imkan vermirdi. 1802-ci ilin sentyabr ayında Qafqazdakı rus qoşunlarının baş komandanı təyin edilən qədim gürcü zadəgan nəslinin nümayəndəsi, Azərbaycan xalqına kəskin münasibəti ilə fərqlənən general Pavel Sisianov Cənubi Qafqazda rus müstəmləkə siyasətinin icraçısı oldu.

1797-ci ilin martında rus qoşunları Azərbaycan ərazisini tərk edən kimi Fətəli xanın oğlu Şeyxəli xan yenidən bütün Quba xanlığını, o cümlədən Dərbənddə hakimiyyəti ələ keçirir.Şeyxəli xan Dərbəndi yenidən Quba xanlığına birləşdirib, eyni zamanda Bakı xanlığına öz iddiasını bildirdikdə Sisianov bundan bərk şiddətlənərək Dərbəndi geri qaytarmaq istəyir. O, 1803-cü ilin yanvar ayında qraf Voronsova yazırdı ki, "əlverişli vaxtda Dərbəndi tutmaq lazımdır, çünki bu mənə verilmiş göstərişin ümumi planına uyğundur". Lakin çar bütün dağlı hakimlərin etimadını itirməkdən çəkinərək hələlik Quba xanlığına hücuma razılıq vermir[2, s.150].

XVIII əsrdə Rusiyanın Azərbaycana iki hücumu Dərbənddən keçməklə yönəlmişdisə bu dəfə hücum Car – Balakən və Gəncə istiqamətindən başladı. Çünki 1801-ci ildə, Şərqi Gürcüstanın işğalından sonra, Rusiya burada əlverişli şərait əldə etmişdi. Sisianov ilk zərbəni Gürcüstandan Azərbaycanın içərilərinə doğru uzanan yolun üstündə yerləşən Car – Balakən xalqına yönəltdi. 5 minlik gürcü qoşununun da yardım etdiyi general Qulyakovun başçılıq etdiyi rus hərbi hissələri 1803-cü ilin mart-aprel aylarında yerli əhalinin müqavimətini qıraraq, Balakəni ələ keçirib yandırdılar. Sonra isə Car işğal edildi.

Rus qoşunlarının Azərbaycan daxilinə sonrakı irəliləyişinin səbəbi Gəncə qalası idi. 1804-cü il yanvarın 2-dən 3-nə keçən gecə rus qoşunları həmlə ilə Gəncəni aldılar. Cavadxan və onun oğlu Hüseynqulu ağa döyüşərək həlak oldu. Gəncə xanlığı ləğv olundu və dairəyə çevrildi. Şəhərin adı dəyişdirilərək, I Aleksandrın həyat yoldaşı Yelizavetanın şərəfinə Yelizavetpol qoyuldu.

1805-ci ildə İbrahimxəlil xan, Səlim xan, Mustafa xan asılı şəkildə olsada, öz mövcudluqlarını qorumaq üçün Rusiya ilə müqavilələr imzaladılar.

1805-ciilin avqust ayında rus hərbi donanması Bakı limanına yaxınlaşmışdı. Hüseynqulu xan rusların təslim olmaq tələbini rədd etdi. Rus donanmasının komandanı general Zavalişinin əmri ilə şəhər atəşə tutuldu və mühasirəyə alındı. Hüseynqulu xan İran şahından yardım istədi. Şahın vəliəhdi Abbas Mirzə urmiyalı Əsgər xana öz qüvvələri ilə Bakının yardımına getməyi əmr etdi. Qubalı Şeyxəli xan da Bakıya yardım etməyə hazırlaşırdı. General Zavalişin Bakıya İran və Quba tərəfindən yardım ediləcəyindən xəbər tutaraq Bakı ətrafından çəkildi və Lənkəran yaxınlığındakı Sara adasında düşərgə saldı. Bu hadisə rus komandanlığının Şeyxəli xana düşmən münasibətini daha da artırdı. Şeyxəli xanı Rusiyanın düşməni hesab edən general Sisianov şamaxılı Mir Mustafa xandan Quba xanı ilə heç bir şəkildə əlaqəyə girməməyi tələb etdi.

Şamaxını tabe edən general Sisianov 1806-cı ilin fevral ayında özü böyük qoşun dəstəsi ilə Bakı ətrafına gəldi və burada general Zavalişinin desant dəstəsi ilə birləşdi. Sisianov Hüseynqulu xandan Rusiya təəbəliyini qəbul etməyi tələb etdi. Bakı xanlığı Rusiya hakimiyyətini qəbul etmiş digər

Azərbaycan xanları kimi xarici siyasət hüququndan məhrum olunmaqla yanaşı, xanlığın bütün gəlirləri rus xəzinəsinə göndərilməli və xan isə ildə cəmi 10 min rubl məvacib almalı idi. Bakı qalasında rus qarnizonu yerləşdirilməli və xan hərbi məsələlərdə Qafqazdakı rus qoşunlarının baş komandanının sərəncamlarına tabe olmalı idi.

Hüseynqulu xan bu şərtlərlə razılaşdığını bildirdi. Fevralın 8-də Sisianov polkovnik Yeristavinin müşayiəti ilə onu qala darvazalarının önündə gözləyən Hüseynqulu xanın görüşünə getdi. Sisianov görüş zamanı Hüseynqulu xanın əmisi oğlu İbrahim bəy tərəfindən öldürüldü. General Zavalişin rus qoşunlarını BakıdanSaraadasına, oradanda Qızlara aparmağa məcburoldu. Dörd ay sonra 1806-cı il iyun ayının 2-də general İvan Qudoviç Qafqazdakı rus qoşunlarının baş komandanı təyin olundu. Rus qoşunları yenidən Azərbaycanda fəallaşdılar. İyunun 3-də general Qlazenapinin dəstəsi Dağıstana daxil oldu. 1806-cı il iyunun 21-də Dərbənd rus qoşunları tərəfindən tutuldu. Ulus mahalı Şamxal Mehdi xanın idarəsinə, Dərbənd şəhəri isə mayor rütbəsi almış Əli Pənah bəyin idarəsinə verildi[5, s.25].

1806-cı il oktyabrın 3-də Bakını döyüşsüz tutan ruslar növbəti hədəf kimi Qubanı seçdilər. Bakıda bir batalyon və Bakı limanında hərbi donanma saxlayan general Bulqakov noyabr ayının 11-də Qubaya doğru hərəkət etdi.

Bakının tutulması və general Sisiyanovun qətli haqqında Beşcildlik "Qafqaz muharibəsi"nin I kitabındakı "Bulqakov" fəslinin müəllifiA.Potto yazır ki, "...1806-cı ilin yayında "İnfanteriya (piyada qoşunları) generalı Sergey Alekseyevic Bulqakov artıq Dərbənddə idi. Qoşunlar gələcək yürüşə tam hazır olduqdan sonra general onları Quba və Qazıkumık əyalətlərindən yan keçərək, birbaşa Bakıya apardı. O, şəhərə yaxınlaşanda bəyannamə göndərib, sakinləri rus imperatorunun mərhəmətinə sığınmağa cağırdı və əks təqdirdə, "məğlubedilməz qoşunlarla şəhərin bünövrəsini silkələməklə" hədələdi. Bakı xanının yaxın adamlarından biri Süleyman bəy bəyannaməyə cavab olaraq Bulqakova çatdırdı ki, xan əfv edilməsə, şəhər sona qədər mudafiə olunacaq. Xalq hökmdardan iznsiz hec nəyə qol qoymayacaqdır..."[6, s.469].Daha sonra Potto yazır ki, "knyaz Sisianovun ölümündə xanın günahsız olduğu və qətlin onun iradəsi və istəyi ilə baş vermədiyi inandırıcıdır".

O dövrün müasirlərinin söylədiyinə görə, xan sarayının çox zəngin və gözəl tərtibatı olmuşdur. Məsələn, 1837-ci ildə Sankt Peterburqda dərc edilmiş «Кавказцы или подвиги и жизнь замечательных лиц, действовавших на Кавказе» adlı kitabda Qafqazın işğalı zamanı baş vermiş döyüşlərdə fərqlənmiş rus əsgər və zabitlərinin həyatı və göstərdiyi rəşadət haqqında məlumat verilir. "General-leytenant Qlazenapın tərcümeyi-halı" fəslində 1806-cı ildə Bakının ruslar tərəfindən işğalı, Xan sarayının qarət olunması belə təsvir edilir: "Bakı xanının Bulqakov üçün təmizlənmiş sarayında bizim zabitlərin diqqətini divarlarda yağlı boya ilə ustalıqla çəkilmiş və qızıla

tutulmuş, döyüş səhnələri əks edilmiş tarixi şəkillər çəkdi. Onları qalib olan üçün uzun iskənələrlə divarlardan qopardılar. Təəccüblüdür ki, bəziləri, hətta heç pozulmamışdı da. Ümumiyyətlə, bu ev çox zəngin idi: qapı və çərçivələr qırmızı çinar ağacından idi, çoxlu qiymətli xalçalar, ipək parçalar, hətta şərq adətinin əksinə olaraq güzgülər vardı. Görünür ki, xan çıxıb getməyə heç də tələsmirdi. Bütün bu var-dövləti bizimkilər elə təmizlədilər ki, heç nə qalmadı”[5, s.28].

A.V.Pottonun beş cildlik “Кавказская война” kitabının “Утверждение русского владычества на Кавказе” əsərinin I cildində, “Bulqakov” bölümündə sarayın qarət edilməsi belə təsvir edilir: 1806-cı ildə General Bulqakov Bakının zəbti zamanı Bakı xanlarının saray kompleksində qalarkən bu sarayın möhtəşəmliyinə heyran olmuş, onu məhz saray adlandırmışdır. Bulqakov, həmçinin saray və onun gözəlliyi haqqında əldə etdiyi məlumatlara əsasən bu saraya 10 xüsusi təcrübəyə malik sənətkarla gəlmiş və onların sayəsində divarlardakı yağlı boya ilə işlənmiş tabloları xüsusi alətlər (iskənələr) vasitəsi ilə kəsdirərək öncədən hazırlanmış arabalarda Tiflişə göndərmişdir[6, s.470].

Digər rus hərb tarixçisi Dubrovin yazır: “...general Bulqakov 3 dekabr 1806 –cı ildə Bakının yeni baş komendatlığının rəhbəri, general-mayor qraf Qudoviçə məktub yazaraq bildirir: “Bakı camaatının silahı olmadığını sizə bildirmək istəyirəm. Bakı xanları sarayının həyətində, qala divarlarına və məscidə yaxın bir yerdə yerləşən silah və barıt anbarlarını Mirzə xanın (II Mirzə Məhəmməd xan nəzərdə tutulur) məsləhəti ilə partlatdıq. Onun bizə sadiq olacağına ümidvarıq. Təcili olaraq ədliyyə naziri P.V.Lopyxinin nəzərinə çatdırmaq lazımdır ki, general Sisiyanovun qatillərinin tapılıb edam olunması və şəhər əhalisinin gözünün qorxudulması, həmçinin bir neçə bəyin və xanın qohumlarının ciddi cəzalandırılması vacibdir. Yalnız bu zaman sakitlik və çar hökümətinin rahatlığı bərqərar ola bilər” [5, s.25].

1808-ci ildə qraf Qudoviçə təsdiq cavabı gəlir və 1000 nəfər hərbçi cəza tədbirləri üçün ayrılır. Xanın qohumları və yaxınları təqib edilir. Bəziləri sürgünə göndərilir. Qarşı gəlib, təzyiq göstərənlər isə “carçı meydanı”nda (qala qapıları meydanı) asılır və güllələnir. Sisianovun qatillərindən biri olan və ələ kecmiş nökər Əmir həmzə isə səhra məhkəməsinə verilir. O, əsgər sıralarından keçirilərək çubuqla döyulür və sonra Sibirə sürgün edilir. Amma həmin dövrün şərəf məcəlləsinə gorə knyazı və baş komandanı qətlə yetirən Əmir həmzə edam olunmalı idı.

Yataq evi adlanan xeyli zərər görmüş binada saray qarət edildikdən sonra, general Bulqakovun əmri ilə 1806-cı ilin oktyabrından 1807-ci ilin noyabr ayına kimi rekonstruktiv işlər görülmüşdü. Bina demək olar ki, rus memarlığı üslubuna bənzər elementlərlə bəzədilmişdi. Divarlardan iskənələr vasitəsilə qoparılan qabartmalı bəzəklərin yerinə güzgülər vurulmuşdu.

Nəhayət, bütün bu faktları təsdiqləyən yeni tapıntı isə alman etnoqraf və rəssamı A.V.Kizevetterin "Sonuncu Bakı xanının güzgülü zalı"nın yağlı boya ilə çəkilmiş çox qiymətli rəsmi olmuşdur. Son orta əsrlərdə, hətta XVIII əsrin sonlarınadək Azərbaycan saraylarının bədii tərtibatında məlum olduğu kimi, aynabəndlik texnikasından geniş istifadə edilmişdir.

Bu otaq orta əsr Azərbaycan saraylarına xas olan böyük otaqların ən yuxarı hissəsini rəngli şüşəli şəbəkələrlə bəzəyən, "Şahnişin" adlanan taglı artırma ilə tamamlanır. Şahnişində hər iki kənar hissədə, yenə də xalılarla döşənmiş hündür kürsülər, mərkəzdə isə fəvvarə aydın görünməkdədir. Rəsm əsəri o qədər ustalıq və dəqiqliklə, yüksək zövq və rəng çalarlarının zənginliyi ilə seçilir ki, səviyyəli foto çəkilişindən geri qalmır.

Şahnişin, əslində yalnız saraylara məxsus və sarayda küçənin, həmçinin həyətin yan tərəfinə baxan otağın ikinci və ya daha yüksək mərtəbəsində şahlara və ya xanlara layiq çıxıntılı, balkon tipli bir yerdir. Şirvanşahlar sarayı kompleksinin saray binasındakı "Şahnişin" öz əzəmətli və möhtəşəm memarlıq üslubu və gözəlliyi ilə insanı valeh edir.

Məlumdur ki, XVIII əsrdə Azərbaycan ərazisində yaranmış bütün xanlıqlarda hər bir xanın özünəməxsus saray tikilisi və saray interyeri olmuşdur. Onları birləşdirən həm ümumi, həm də fərqli cəhətlər vardır. İrəvan, Şəki, Gəncə xan saraylarının divar və tavanlarına yağlı boya ilə qızıla tutulmuş təbiət təsvirləri, döyüş səhnələri və portretlər çəkilmiş, stalaktitlər, buxarı və taxçalar güzgülərlə işlənmişdir.

Xan saraylarının ən böyük zallarında o dövrə xas olan fəvvarələrin olması da mütləq idi. Bu saraylar ümumi quruluşlarına, eksteryer və interyerlərinə görə fərqlənsələr də, eyni struktura və memarlıq üslubuna malikdirlər. Maraqlıdır ki, digər sarayların xarici interyeri də daxili qədər zəngin olduğu halda, Bakı xan Sarayının fasad quruluşu çox sadədir.

2015-ci ildə hamam kompleksində aparılan tədqiqat işləri, həmçinin Moskva və Sank-Peterburq şəhərlərinin Dövlət arxivlərindən gətirilmiş xəritələr üzərində aparılan araşdırmalar nəticəsində bu kompleksinin ayrıca divarlarının və hamam hasarının iki darvazasının olması aşkar edildi. Xəritələrdə bu qapılardan birinin Bakı xanları sarayının aşağı həyətində, qala divarına bitişik hissədə olduğu və digərinin də Qoşa Qala qapları tərəfində olduğu aşkarca görünür. Bakı xanları sarayı istiqamətində olan qapının eni 86 sm olmuşdur. Qapının hündürlüyü isə ərazi 1906-cı ildə rusların bu ərazini hərbi komendantlıq elan etdikdən sonra burada bir sıra dəyişikliklər edildiyindən və bu divar da çox güman ki, söküldüyündən qeyri məlumdur. XVIII əsrin II yarısı və XIX əsrdə İçərişəhərin mükəmməl qrafik xəritələrini hazırlayan rus hərbi hidroqrafları, şimal Qala qapısına (Qoşa Qala qapıları) yaxın su anbarının və bir məhəllə məscidinin olduğunu da xəritədə qeyd etmişlər. Bu ərazidə geniş

arxeoloji qazıntılar aparılmadığındanəfsuslar olsun ki, xəritələrdə qeyd edilən bir neçə abidə aşkar olunmamış və hələ də torpaq altında qalır.

1919-cu ildən sonra kompleksdə daha bir neçə dəyişikliylərеdilmişdir. Belə ki, XX əsrin 30-cu illərində hamamın ərazisindən kanalizasiya və su xətləri çəkilməsi NKVD - nin qərarı ilə həyata keçirilir. Beləliklə, diametri 1 metr olan 3 sıra azbes boru bu ərazidə quraşdırılır. 2015-ci ildə arxeoloji qazıntılar zamanı həmin 3 sıra azbes boru aşkar edilmiş və fotofiksasiya edilərək arxivləşdirilmişdir. Bu kanalizasiya və su xətti hamamın gimbəzlərinin üstündən keçdiyi üçün gümbəzlər dağıdılmış və hamamın içinə inşaat və təsərrüfat tullantıları tökülmüşdür.

Hamam kompleksinin əsas qapısı Bakı xanlarının saray kompleksinin Qala divarına bitişik divarı yanında olduğundan demək olar ki, bu hamam saraya aid olmuşdur. 1906-1908 - ci illərdə də rus mühəndisləri tərəfindən bu sarayın həyətində çox ciddi dəyişikliklər edilmişdir. Demək olar ki saray kompleksinin bəzi divarlarını çıxmaq şərti ilə bütün divarlar dağıdılmış və yerinə komendaturaya aid müxtəlif təyinatlı otaqlar tikilmişdir. Sarayda sonradan edilmiş dəyişikliklərə baxdıqda, hər mərtəbədə otaqların ciddi şəkildə kiçildilməsi və ya böyüdülməsi nəzətə çarpır. Sarayın hamam kompleksinə dair əlimizdə olan iki çizim (çertyoj) eyni həyətin və saray kompleksinin hər iki mərtəbələrinin planlarını əks etdirir. İstər ərazidə aparılan tarixi tədqiqatların nəticələri, istər arxeoloji qazıntıların yekunları, istərsə də arxiv sənədləri və rus hidroqraflarının xəritələrindəki göstəricilər sübut edir ki, bu ərazidə bir neçə abidədən başqa Xan Sarayı kompleksindəki bütün tikililər və inşaat qalıqları rus işğalından sonrakı dövrə aiddir.

Bundan başqa, Bakı xanlarının saray kompleksinin həyətləri bu barədə aydın məlumat verir. Araşdırdığımız xəritələrdən bəlli olur ki, saray kompleksinin təsərrüfat həyəti nisbətən daha geniş və aydın oxunan formadadır. Burada mətbəx, yemək otaqları, xidmətçi otaqları, xörək bişirmə otaqları, saxlama otaqları sutənzimləmə-paklaşdırma (su arıtma sistemi) və təmizləmə qurgusu, anbarlar, quyular, təndirlər yerləşir.

Həyətdə əsas tağlı girişlə üzbəüz dulusçu emalatxanası da mövcud olmuşdur. Bu dulusçu emalatxanası həyətləri biri-birindən ayıran divara bitişik və keçidə yaxın olduğundan çox kiçik otaqlardan ibarət imiş. Emalatxananın 5 kürəsi, dulusçu çarxı və bir təndiri də olmuşdur. Bütün bunlar rus mühəndisləri və hidroqraflarının hazırladıqları xəritələrdə öz yerini tapır. Kompleksin həyətində məscid olmuş və bu məscidin də ayrıca həyəti, minarəsi və ikiyaruslu otaqları var imiş. Bu fakt da xəritədə öz əksini tapır. Həyətdən Ovdan yaxınlığında gizli yeraltı yolun da olması və bu yolun arxeoloji parkın ərazisindən keçən yeraltı yol ilə bağlantısı olduğunu da xalq arasında söyləyirlər.

İkinci bir yeraltı yolun da Qoşa Qala qapılarının altından keçərək indiki Həsən Əliyev küçəsi istiqamətindəki yeraltı yol ilə bağlantısı olduğu da bizə məlumdur. Digər tərəfdən xəritəyə baxdıqda, başqa bir yeraltı yolun olduğu anlaşılır. Torpaq səviyyəsindən 4 metr dərinlikdə aşağıya enən pilləkənin olduğu və bu pilləkənin yer altında olan daha bir neçə otağa istiqamətləndiyi xəritədə açıq-aydın görünür. Beləliklə, burada yeraltı yolun olduğu və Donjon qalasının həyətində yerləşən silah anbarları ilə də əlaqəli olması xəritədə öz əksini tapmışdır.

Eləcə də, yeni tapılmış yeraltı hamamı da Xan Sarayı Kompleksinin bir tərkib hissəsi kimi qəbul etmək olar. Məşhur türk səyyahı Övliya Çələbi 1647-ci ildə İrəvan xanının bacısı ilə evlənən Bakı xanı Əşrəf xanın toyunda iştirak etmək üçün 10 gün Bakıda qonaq olmuşdur. O, "Səyahətnamə"sində Bakı qalasındakı üç hamamdan söhbət açaraq, Mirzə xan hamamının daha xoş olduğunu qeyd etmişdir. Səyyahın Mirzə xan hamamı adlandırdığı yerin Qoşa Qala qapısı yaxınlığında, torpaq altından arxeoloji qazıntılar nəticəsində yeni aşkar olunub konservasiya edilən hamam olduğu ehtimal olunur. Bunu hamam divarından nümunə kimi götürülmüş və Almaniyada laboratoriya analizi nəticəsində 1640-1650-ci illərə aid olması müəyyən edilmiş ağac parçası da sübut edir. Düzdür, söhbət xanlığın yarandığı XVIII əsrdən deyil, XVII əsrin II yarısından gedir. Lakin göründüyü kimi, ali feodal zümrəsi olaraq, xanlıqdan əvvəl də xan titullu zənginlər olmuşdur. Ola bilsin ki, hamamın adını daşıdığı Mirzə xan, Əşrəf xanın ya babası, ya da atası olmuşdur. Sonrakı əsrdə xanlığın əsasını qoymuş Hüseyn Mirzə Məhəmməd xan da əcdadının adını daşımışdır [7, s.67-69].

Bu hamamın şimal və qərb tərəfdən iki qapısı olmuşdur: xanlar və ailələri hamama gedəndə şəhər əhalisi üçün nəzərdə ttutulmuş o biri qapı - şimal qapısı bağlanardı. XVII əsrdə mürəkkəb quruluşlu, böyük masştablı belə bir hamamı ancaq xanlar və yaxud yüksək titullu insanlar inşa etdirə bilərdi. Mənbələrdən və tarixi ədəbiyyatdan bizə bəllidir ki, XVII əsrdə Səfəvi hakimiyyəti dövründə Bakı şəhərində (İçərişəhərdə) heç bir böyük həcmli ictimai bina inşa olunmamışdır.

Yuxarıda göstərilən arxeoloji qazıntıların yekunlarına, fakt və mənbələrə əsasən, bu tarixi məkanın "Bakı xanlarının Sarayı" adlandırılması tamamilə düzgün olardı. Bakı Xan Sarayı Kompleksinin bir tərkib hissəsi olduğu üçün yeni tapılmış və konservasiya olunmuş hamamın da "Xan hamamı" kimi adlandırılması və təbliğ edilməsi məqsədəuyğundur.

## Ədəbiyyat

1 İbrahimov K., Əliyev İ. 2016-cı ildə İçərişəhər ərazisində "Böyük Qala 50" ünvanında aparılmış arxeoloji qazıntılar haqqında. Azərbaycanda arxeoloji tədqiqatlar. İllik toplu. Bakı, 2016-17.
2 İsgəndərova M. Бакинское ханство. Bakı, 1999.
3 Гмелин С. «Путешествие по России для исследования трех царств природы». ч. 11.1, СПб.,1777.
4 БутковП.Г., Материалы для новой истории Кавказа, с 1722 по 1803 год, 3 т. СПб., 1869.
5 Новоселов С. Кавказцы или подвиги и жизнь замечательных лиц, действовавших на Кавказе.«Жизнеописание генерал-лейтенанта Глазенапа» СПб.,1837.
6 Потто В.А. Кавказская война. «От древнейших времён до Ермолова» т.1., Кавказская линия, глава 3, Булгаков, 1899.
7 Əliyev İ., İbrahimov K., Axundov E. 2016-cı ildə Bakı xanlarının saray kompleksi ərazisində aşkar olunan hamamda aparılmış arxeoloji qazıntılar haqqında. Azərbaycan Arxeologiyası və Etnoqrafiyası jurnalı № 1, Bakı, 2017.



**Bakı Xan Sarayı**



**Xan sarayı ərazisində arxeoloji qazıntılar. !985-ci il-3**



**II Mirzə Məhəmməd xanın şəxsi möhürü**



**Обший вид дворца Бакинских ханов.Архив СССР**

# MƏHƏMMƏDQULU BƏY KƏNGƏRLİ ÜÇÜN- "VƏTƏN FƏRYADNAMƏSİ"

***Zakir Hafis oğlu Kərimov***
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
*zakir.kerimov.1955@mail.ru*

**Açar sözlər:** *erməni terroru, xatirə, maarifçi,hüquq*

*Azərbaycan xalqının maariflənməsi yolunda təmənnasız fəaliyyət göstərən xeyirxah insanlar az olmamışdır. Onlardan biri də Naxçıvan torpağının yetirməsi olan Məhəmmədqulu bəy Kəngərlidir (1864-1905). O, öz xərcinə İrəvan şəhərində qız məktəbi açmış, azərbaycanlı gənclərin xaricdə təhsil almasına çalışmış, imkansız həmvətənlərinə pulsuz hüquqi yardım göstərmişdir. Məhəmmədqulu bəy Kəngərli öz xalqının hüquqlarının Rusiya imperiyasındakı xristian xalqların hüquqları ilə bərabərləşdirilməsi uğrunda mübarizə aparmışdır. Buna görə 1905-ci il avqustun 29-da erməni terrorunun qurbanı olmuşdur. Bu cür şəxsiyyətlərin həyatı və fəaliyyəti tariximizə şərəf, gənclərimizə isə örnəkdir.*

## ПЛАЧ РОДИНЫ ПО МУХАММЕДГУЛУ БЕКУ КЕНГЕРЛИ

*Закир Керимов*

**Ключевые слова:** *армянский террор,памятъ,просветитель,право*

*На пути просвещения азербайджанского народа было немало людей, чья деятельность была безвозмездной благотворительностью. Одним из них является уроженец нахчыванской земли Мухаммедгулу бек Кенгерли (1864-1905). Он на свои средства открыл в Иревани школу для девочек, помогал в обучении азербайджанской молодежи за границей, оказывал юридическую помощь бедным согражданам. Мухаммедгулу бек Кенгерли боролся за уравнение прав своего народа с христианским населением Российской империи. За все это 29 августа 1905 года стал жертвой армянского террора. Жизнь и деятельность таких людей почетна, а для молодого поколения поучительна.*

# A CRY FOR THE MOTHERLAND FOR MAHAMMADGULU BAY KANGARLİ

*Zakir Karimov*

**Key words:** *Armenian terror,memory,educationalist,right*

*There were a lot of people who worked graticitously on the way to enlightenment of the Azerbaijani people. One of them is Mahammadgulu bay Kangarlı who is from Nakhchivan (1864-1905). He opened a girls`school in Iravan city at his own expence, he tried to educate Azerbaijani youth abroad, he provided free legal assistance to his needy compatriots. Mahammadgulu bay Kangarli fought to equate the rights of his people with the rights of the Christian peoples of the Russian Empire. That`swhyhewas a victim of Armenian terror on Avgust 29, in1905. The lives and activities of such personalities is an honour to our history an example for our youth.*

Azərbaycan xalqının azadlığı, tərəqqisi, həmçinin maariflənməsi yolunda özünü fəda edən görkəmli şəxsiyyətlər az olmamışdır.Onlardan biri də Məhəmmədqulu bəy Kəngərli (1864-1905) idi.

Məmməd Səid Ordubadi "Qanlı sənələr" kitabında yazır: "1905-ci ilin avqustun 29-da erməni-müsəlman toqquşması nəticəsində Batum şəhərində…böyük şəhidimiz Məhəmmədqulu bəy Kəngərli erməni komitəsi tərəfindən göndərilmiş terrorçular tərəfindən öldürülmüşdür.Onun vəhşi terrorçuların əlində şəhid edildiyini eşidib, ağlamayan bir qafqazlı müsəlman yox kimidir...millət və insaniyyət uğrunda can verməyə hazır olan əziz bir vücudun tərcümeyi-halını yazıb millətə, övladlarına yadigar saxlamaq məqsədi ilə "Həyat" qəzetinin 71-ci nömrəsində "Şüa" imzasıyla dərc etmişlər. Mən isə "Şüa" cənablarının arxasınca onun məqaləsindən, mərhumun özü ilə münasibətdə olmuş dostlarımdan iqtibas edərək bir vətən fəryadnaməsi...dərc etməklə, yazımı zinətə mindirdim"[7, s.71-72].

Mərhum Məhəmmədqulu bəy İrəvan quberniyasının Naxçıvan şəhərində 1864-cü ildə anadan olmuşdur. Atası Naxçıvanın bəyzadələrindən olan Şəfi ağa idi. O, ilk təlim-tərbiyəsini atasından, ibtidai təhsilini xüsusi müəllimdən almışdır. Sonra isə Tiflis hərbi məktəbinə-kadet korpusuna daxil olmuşdur [7, s.72]. Rus ordusunun mayoru olan atası kimi hərbçi peşəsini seçmiş,sonra təhsilini davam etdirmək üçün Peterburq Ali Topçuluq Məktəbinə daxil olmuşdur [6, 228]. Burada 1882-ci ildə unter-zabit rütbəsi almışdır.

1893-cü ilə qədər əsgəri qulluqda xidmət göstərmiş,ştabs-kapitan rütbəsində istefaya çıxaraq, Vətənə qayıtmışdır. Bir-iki il Naxçıvanda qaldıqdan sonra, İrəvan şəhərinə getmiş, öyrənmişdir ki, İrəvan quberniyası müsəlmanları dil (rus dilini) bilməməkdən, elmsizlikdən...hüquqlarını bilməməkdən...bəlaya

düçar olurlar. Qərara alır ki, ən əvvəl bacarıqlı bir vəkil olub, millətə xidmətə buradan başlamaq lazımdır. Bu məqsədlə hazırlaşaraq vəkillik imtahanını verib, qanuni şəkildə vəkillik etmək hüququnu alır. Hüquqla bağlı böyük və çətin işləri həmişə uğurla həll edir. Bir az əvvəl nə cür mükəmməl topçu zabiti idisə, indi də bacarıqlı, məharətli bir vəkil idi[7, s.73]. Vəkil kimi xalqın mənafeyini təmənnasız olaraq müdafiə etmiş, onlara qanuni hüquqlarını başa salmış, ona müraciət edənlərin nicatına və xilasına çalışmışdır[1, s.150]. Hər gün evinə bir çox fəqir yoxsul müsəlmanlar gəlib öz ərz-hallarını ona pulsuz yazdırır, dərdlərinə pulsuz dərman alırdılar[2].

O, alicənablığı, millətpərvərliyi, rəhmdilliyi ilə hər kəsin ürəyində yer tutmuşdu. Bir çox vəkillər kimi pula, dövlətə əsla tamah etməyib, nəcib və əsilzadə olduğunu biruzə vermişdi. Görkəmli hüquqşünasın kitabxanasında üç yüz cildə yaxın kitab var imiş. Bu kitabxanadan onun digər müasirləri, o cümlədən C.Məmmədquluzadə də bəhrələnmişdir[5, s.116].

Qafqaz regionunda yaşayan digər xristian xalqlarla müqayisədə müsəlmanlara aşağı nəzərlə baxılmasının aradan qaldırılması M.Kəngərlini məşğul edən əsas problemlərdən idi. Onun istəyi müsəlmanların hüquqlarını çar Rusiyasında yaşayan erməni və digər xalqların hüquqları ilə bərabərləşdirmək idi. Rus hökuməti qarşısnda belə ciddi problem qaldırmaq böyük cəsarət tələb edirdi. M.Kəngərli mükəmməl savadı, həyat təcrübəsi sayəsində həmin problemi bütün kəskinliyi ilə qaldırmağa müvəffəq olmuşdur. Mərhum ümumi camaatın ittifaq və sevgisi ilə bir neçə yoldaşla Peterburqa gedərək,millətin hər növ ehtiyacını qraf Vorontsova söyləyir [2]. Bunlar erməni millətçilərini dərindən narahat edirdi.

“Mərhumun bu ali xahişi...erməni böyüklərinin xoşuna gəlmədi. Ölüm kağızları yazdılar”onun ünvanına[7, s.75].

M. Kəngərlinin fəaliyyətində məktəbdarlıq da mühüm yer tutmuşdur.”Həyat” qəzeti onun vəkilliyi kimi, məktəbdarlığnın da millətin taleyi ilə bağlı olduğunu, dövrün zəruri ehtiyaclarından yarandığını qeyd etmişdir. ”Şəhidi-ali...övladi-millətin tərbiyə və təhsilini əsla yaddan çıxarmazdı...Millətin səlamət və tərəqqisi üçün birinci qapı,ən birinci vasitə...məktəb olduğunu çox yaxşı bilirdi. Qafqazda birinci müsəlman”milli” məktəbi(pansion) açdı...ömürlərini müəllimlikdə çürüdüb, Qafqazın bu qədər böyük şəhərlərində bir müsəlman pansionu aça bilməyən müəllimlərə ən ibrətbəxş bir nümunə oldu...”[7, s.73].

M.S.Ordubadi “Qanlı sənələr” əsərində bu məktəbi “Leyli məktəbi”adlandırır. Əziz Mirəhmədov M.Kəngərlininməktəbdarlıq fəaliyyətini araşdıraraq yazır:”Qızlar üçün rus-Azərbaycan məktəbi, oğlanları gimnaziyaya hazırlayan məktəb-pansion açıb, özü də dərs deyir. Üç ildə bu məktəblərdə qırxa qədər uşaq oxuyur.Yaxşı bir qiraətxana təşkil edir...həmin tədbirlərin çoxu onun öz puluna görülür”[5, s.15].

Akademik İ.Həbibbəyli qeyd edir ki,indiyədək ilk azərbaycanlı qız məktəbi 1901-ci ildə Bakıda məşhur xeyriyyəçi Hacı Zeynalabdin Tağıyev tərəfindən açılıb. H.Z.Tağıyevin xidmətini heç də azaltmadan,M.Kəngərlinin ondan bir az əvvəl qız məktəbi açmağı qeyd edilməlidir.Yeri gəlmişkən, tarixçi alimlər M.İsmayıl və M.İbrahimov göstərirlər ki, H.Z.Tağıyevin qız məktəbi 1901-ci ilin oktyabrın 7-də açılmışdır[3, s.26].2)H.Z.Tağıyevinaçdığı sadəcə qız məktəbi idi və müsəlman qızlarının ilkin savad almalarına xidmət edirdi. Məhəmmədqulu bəyin təsis etdiyi isə qızlar üçün gimnaziya idi.Bu vaxtadək digər Qafqaz şəhərlərində də oğlan gimnaziyaları fəaliyyət göstəririrdi.Qızlar üçün isə belə təhsil ocağını birinci dəfə M.Kəngərli açmışdı.Həmin gimnaziyanı bitirən qızlar universitetlərə daxil olmaq imkanı qazanırdılar[1, s.26].

İ.Həbibbəyli arxiv materiallarına istinad edərək yazır ki, 30 aprel 1901-cı il tarixdə Naxçıvan şəhər pedaqoji şurasının yığıncağında M.Kəngərlinin hesabdan keçdiyi nümunə dərsi müzakirə olunaraq ona “İbtidai sinif müəllimi” adı verilməsi qərara alınmışdır.İrəvan quberniyası Xalq Məktəbləri Direktorluğu həmin qərara əsasən, 29 may 1901-cı ildə M.Kəngərliyə 1163 №-li müəllimlik vəsiqəsi vermişdir.Pedaqoji fəaliyyət üçün lazım olan sənədləri əldə etdikdən sonra, o, 2 sentyabr 1901-ci ildə Gafqaz Təhsil Dairəsindən şəxsi məktəb açmaq üçün rəsmi icazə almışdır. Məktəb ilkin sənədlərdə ”Məhəmmədqulubəy Kəngərlinskinin üçüncü dərəcəli birsinifli şəxsi məktəbi” adlandırılmış, sonra qızlar üçün gimnaziya statusu almışdır.

Şəxsi məktəb15 sentyabrdan etibarən fəaliyyətə başlamışdır. Məktəbin hazırlıq sinfində-4;birinci sinfində-4;ikinci sinfində-4;üçüncü si nfində-6 nəfər,cəmi 18 nəfər şagird təhsil almışdır. Məktəbin illik təhsil haqqı 1350 manat idi.Tərbiyə işlərinə- 1935,binanın kirayəsinə-700,şəxsi heyət üçün-960,digər xərclərdən ötrü-1635 manat sərf edilmişdir. Məktəbin ümumi maliyyə vəsaiti 6380 manat təşkil etmişdir[1, s.152]. Təhsil alan şagirdlərin hamısı azərbaycanlı idi. Məktəbin pedaqoji heyəti əvvəlcə 4 nəfərdən ibarət idi.M.Kəngərli təhsil ocağının maliyyələşdirməsini öz üzərinə götürmüş, həm də hesab fənnini tədris etmişdir.Müəllimlər İrina Nikolayevna Sere bryaçenko, Nadejda Timoloyna Zaporen və Mirzəhüseyn Axundovdan ibarət idi.

1903-cü il sentyabrın 17-dən etibarən Cəfərbəy Cəfərbəyov da məktəbdə pedaqoji fəaliyyətə başlamışdır[1, s.153].

Luiza Ray məktəbdə fransız dilini tədris edirdi.

Məktəbin kitabxanası da fəaliyyət göstərirdi.Kitabların müəyyən hissəsini dərsliklər təşkil edirdi.

Məhəmmədqulu bəy Kəngərlininin şəxsi məktəbi 5 sentyabr 1903-cü ildən İrəvan şəhərində, İsmayıl bəy Sadıqbəyovun mülkündə öz fəaliyyətini davam etdirmiş, lakin 01 iyun 1905-ci ildə öz fəaliyyətini dayandırmışdır [1,s.153]. M.Kəngərli məktəbin fəaliyyətinin dayandırmasını xaricə getməsi ilə əlaqələndirmişdir.

Onun xaricə getməsi səbəbinə "Həyat" qəzeti belə aydınlıq gətirir:"...Məhəmmədqulubəy Peterburqdan gələndən bəri gözləyirdilər ki, (ermənilər) onu öldürsünlər.

Mərhum işin bu cəhətini yaxşı qanmışdır...buralarını bilə-bilə yenə istərdi ki,vəkilliyinə, məktəbin tərəqqisinə davam etsin. Lakin bir kimsədən müavinət görmədi. Axırda çarəsiz qaldı.Məktəbini dağıdıb, vəkilliyini buraxıb, Parijə getməyə, oradan millətinə özgə yolda xidmət etməyə məcbur oldu. O...öz bacısı oğlunu (Heydəri) və özgələri Parijə təhsilə aparıb, bu barədə qafqazlılara bir qapı açsın. İstəyirdi ki, Qafqazdan tələbə getməyə vasitə olub, bir dairə içində sıxışıb qalan müsəlmanlara mənbəyi-fənn və hünəri tanıtsın"[7, s.75].

M. Kəngərli ilk növbədə erməni terrorundan uzaqlaşmaq, sonra isə millətinə bir maarifçi kimi xidmət göstərmək məqsədilə İrəvandakı məktəb və vəkillik mənsəbini buraxıb xarici ölkəyə getmək niyyətində olmuşdur.Lakin bu vətənsevər insanın bu səfəri baş tutmamış, ömrü faciə ilə tamamlanmışdır.

"Şüa"imzalı müəllif bu barədə yazır ki, M.Kəngərli 1905-ci il avqustun 25-də İrəvanı tərk edib Tiflisə getdi. Orada bir neçə gün qalandan sonra bacısı oğlu Heydər ilə Batuma getdi ki, gəmiyə minib Parijə yollansın...Bu arada...bir dükandan bir neçə açıq məktub alıb, bəzi dostlarına bu surətdə yazdı: "Batumdayız,bilet aldıq. Bir saatdan sonra firəng gəmisinə minəcəyik.Vətənim, millətim, heç vaxt yaddan çıxmayacaqdır. Xidmət yer ilə deyil, insanın özü ilədir".O, bu məktubları poçt qutusuna buraxıb yemək yeməyə getmək istəyirdi. Lakin erməni komitəsi tərəfindən göndərilən üç erməni divarın küncündən qəflətən çıxıb onu xəncər ilə parça-parça doğrayıb, qaçdılar.Bütün qafqazlı müsəlmanların fəxr etdikləri bu şəxs din xainləri tərəfindən öldürüldü [7, s.75].

Tiflis camaatı mərhumun cənazəsini böyük izdihamla və ehtiramla məscidə aparıb, sentyabrın 2-də öz bacısı, Cəlil Məmmədquluzadənin 1904-cü ildə bu şəhərdə dəfn olunmuş həyat yoldaşı Nazlı xanım Kəngərlinin yanında torpağa tapşırdılar. Dəfnin əsas təşkilatçısı Mirzə Cəlil olmuşdur. Yeri gəlmişkən, C.Məmmədquluzadənin mətbuat və ədəbiyyat aləminə çıxmasında M.Şahtaxtılı ilə bərabər M.Kəngərlinində mənəvi dəstəyi olmuşdur [4, s.56-57]. O zamankı dövrü mətbuat M.Kəngərlini millət yolunda ölməklə cənnətə girmək üçün onun qapısnı ən əvvəl açan fədakar vətəndaş kimi qiymətləndirmişlər.

M.S.Ordubadi o zaman yazırdı ki, başqa millətlərdə belə böyük kimsələrin heykəli qoyulur, əsrdən-əsrə yadigar buraxılır,əfsus ki,o millət şəhidinin adına bir yadigar, bir abidə qoyulmamışdır[7, s.72].Böyük ədib bu səbəbdən onu millət və Vətən övladına bir müsbət nümunə kimi təqdim etmək və onun əməllərini hifz etmək üçün bir "Vətən Fəryadnaməsi"ni yazdığını bildirir.

## Ədəbiyyat

1. Ordubadi M.S.Qanlı illər.1905-1006-cı illərdə Qafqazda baş verən erməni müsəlman davasının tarixı.Bakı: 1991.
2. ”Kredo”qəzeti,№47(972),13 noyabr 2019-cu il.
3. Mahmud İsmayıl,Marat İbrahimov.El atası.Azərnəşr,Bakı: 1971.
4. Məmmədquluzadə C.Xatiratım.Bakı:1971.
5. Mirəhmədov Ə.Azərbayçan Molla Nəsrəddini.Bakı:1980.
6. Naxçıvan Ensiklopediyası.Bakı: 2002.
7. Həbibbəyli İ. Ç.Məmmədquluzadə:mühiti və müasirləri.Əcəmi nəşriyyatı, Naxçıvan: 2009.

TARİX, İNSAN VƏ CƏMİYYƏT-2020, 1 (28), s.79-89

# ELXANİLƏR DÖVRÜNƏ AİD TOVUZ ZƏRBXANASI SİKKƏLƏRİ

*(son numizmatik tapıntılar əsasında)*

***Aygün Musa qızı Məmmədova***
***AMEA Milli Azərbaycan Tarixi Muzeyi***
aygun-kons@mail.ru

**Açar sözlər:** *Elxanilər, Tovuz, dinar, dirhəm, dəfinələr*

*Məqalədə numizmatik materialllar əsasında Elxani hökmdarları - Arğun (683 – 690 = 1284 - 1291), Qazan Mahmud (694–703 = 1294-1303), Əbu Səid (716-736 = 1316–1335), Tağay Timur (737–754 = 1336-1353) və Süleyman (739–746 = 1338–1345) tərəfindən Taus zərbxanasında (indiki Azərbaycan Respublikasının Tovuz rayonu) vurulan sikkələr - dinarlar və dirhəmlər araşdırılır.*

*Müəllif, eyni zamanda, Azərbaycan ərazisində tapılmış bu pullardan ibarət dəfinələr və o dövrün ticarət yolları haqqında geniş məlumatlar verir. Məqalə numizmat, tarixçi, sənətşünas və orta əsrləri öyrənən digər tədqiqatçılar üçün maraqlı ola bilər.*

# О МОНЕТАХ, ЧЕКАНЕННЫХ В ТОВУЗЕ В ПЕРИОД ИЛЬХАНИДОВ

***Айгюн Мамедова***

**Ключевые слова:** *Ильханиды, Товуз, динар, дирхем, клады*

*В статье основываясь на нумизматическое определение исследованы монеты – динары и дирхемы, чеканенные на монетном дворе Таус (ныне район Товуз Азербайджанской Республики) в период правления ильханидских ханов – Аргуна (683–690 = 1284-1291), Газан Махмуда (694–703 = 1294-1303), Абу Саида (716-736 = 1316–1335), Тагай Тимура (737–754 = 1336-1353) и Сулеймана (739–746 = 1338–1345).*

*Автором также отмечены клады, состоящие из данных монет, найденные на территории Азербайджана и торговые маршруты данного периода. Статья предоставляет интерес для нумизматов, историков, искусствоведов и др. исследователей средневековья.*

# ABOUT COINS MINTED IN TAUS DURING THE ILKHANID PERIOD

***Aygun Mammadova***

**Keywords:** *Ilkhanids, Tovuz, dinar, dirham, treasures*

*İn article based on the numismatic facts, investigated of coins – dinars and dirhams minted in Taus (now the Tovuz region of the Azerbaijan Republic), in period of the Ilkhanid khans - Argun (683-690 = 1284-1291), Gazan Mahmud (694-703 = 1294-1303), Abu Said (716-736 = 1316-1335), Tagay Timur (737-754 = 1336-1353) and Suleiman (739-746 = 1338-1345).*

*The author also noted the treasures, consisting of these coins, founded in the territory of Azerbaijan and trade routes of this period. The article is of interest to numismatists, historians and other researchers of the Middle Ages.*

**Aktuallıq.** Müasir dövrümüzdə respublikamızın ərazisində arxeoloji qazıntılar və ya təsadüfi halda aşkar edilən, həmçinin virtual məkanda təqdim olunan numizmatik tapıntıların tədqiqi və təbliği aktuallıq kəsb edir. Bir sıra hallarda belə tapıntıların səhv yozumu nəinki milli, həm də ümumi numizmatika elmində yanlış qənaətlərə səbəb olur.

Məqalədə XIII əsrin sonu – XIV əsrin əvvəllərində Elxani hökmdarları adından Tovuzda zərb edilmiş dinar və dirhəmlərinin numizmatik tədqiqi edilmiş, Azərbaycan numizmatikasının "işğal zərbi" adlandırılan uyğun dövründə sikkə zərbinin səciyyəvi xüsusiyyətləri açıqlanmış, qeyd edilən zərbxana ilə bağlı mövcud fikirlərə aydınlıq gətirilmişdır.

**Elmi yenilik.** Məqalədə ilk dəfə olaraq müxtəlif muzeylərdə və şəxsi kolleksiyalarda qorunan, müasir dövrümüzdə virtual nümayiş olunan Elxani hökmdarları - Arğun (683–690 = 1284-1291), Qazan Mahmud (694–703 = 1294-1303), Əbu Səid (716-736 = 1316–1335), Tağay Timur (737–754 = 1336-1353) və Süleyman (739–746 = 1338–1345) dövründə Tovuz şəhər-zərbxanasında istehsal edilmiş sikkələrin (qızıl dinarlar və gümüş dirhəmlər) fotoları təqdim edilərək numizmatik təyinatı verilmişdir.

XIII əsrin sonu – XIV əsrin əvvəllərində Cənubi Qafqazın digər ölkələrlə ticarət əlaqələrində istifadə edilən Tovuz zərbxanası sikkələrinin səciyyəvi xüsusiyyətləri açıqlanmış, belə sikkələrin daxili və beynəlxalq ticarətdə iştirak etdiyi vurğulanaraq, monqol istilasının həm də islamlaşmaya səbəb olduğu bildirilmiş, uyğun dövrün ticarət marşrutları qeyd edilmişdir. Məqalədə ilk dəfə olaraq sikkə tapıntılarına əsasən, ötən əsr tədqiqatlarından fərqli olaraq, Elxanilər dövründə Tovuz zərbxanasının Qazan Mahmud (694–703 = 1294-

1303) dövründə deyil, daha əvvəl - Arğun (683–690 = 1284–1291) dövründən fəaliyyət göstərdiyi təsdiq edilmişdir.

**İşlənmə dərəcəsi.** Bir sıra tədqiqatlarda “Fars monqolları” adlandırılan Elxani sikkələrinə maraq XVIII əsrdə yaranmışdır [17; 28]. Növbəti əsrdə aşkarlanan yeni tapıntılar nəticəsində belə sikkələrin tədqiqi davam etdirilmişdir [19; 25; 27; 6; 16; 24; 21; 9].

Azərbaycan zərbxanalarında istehsal edilmiş Elxani sikkələri ötən əsrin [10; 20; 23; 29; 14; 15; 18; 1; 13] və müasir dövrümüzün bir sıra tarixi-numizmatik tədqiqatlarında [4; 24; 26] araşdırılsa da, yeni tapıntılar bir sıra qənaətlərə yenidən baxılmasını tələb edir.

Elxanilər (Hülakülər) dövlətinin ərazisi Fars körfəzindən Dərbəndə və Ceyhun çayından Misirə qədər uzanırdı. Gürcüstan, Trabzon imperiyası, Konya sultanlığı, Kilikiya çarlığı, Kipr krallığı, Heratın müəyyən qismi Elxanilərdən vassal asılılığında olmuş, vergilər ödəmişlər. Dövlətin paytaxtı Marağa, Təbriz, Sultaniyyə, sonra isə yenidən Təbriz olmuşdur [7, s.187].

Çingiz xan sülaləsinin varisləri olan, “elin xanı, tabe olan xanlıq” tituluna malik Elxanilərə həsr edilmiş ötən əsr tədqiqatlarından Hülakü xanın (1256 - 1265) İsmaililər və Abbasilərin qızıl və gümüş sikkələrini ələ keçirərək Azərbaycana yolladığı, nəticədə əridilmiş külçələrdən yeni sikkələr zərb edilərək pul dövriyyəsinə daxil edildiyi məlumdur [14, s.150].

Bununla da tarixdə “gümüş böhranı” adı ilə qalan siyasi və iqtisadi səbəblər yox edilmiş və XIII əsrin 30-cu illərindən etibarən ticarətdə gümüş sikkə sistemi yenidən üstünlük təşkil etmişdir.

Hələ ötən əsrin əvvəllərinə aid tədqiqatlarda Elxani sikkələrindəki طاوس - “Taus” (bəzi oxunuşlara əsasən - Tusin, Tus) sözü müasir İran İslam Respublikasının Xorasan vilayətindəki Tus şəhərilə eyniləşdirilirdi [20, s.169]. Mənbəəşünasların (İbn Rüşd, Muqəddəsi, Yaqut) qeydlərinə əsasən, Nişapurdan sonra ikinci şəhər olan Tus şəhəri iki hissədən – Təbəsəran və Nukanədən ibarət idi. Hicri 193 = 809-cu ildə dünyasını dəyişən Abbasi xəlifəsi Harun ər-Raşid Tus yaxınlığındakı Sanabad kəndində dəfn edilmişdi [23, s. 414; 20, s. 169].

Lakin Azərbaycan numizmatları hələ ötən əsr araşdırmalarında “Taus” sözünün yazılışına diqqət yetirərək, bu sözün “Tus” şəklində deyil, məhz “Taus” şəklində oxunuşunu (Azərbaycan dilində - Tovuz) düzgün hüsab etmiş və bu zərbxananın müasir Azərbaycan Respublikası ərazisində olan Tovuz rayonunda olduğunu bildirmişlər [14, s. 231]. Lakin Elxanilər dövründə həm də hazırda İran İslam Respublikası ərazisindəki Tus şəhər-zərbxanasında sikkə zərbinin olduğu inkar edilməməlidir.

Son illərdə Tovuz rayonu və ətraf ərazilərində aparılan arxeoloji kəşfiyyat işləri və qazıntılar nəticəsində bu ərazinin ilkin yaşayış məskənlərindən biri olduğu (36) bir daha qeyd edilmiş, orta əsr Arran vilayətində şəhər-qala kimi

mövcudluğu həm yazılı mənbələr [3, s.181], həm də numizmatik tapıntılarla sübut edilmişdir (Ərəb Xilafəti dönəmində "Arran" inzibati adı ilə sikkələrin həm də Tovuzda istehsal edildiyi söylənilə bilər [2, s.17].

İlk Elxani hökmdarları Hülaqu (654–663 = 1256-1264), Abaqa (665–680 = 1266-1281) və Əhməd Tekudar (681-683 = 1282-1284) dövrünə aid çoxsaylı sikkə tapıntıları sırasında Tovuz zərbxanasına aid fakt aşkarlanmamışdır.

Hicri 688 = 1280-ci ilin gümüş dirhəminin numizmatik tədqiqi nəticəsində Tovuz zərbxanasının məhz Arğunun hakimiyyəti dövründə (683-690 = 1284-1291) təsis edildiyi söylənilə bilər (şəkil 1) [32].

Arğun xan dövrünə aid orta çəkisi 2,3 q olan Tovuz gümüş dirhəmlərinin bir tərəfinə uyğurca: "Kaanu /nereber/ Arquni – un/ deletkuluk", ondan aşağıda ərəbcə: "Arğun", digər tərəfinə ərəbcə: "Allahdan başqa ilah yoxdur, Muhəmməd Allahın rəsuludur" ətrafına ərəbcə zərb tarixi (sözlərlə) və zərbxana həkk edilmişdir.

Mərkəzi hakimiyyəti möhkəmləndirməyə çalışan Arğun xan dövründə gümüş sikkələrin əyarı əvvəlki kimi 90 % təşkil edirdi.

Bu dövrdə qızıl dinarlar azsaylı olsa da, Təbriz, Nişapur, İsfərain, Tus, Astarabad, Damqan, Bazari Ordu, Bavərd, Tiflis və d. zərbxanalarda uyğur və ərəb qrafikalı 24 tip gümüş dirhəmlər zərb edilmiş və sikkələrə artan tələbat nəzərə alınaraq, yeni nominallı gümüş sikkələr (1/4 gümüş dirhəm) istehsal edilmişdir.

Sələfinin tərəfdarlarını edam etdirən, bir sıra əmirləri vəzifələrindən kənarlaşdıran Arğun xan mövcud ənəyəyə əsasən tabeliyində olan ərazilərə rəhbərlər təyin etmişdi. O, oğlu Qazan xanı Xorasan, Mazandaran, Rey və Qumisə, qardaşı Keyxatu xanı Kiçik Asiyaya, qohumları Baydu və Aruku Bağdad və Diyarbəkrə, Acayı isə Şərqi Gürcüstana göndərmişdi [14, s.204].

Arğun xanın vəfatından sonra hakimiyyətdə olan Keyxatu (690–694 = 1291-1295) və Baydu (694 = 1295) dövründə fəaliyyət göstərən Təbriz, Həmədan, Tiflis və d. zərbxanalarında uyğur və ərəbcə sözlər olan dirhəmlərin (2,05 – 2,8 q) zərbi davam etdirilmiş [14, s.221], lakin Tovuz zərbxanasının fəaliyyətini sübut edən tapıntılar aşkarlanmamışdır.

Siyasi və iqtisadi islahatlarla tarixdə iz qoymuş Qazan xan (694–703 = 1294-1303) dövründə sikkələrə onun dini adı və titulu - "Mahmud" ("həmd edən") həkk edilmişdir [14, s.225].

Hicri 696 = 1296-1297-ci ildə Qazan xanın əmri ilə olan sikkə islahatı nəticəsində 2.13 q çəkili dirhəm və onun hissələri əsas sikkə olaraq qəbul edildi və XIV əsrin ilk iki on illiyində Elxanilər imperiyasının pul dövriyyəsində istifadə edildi [12, s.89-90].

Qazan xanın hakimiyyət illərində olan iqtisadi yüksəliş Tovuz zərbxanasında zərb edilmiş qızıl dinarlarla təsdiqini tapır (şəkil 2) [30] və (şəkil 3) [34].

Hicri 694 = 1294-cü il dinarında (9,93 q) yalnız ərəbcə yazılar olsa da ("əzəmətli padşah" "Ğazan xan"), hicri 700 = 1300-cü ilin dinarında (3,66 q) həm ərəbcə ("Ğazan Mahmud"), həm də uyğurca ("Tanrının gücü ilə zərb edib Qazan") yazılar vardır.

Hər iki dinarda "Allahdan başqa ilah yoxdur, Muhəmməd Allahın rəsuludur" ifadələri, zərb ili və zərbxana ərəbcə həkk edilmişdir.

Hicri 694 = 1294-cü ilin Tovuz dinarının üst və arxa möhürlərinin forması eynidir və Qazan xanın adının yanında beşguşəli kiçik ulduz, hicri 700 = 1300-cü ilin dinarının sikkə möhürlərinin forması isə fərqlidir (bir üzündə beşguşəli kartuş, o biri üzündə isə fərqli kartuş vardır).

Hicri 701 = 1301-1302-ci ilin Tovuz dirhəmi (N 516253, 4,24 q; d = 26–27 mm) hazırda Moskva şəhərindəki Dövlət Tarix Muzeyində, hicri 702 = 1302-1303-cü ilin Tovuz dirhəmi (N 158, 1,86 q; d=21 mm) isə hazırda Sankt-Peterburq şəhərindəki Dövlət Ermitajında qorunur [14, s.230].

Qazan xan dövründə Tovuz zərbxanasından əlavə Təbriz, Marağa, Naxçıvan, Gəncə, Bərdə, Həmədan, Tiflis, Arran və d. zərbxanalarda çoxsaylı gümüş dirhəmlər, qızıl dinarlar və mis felslər istehsal edilmişdir.

Hicri 703 = 1304-cü ildə Qazan xanın vəfatından sonra, onun vəsiyyətinə əsasən, qardaşı Ulcaytu sultan hakimiyyətə gəlmişdir. İslam dinini qəbul etdikdən sonra "Muhəmməd Xudabəndə" (Yaradanın bəndəsi Muhəmməd) adı ilə özünü tanıdan bu sultan dövründə ticarətdə olan canlanma sayəsində sikkələrə tələbat artmış və üzərində "ədalətli Sultaniyyə" sözləri olan ağırçəkili mis sikkələr zərb edilmişdir. Uyğun dövr sikkələrində uyğurca və ərəbcə sözlər vardır. Bu sultanın hakimiyyəti dövründə Tovuz zərbxanasının fəaliyyətini təsdiq edən faktlar aşkarlanmamışdır.

Ulcaytu sultan vəfat etdikdən sonra oğlu Əbu Səid (716–736 = 1316–1335) hakimiyyətə gəlir.

Hicri 724 = 1324-cü ilin Tovuz dirhəmlərinə (10,7 q) ərəbcə ifadələr – "Allahdan başqa ilah yoxdur, Muhəmməd Allahın rəsuludur", 4 xəlifə adları (Əbu Bəkr, Əli, Ömər, Osman), "mövla, sultan (əzəmətli) Əbu Səid, bahadır xanın hakimiyyət dövründə zərb edilib, Allah hakimiyyətini davamlı etsin" sözləri, zərbxana (zərbe Taus) və sözlərlə zərb ili həkk edilmişdir (şəkil 4) [31].

Bu sultanın hakimiyyəti dövründə Tovuz zərbxanasının fəaliyyəti hicri 730 = 1330 və hicri 734 = 1334-cü illərin gümüş dirhəmləri ilə də təsdiq edilir.

Belə dirhəmlərin üst tərəfindəki 3-cü sətirə uyğurca "Əbu Səid", digər sətirlərdə ərəbcə: "Əzəmətli sultan Əbu Səid, Tovuz zərbi", ətrafında 4 tərəfdə ərəbcə: "yeddi yüz otuz dördüncü ildə zərb edilib", arxa tərəfində: "Allahdan başqa ilah yoxdur, Muhəmməd Allahın rəsuludur", "Allahın Ona salamı olsun" sözləri, ətrafında 4 xəlifə adları zərb edilimişdir (2,8 q) [15, s.28].

Sonrakı mərhələlərdə qısamüddətli hakimiyyətdə olmuş elxani hökmdarları Arpa Qaun (736 = 1336), Musa xan (736-737 = 1336-1338),

Muhəmməd (736–738 = 1336-1338), Sati bəy (739 = 1340), Cahan Timurun (740–741 = 1339-1340) hakimiyyəti dövrünə aid numizmatik tapıntılar olsa da, məhz Tovuz zərbxanasına aid fakt aşkarlanmamışdır.

Hicri 739 = 1338 və hicri 741 = 1340-cı il dirhəmlərinin numizmatik təyinatı Tağay Timur (737–754 = 1336-1353) və Süleymanın (739–746 = 1338-1345) hakimiyyəti dövründə Tovuz zərbxanasının fəaliyyətini sübut edir (şəkil 5) [35] və (şəkil 6) [34]. Belə dirhəmlərdə Elxani hökmdarları "ədalətli sultan" titulu həkk edilmişdir.

Son Elxani xanları - Ənuşirvan (745–757 = 1344-1356), II Qazan (757–758 = 1356-1357) dövrünə aid sikkələr və Elxani sikkələrinə təqlidən zərb edilən sikkələr sırasında Tovuz zərbxanasına aid sikkələrə rastlanmamışdır.

Beləliklə, yeni numizmatik tapıntılar əsasında araşdırmaya cəlb etdiyimiz Tovuz zərbxanası sikkələri uyğun dövrün Tus zərbxanasından bir qədər gec, dördüncü Elxani hökmdarı - Arğun xanın (1284–1291) hakimiyyəti dövründə fəaliyyətə başlamışdır. Qazan xan (1294-1303) dövründə olan iqtisadi yüksəlişlə əlaqədar bu şəhər-zərbxanada qızıl dinarlar zərb edilmişdir. Tovuz zərbxanasının son dirhəmləri (4,27 q) Süleyman (1338–1345) dövründə zərb olunub.

Elxani sikkələrindən ibarət sikkə dəfinələri Azərbaycan Respublikasının Cəlilabad [12, s.89], Bakı, Gəncə, Tovuz, Xankəndi, Naxçıvan Muxtar Respublikası [11, s.33-36] və d. məkanlarında aşkarlanmışdır. Belə dəfinələrdə Elxani sikkələri Səlcuqlular, Baqratilər, Cəlairilər, Cuçilər, Müzəffərilər dövrünə aid sikkələrlə birgə tapılmışlar.

Araşdırmağa cəlb etdiyimiz, Azərbaycanda hələ Ərəb Xilafəti dövründən zərb edilən ərəb kufi dirhəmi ilə eyni çəkili olan monqol dirhəmi Yaxın və Orta Şərq, hətta Avropa ilə ticarət əməliyyatlarında istifadə edilmiş, çoxsaylı italiyalı tacirlərin Təbrizə gəldiyi, Hindistanla iqtisadi-mədəni əlaqələrin olması tədqiqatlarla təsdiqlənmişdir [33].

Monqol yürüşü nəticəsində Ön Asiya vilayətlərinin pul təsərrüfatında istifadə edilən və başlıca sikkə olan, çoxsaylı gümüş dirhəmlər Orta və Aşağı Volqayanı ərazilərdə, Mərkəzi Asiya, Krım və rus knyazlıqlarının ticarət əlaqələrində iştirak etmişdir.

Xəzər dənizi və Qaradəniz sahilləri boyunca olan Avrasiya düzəngahları, həmçinin Volqa və Neva çayları vasitəsilə edilən ticarət Şərqi Avropa dövlətləri, Mərkəzi Asiya, Monqolustan və Çin arasında mədəni, ticari əlaqələrə imkan yaratmaqla yanaşı, müəyyən maddi gəlirin əldə edilməsinə də səbəb olmuşdur.

Beləliklə, uyğun dövrdə olan dəniz ticarəti – Baltik – Volqa, Xəzər – Volqa, Dnepr, karvan ticarəti isə Qafqaz-Volqayanı, Bulqar-Kiyev-Regensburq, eləcə də Volqayanı – Krım marşrutları ilə həyata keçirilirdi. Məhz bu

magistrallardan əldə olunan qənimət və gəlir hesabına Çingiz xanın varisləri uğurlu və məqsədyönlü işğallara nail olmuşdular [5, s. 16].

Çingiz xanın nəvələrinin təsis etdiyi Elxanlı və Qızıl Orda dövlətlərinin islamlaşması və türkləşməsi monqol istilasının müsbət tərəflərindəndir.

Elxani dövrünə aid numizmatik tədqiqatlara əsasən, qızılın gümüşə nisbəti 1: 6,64 olmuşdur. Ən yüksək sikkə vahidi tümən, ardınca isə qızıl və gümüş balış, daha sonralar dinar, danq, fels və dirhəm pul təsərrüfatında istifadədə olunmuşdur. Orta əsr mənbələrinə əsasən, "hörmüzi", "xalifati" "misri" adlı qızıl dinarlar Elxanilər imperiyasının beynəlxalq ticarət əlaqələrində istifadə edilmişdir [14, s. 243].

Bir sıra milli numizmatik tapıntılarımızın qanundan kənar yollarla digər ölkələrə ötürülməsi halları acınacaqlı problemdir. Belə tapıntıların xarici muzeylərdə qorunması və nümayiş edilməsi təbliğat baxımından önəmli olsa da (yanlış izahlar da istisna deyil), belə tapıntıları muzeylərə təhvil vermək hər bir vətəndaşın borcudur və müvafiq qanunlarla tənzim edilməlidir.

## Ədəbiyyat:

1.Aydın Ş., Aykut T. Moğol ve İlhanlı sikkeleri. İstanbul: Yapı Kredi Yayınları, 1992

2. Məmmədova A.M. Ərəb Xilafəti dövründə Azərbaycanda sikkə zərbi və pul dövriyyəsi. T.ü.f.d. aliml. dər. alm. üç. təqd.ed.dis.avtoreferatı. Bakı: 2013

3.Vəlixanlı N. Ərəb Xilafəti və Azərbaycan. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1993

4. Yıldırım M., Akyıldız A. Konya Muzesinde bulunan İlhanlı hükümdarı Ebu Said bahadır han dönemine ait sikkelerden örnekler// ISTEM, 2017, s 61-78

5.Арсланов А.М. Сухопутные торговые маршруты в западной торговле Золотой Орды второй половины XIII–первой половины XIV в.// Исторические науки и археология. М.: Грамота, 2014, с. 15-18

6. Григорьев В. О первых монгольских монетах сельджукского типа, приписанных Алуш беку. Спб: 1861

7. История Ирана с древнейших времен до конца XVIII века. Ред.состав: Пигулевская И.В. и др. Л.: 1958

8. Капанадзе Д.Г. Грузинская нумизматика. М.: 1955

9. Марков А.К. Инвентарный каталог мусульманских монет Эрмитажа. Спб: 1896

10. Пахомов Е.А. Краткий курс истории Азербайджана с приложением экскурса по истории ширваншахов XI – XIV в.в. Баку: Бакинский отдел народного просвещения, 1923

11. Пахомов Е.А. Монетные клады Азербайджана и других республик, краев и областей Кавказа. Вып. II, Баку, 1938

12. Раджабли А.М. Нумизматика Азербайджана. Баку: Элм ва хаят, 1997

13. Раджабли А.М. Денежное обращение и монетная чеканка в Азербайджане в XIII – XIV вв.//Журнал «Ирс-Heritage». М.: 2008, с. 4 - 6

14. Сейфеддини М. Монетное дело и денежное обращение в Азербайджане XII – XV вв. Вып. 1, Баку, 1978

15. Сейфеддини М. Монетное дело и денежное обращение в Азербайджане XII – XV вв. Вып. 2, Баку, 1981

16. Тизенгаузен В.Г. Восточные монеты Н.П.Линевича // Зап.восточ.отд.Импер.русск.археол.о-ва. Спб: 1889

17.Adler J.G.C. Museum cuficum borgianum Velitris // Illustravit Jacobus Georgius Christianus Adler. Romae, 1782

18. Blair S. The Coins of the Later İlkhanids: a typological Analyses // Journal of The Economic and Social History of the Orient. 1983

19. Castiglioni C.O. Monete cufiche dell J.R.Museo di Milano. Milano, 1819

20. Codrington O. A manuel of musulman numismatics// Royal Asiatic Society monographs. V. 7, London: 1904

21. Drouin M. Notice sur les monnaies mongoles// JA IX. 1896

22. Khak P.M., Kouhpar K., Hajiveli M., Khadem M. Elemental analyses on İlkhanid period coins by pixe: a case study on king Ghazan silver coins// Mediterranean Archaeology and Archaeometry. Vol. 13, No 2, Greece, 2013

23. Le Strange G. The Lands of the Eastern Caliphate: Mesopotamia, Persia and Central Asia from the Moslem Conquest to the Time of Timur. The University of Michigan, 1905

24. Len Pool S. Catalogue of oriental coins in the British Museum, Vol. V, London: 1880;

25. Marsden W. The Oriental coins ancient and modern. London, 1825

26. Neyetani J., Salehi A., Mousavi S.M., Hajivaliei M., Noubari A.R.H. Politivo-economic Conditions of İlkhanid Coins from Different Mint Houses by PİXE// Sociology and Anthropology 2(2). İran: 2014

27. Saulcy F. Septieme letter a M.Reinaud // Journale Asiatique. 1842

28. Tichsen T.C. Commentation de numis orientalibus in Bibliotheca regia Cottingensi adservatis. Gottinga: 1790

29. Zambaur E. Contributions a la numismatique orientale. Part 2, Vienne: 1905

**Web resurslar:**

30.bsjauctions.com
31.coinarchives.com
32. gramho.com
33. İlhanlılar Devleti siyasi, sosyal, kültürel tarihi... // sabah.com.tr
34. numisbids.com
35. sarcauction.com
36. Tovuz rayonunda arxeoloji tədqiqatlar aparılır // azertag.az



Şəkil 1. Arğun (683 – 690 = 1284 - 1291). Tovuz, 688 = 1280, gümüş dirhəm, 2,3 q



Şəkil 2. Qazan Mahmud (694 – 703 = 1294 - 1303). Tovuz, 694? = 1294?, qızıl dinar, 9,93 q



Şəkil 3. Qazan Mahmud (694 – 703 = 1294 - 1303). Tovuz, 700 = 1300, qızıl dinar, 3,66 q



Şəkil 4. Əbu Səid (716 – 736 = 1316 - 1335). Tovuz, 724 = 1324, gümüş dirhəm, 10,7 q



Şəkil 5. Tağay Timur (737 – 754 = 1336 – 1353). Tovuz, 739 = 1338, gümüş dirhəm, 6,38 q



Şəkil 6. Süleyman (739 – 746 = 1338 – 1345). Tovuz, 741 = 1340, gümüş dirhəm, 4,27 q

# AZƏRBAYCANIN AVROPA ÖLKƏLƏRİ İLƏ MƏDƏNİ ƏLAQƏLƏRİ TARİXİNDƏN

***Səyyarə Məmmədova***
AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu
sayyara.sm@gmail.com

**Açar sözlər:** *Azərbaycan, Avropa, mədəni əlaqələr, incəsənət, sənət nümunələri*

*Müxtəlif mənbələrdən toplanmış tarixi faktlar əsasında yazılmış məqalədə Azərbaycanın Avropa ölkələri ilə mədəni əlaqələrinin tarixinə nəzər salınır. Ən qədim dövrlərdən günümüzədək getdikcə intensiv xarakter alan mədəni əlaqələrin inkişafında elmin, incəsənətin, xalq sənətkarlığının bəzi sahələrinin rolu hərtərəfli tədqiq olunur. Müəllif Azərbaycanın Avropa ölkələri ilə mədəni əlaqələrinin tarixini faktiki materiallar əsasında şərh edir.*

## ИЗ ИСТОРИИ КУЛЬТУРНЫХ СВЯЗЕЙ АЗЕРБАЙДЖАНА СО СТРАНАМИ ЕВРОПЫ

***Сайяра Мамедова***

**Ключевые слова:** *Азербайджан, Европа, культурные связи, искусство, виды искусства, ковроткачество*

*В статье на основе исторических фактов, собранных из различных источников, рассматривается история культурных связей Азербайджана со странами Европы. Подробно изучается роль некоторых областей науки, искусства и народного творчества в развитии культурных связей, которые с древних времен стали еще более интенсивными. Автор комментирует историю культурных связей Азербайджана со странами Европы на основефактических материалах.*

## FROM THE HISTORY OF AZERBAIJAN’S CULTURAL RELATIONS WITH EUROPEAN COUNTRIES

***Sayyara Mammadova***

**Key words:** *Azerbaijan, Europe, cultural relations, art, handicraft, carpet-making*

*Written on the basis of historical facts collected from various sources, the article deals with the history Azerbaijan's cultural ties with the countries of Europe and the world.The article comprehensively explores the role of science, art, and some areas of folk art in the development of these ties from ancient times to the present day. The author explains the history of Azerbaijan's cultural relations with European and world countries on the basis of rare materials.*

Təhsil və mədəniyyətin inkişafı hər bir ölkənin həm də beynəlxalq miqyasda tanınmasına, suverenlik əldə etmiş dövlətin müstəqilliyinin möhkəmlənməsinə xidmət edir. Bu baxımdan, indi Azərbaycanda dövlət aparatı, elm, təhsil və mədəniyyət institutları dünya standartlarına uyğun qurulur.

Ölkəmiz tarixən çoxşaxəli, olduqca müxtəlif və yekcins olmayan mədəniyyətlərin qovşağında yerləşdiyindən, siyasi və iqtisadi baxımdan bir çox hallarda basqılarla üzləşmişdir. Ən qədim zamanlardan Azərbaycan əhalisinin mədəniyyəti bir sıra qonşu xalqların mədəniyyəti ilə qarşılıqlı münasibətlərin mövcudluğu şəraitində inkişaf edirdi.

Azərbaycan tarixində beynəlxalq mədəni əlaqələrin inkişafında qədim Albaniya dövləti zamanında mövcud olan sənətkarlıqnümunələrini göstərmək olar.Antik və ilk Orta əsrlərdə Egey və Aralıq dənizi ölkələri xalqlarının mədəniyyəti də alban mədəniyyətinə müəyyən təsir göstərmiş və bu təsirin nəticəsində mədəni əlaqələr genişlənmişdir[1, s.338-352].

IX əsrdən başlayaraq Azərbaycana səyahət etmiş əcnəbi səyyah və coğrafiyaşünaslar burada bəzi antik filosofların əsərlərinin öyrənilməsi və mənimsənilməsindən xəbər verirlər. Bu fakt o dövrdə Azərbaycanda beynəlxalq mədəni əlaqələrin özünəməxsus şəkildə inkişaf etməsini göstərməklə yanaşı, bu əlaqələrin qarşılıqlı olduğunu, Azərbaycan xalqının dünya mədəniyyət xəzinəsinə öz əsərləri ilə elmin sonrakı inkişafında görkəmli rol oynamış bir sıra parlaq alim-ədəbiyyatçı, filosof, hüquqşünas, tarixçi, riyaziyyatçı, astronom, coğrafiyaçı verdiyini də təsdiqləyir [3].

Müxtəlif dövrlərdə Azərbaycan dünyanın hegemon imperiyalarından sayılan sasani, səlcuklu, teymuri və b. dövlətlərin tərkibində olmuşdur. XIII əsrdən başlayaraq monqolların Azərbaycana olan yürüşləri mədəni əlaqələr üçün əsas maneələrdən birinə çevrildi. Ancaq bütün bunlarla yanaşı, dünya incəsənətinin formalaşma prosesini araşdıran alimlər özündə memarlıq, xalq sənətkarlığı, boyakarlıq, xalçaçılıq, ədəbiyyat, musiqi və s. sahələri birləşdirən Azərbaycan mədəniyyəti adlı fenomenin yüksək bədii səviyyəyə malik olduğunu dəfələrlə qeyd edirlər. Fikrimizin doğruluğu üçün təkcə bir faktı

göstərək: 1982-ci ildə Moskvada çapdan çıxmış “Xarici ölkələrin incəsənət tarixi” kitabında müəllif XIV əsrdə Teymurilərin hökmranlığı zamanında memarlıq sənətini dünya mədəniyyətinin ən parlaq səhifələrindən biri kimi göstərir və yazır ki, “Teymur öz gənclik şəhəri saydığı Şəhrisəbzın bərpasına xüsusi diqqət yetirirdi və bura daim İran və Azərbaycandan memar və ustaları cəlb edirdi” [4, s.69]. Göründüyü kimi, dövrün memarlığından söhbət açarkən Azərbaycan memarlarının ustalığı xüsusi vurğulanır.

XI-XV əsrlərdə Azərbaycanda diqqəti cəlb edəcək dərəcədə yüksək zövqlə işlənmiş xalq sənəti nümunələri meydana gəlir. Xalq sənətkarlığının bəzi sahələri, məsələn, dulusçuluq, misgərlik, ipəkçilik və s. bir çox sexləri olan böyük emalatxanalar şəklində, əsl mənada digər ölkələrlə mübadilələr edə bilən geniş istehsala çevrilir, sənət əsərləri xarici ölkələrdə şöhrət qazanır. Məhz bu dövrdən etibarən Azərbaycanın elm və mədəniyyət, incəsənət və ədəbiyyat inciləri dünyanın bir çox muzey, kitabxana və şəxsi kolleksiyalarını bəzəyir və onlar bu gün də qorunub saxlanılır. O zamanlar Azərbaycanda bədii parça istehsalı sənayesi yaradılır və burada istehsal olunan nümunələr Venesiya, Genuya şəhərlərində, həmçinin Fransa, Hollandiya, İngiltərə və Rusiyada böyük şöhrət tapır.

Azərbaycan mədəniyyətinin ayrılmaz hissəsi olan xalçaçılıq sənəti də məhz XV əsrin sonları-XVI əsrin əvvəllərində xarici ölkələrlə mədəni mübadilələrdə əhəmiyyətli rol oynamağa başlayır. Azərbaycanın xalça sənəti nəinki Yaxın və Orta Şərq ölkələrinin xalq sənətinə, həmçinin Qərb ölkələrinin incəsənətinə də təsirsiz qalmır. Xalq rəssamı, xalça sənətinin mahir bilicisi Lətif Kərimov bu məsələyə toxunarkən yazırdı ki, “İntibah dövrünün görkəmli Avropa rəssamları öz rəsmlərinə Şirvan xalçalarında geniş istifadə olunan həndəsi naxışları bir bəzək kimi daxil edirdilər. Bu faktdan çıxış edərək demək olar ki, XV əsrdə Azərbaycan və Avropa ərazisində mədəni əlaqələr mövcud idi. Azərbaycan xalçaları o dövrdə Avropada yüksək bədii əhəmiyyət kəsb edən səviyyəli sənət əsərləri kimi qəbul olunurdu” [5, s.122]. Eyni zamanda, bu dövrün naxışlı xalçaları arasında 1530-cu ildə Ərdəbildə Şeyx Şəfi məscidi üçün toxunmuş, hazırda Nyu-Yorkun “Metropoliten” muzeyində saxlanılan və 1539-cu ildə Təbrizdə yenə həmin məscid üçün toxunmuş, hazırda Londonun Viktoriya və Albert muzeyində saxlanılan xalıları xüsusi olaraq qeyd etmək lazımdır[6,72].

XV əsrdən etibarən Şirvanşahlar, Ağqoyunlu dövlətləri ilə Avropa ölkələri arasında diplomatik əlaqələrin qurulması bu ölkələrlə mədəni əlaqələrin sistemli təşkilinə müəyyən imkanlar açsa da, məsələnin vahid dövlət siyasəti çərçivəsində həll oluna biləcəyi hələ ehtimal olaraq qalırdı [7, s.310]. Ancaq, əlbəttə ki, XV əsrdə Azərbaycan dövlətlərinin Venesiya Respublikası, Roma Papalığı, Neapol Krallığı, Polşa-Litva, Avrasiya-Macarıstan, Çexiya, Almaniya dövlətləri, Burqundiya Hersoqluğu, Kipr, Rodos kimi dövlətlərlə yaradılmış

diplomatik əlaqələrinin həm də mədəniyyətlərin inteqrasiyası baxımından müəyyən əhəmiyyəti vardı [7, s.311].

Səfəvilər dövrünü əhatə edən XVI-XVII əsrlərdə ölkələr arasında mədəni əlaqələr bir qədər də ön plana çəkilir. Bu dövrlərdə Azərbaycana səyahət etmiş xarici səyyahların qeydlərində Azərbaycan mədəniyyətinin müxtəlif sahələrinin Avropa məktəbləri ilə inteqrasiyası məsələsi daha da qabarıqdır.

XVII əsrin Avropa səyyahları alman Adam Oleari və E.Kempler, fransız Şarden təəssüratlarında qeyd edirlər ki, ölkə ərazisindəki mədrəsələr bir çox əsas fənlərin, məsələn fəlsəfə, astronomiya, cəbrin tədrisini Avropa tədrisinə uyğun aparır, dərslərin gedişində Aristotel, Evklid, Arximed, Qalileyin əsərlərinə istinad edirlər [2, s.271-278].

Rusiya, Türkiyə və İran dövlətlərinin Azərbaycanın siyasi həyatına müdaxilələri ilə yadda qalan XVIII əsrdə ölkəmizin xarici, o cümlədən Qərbi Avropa ölkələri ilə mədəni əlaqələri pərakəndəhalda olsa da, davam edirdi. Ancaq qeyd etmək lazımdır ki, bu əlaqələr hələ ki, ayrı-ayrı sahələr üzrə yalnız mədəni mübadilələr, iqtibaslar şəklində həyata keçirilirdi.

XIX-XX əsrləri əhatə edən dövrdə Azərbaycanın xarici ölkələrlə mədəni əlaqələri yüksələn xətt üzrə inkişaf etsə də, bu əlaqələrin ardıcıllıq və davamlılığında, əhatəli və dolğun təbliğində hələ də bir sistemsizlik, pərakəndəlik hökm sürürdü. Bəzi hallarda isə ölkənin mədəni həyatına olan maraq xarici dövlətlərin Azərbaycana olan marağına çevrilirdi.

Dünya və Avropanın bədii-estetik və elmi-fəlsəfi fikrinin zənginləşdirilməsində əvəzsiz xidmətləri olan Azərbaycanın bir sıra ictimai-siyasi, dini-fəlsəfi və ədəbi-fəlsəfi fikir cərəyanlarının görkəmli nümayəndələri bəzi hallarda hələ də ölkəmizdə və xaricdə lazımi qədər tanınmır. Əslində isə Azərbaycanın da aid olduğu Şərqin yaradıcı ziyalıları bəşər mədəniyyəti tarixində məxsusi yer tutur. Məşhur şərqşünas Y.E.Bertelsin dediyi kimi, "...əgər IX- XII əsrlər dövrünün Avropa mədəniyyəti tarixində ən dərin tənəzzül dövrü olduğu xatırlanarsa, onda belə bir nəticəyə gəlmək olar ki, məhz Şərq filosoflarının əsərləri Avropa xalqlarını çətin vəziyyətdən çıxarmış və onlara gələcək həyat yolunu göstərmişdir"[8, s.55]. Bu isə odeməkdir ki, dünyanın elm, mədəniyyət və incəsənət tarixində iz qoymuş, yeni məktəblər yaratmış, müxtəlif ölkələrlə mədəni əlaqələrin qurulmasında iştirak etmiş bir çox mütəfəkkirlərimizin həyat və yaradıcılığının dərindən və hərtərəfli öyrənilməsi, onların əsərlərinin çap nüsxələrinin, eləcə də dünya kitabxanalarında saxlanılan əlyazmalarının toplanılması və araşdırılması həm də Azərbaycanın elm və mədəniyyət tarixinin real mənzərəsini yaratmaq baxımından vacibdir.

Orta çağlarda beynəlxalq mədəni əlaqələrin əsas istiqaməti, əlbəttə ki, azərbaycanlı alim və mütəfəkkirlərin xarici (əsasən Şərq) ölkələrin mədəni mühiti ilə yaxınlığı, buradakı mədrəsə və məktəblərdə müəllimlik etməsi və yaradıcı fəaliyyətlərinidavam etdirməsi faktlarıdır. Məşhur azərbaycanlı, sufi

mütəfəkkiri Şihabəddin Sührəverdinin hələ öz dövründə dünyanın əksər ölkələrində tanınması, onun bu ölkələrlə elmi, mədəni əlaqələrinin olması barədə ingilis tədqiqatçısı C.S. Triminqem (J.S. Trimingham) yazırdı: "O böyük bir şeyx-ustad idi və onun həm şagirdləri, həm də "Əvarif əl-məarif" ("Biliklərin töhfələri") əsəri vasitəsilə dövrümüzün bir çox sufi müəllimləri vəcdə gəlib təsirlənmişlər. Dünyanın hər yerindən sufilər onun yanına öyrənməyə gəlirdilər" [2, s.273].

XI əsr Azərbaycan mütəfəkkiri Xətib Təbrizinin məşhur "Kitab əl-kafi fi-l-aruz və-l-Kavafi" risaləsindən çevirmə və iqtibaslar orta əsrlərdən dünyanın və Avropanın məşhur kitabxanalarında saxlanılır. Azərbaycanlı tədqiqatçı Q.Allahverdiyevin yazdığına görə, Avropa alimləri Xətib Təbrizinin yaradıcılığına bir qədər gec-yalnız XIX əsrin əvvəllərində diqqət yetirməyə başlasalar da, adı çəkilən əsərin ədəbiyyat nəzəriyyəsi, poetika, ritorika və stilistika sahəsində əvəzolunmaz mənbə olduğunu daim qeyd etmişlər [9].

Orta əsrlər dövründə bir çox azərbaycanlı mütəfəkkir (onların arasında təbib, filosof, astronom, coğrafiyaçı, ədəbiyyatçı, tarixçi, riyaziyyatçı və s. var idi) dünyanın elmi-ədəbi mühiti ilə birbaşa qarşılıqlı münasibətdə idi. Bu səbəbdən də Azərbaycanda elm və mədəniyyət dövrün görkəmli xadimlərinin timsalında özünəməxsus şəkildə inkişaf edərək mədəni mübadilənin əsas subyektinə çevrilirdi. Tədqiqatçı alim E.Mehrəliyev qeyd edir ki, Xaqani Şirvaninin əmisi Ömər ibn Osman Kafiyyəddinin də yaxından iştirakı və səyləri nəticəsində XII əsrdə yaranmış Şirvan Elmlər Akademiyası Azərbaycan mədəniyyətinin və elminin dünya mədəniyyətinə inteqrasiya olunmasında öz əhəmiyyətli təsirini göstərmişdi. Bu fikrin doğruluğunu 1953-cü ildə Fransanın paytaxtı Parisdə nəşr olunmuş ensiklopediyaların birində XI əsr Şirvan Elmlər Akademiyası haqqında verilmiş məlumat da təsdiq edir. Tədqiqatçı Q.Kəndli-Herisçinin yazdığına görə, burada o dövrdə mövcud olan elmlərdən təbabət, astronomiya, fəlsəfə, poeziya və s. öyrənilmişdir [10, s. 4-5,7].

Eyni inkişaf dinamikasını bu dövrlərdə yaranan musiqi nəzəriyyəsi ilə bağlı olan ədəbiyyata da aid etmək olar. IX-XIII əsrlərdə Azərbaycan mədəniyyətindəki güclü oyanışa təkan verən çiçəklənmənin əks-sədası nəinki türk, islam aləmi, eləcə də Avropanın ən qabaqcıl ölkələri ilə bağlı idi. İki istiqamətdə-musiqi əsərlərinin əbcəd hesabı ilə nota köçürülməsi və musiqinin nəzəri məsələləri ilə əlaqədar yazılan nümunələr dünya və Avropa mədəniyyətinə inteqrasiyanın aparıcı vasitəsinə çevrilirdi. Bu fikri təsdiq etmək üçün Azərbaycanın XIII əsrdə yaşamış görkəmli musiqişünası Səfiyəddin Əbdülmömin ibn Yusif ibn Faxiz Urməvinin əsərlərinin hələ o zamanlardan başlayaraq Qərb ölkələrində tanınmasını və indiyə qədər onun bir çox əlyazmasının London, İstanbul, Sank-Peterburq, Nyu-York şəhərlərinin muzeylərində saxlanılması faktını göstərmək olar. Müəllifin 1252-ci ildə ərəb dilində yazdığı, 15 hissədən ibarət "Kitab-əl Ədvar" əsəri XV əsrdə türk musiqi

nəzəriyyəçisi Şükürullah Əhmədoğlu tərəfindən türk dilinə çevrilmişdir. İngilis alimi Henri Corc Fermerin yazdığına görə bu əsər sonralar fransız dilində də işıq üzü görmüşdü. H.C.Fermer Səfiyyədin Urməvinin bu sahədə demək olar ki, sistemli bir məktəb yaratdığını da xüsusi qeyd edir [11].

1259-cu ildə görkəmli Azərbaycan alimi Xacə Nəsirəddin Məhəmməd Tusinin Yaxın və Orta Şərqin ən məşhur rəsədxanası sayılan Mağara rəsədxanasını yaratması da xaricdən gələn tədqiqatçıların və tələbələrin burada təhsil alıb elmi axtarışlar aparmasına böyük imkanlar açmışdı. Mənbələrin qeyd etdiyinə görə, Mağara rəsədxanası digər ölkələrdə nücum elminin inkişafına həlledici təsir göstərmişdi.

Bu mövzuda aparılmış araşdırmalarda rast gəlinən maraqlı fərziyyələrdən biri də qlobusun ixtirası ilə bağlıdır. Belə ki, o illərdə Mağara rəsədxanasında Nəsirəddin Tusi və Müaviyəddin Ordinin rəhbərliyi altında çalışmış azərbaycanlı mühəndis Kəriməddin Əbubəkr Mahmud oğlu Səlmasinin düzəltdiyi cihazlar arasında içiboş yer kürəsi modeli də varmış. Yəqin ki, üzərində iqlimlərin təsviri verilmiş bu fiqur coğrafi qlobus kimi nəzərdə tutulubmuş. Hər halda bu fikrin doğru olmasını Ptolomeyin geosentrik sistemi daxilində planetlərin hərəkət nəzəriyyəsi barədə fərziyyələrini sonralar Nəsirəddin Tusinin öz əsərlərində (məsələn, "Təhriri-Oqlidis", "Həndəsənin əsasları", "Şəklül-Qita") sübuta yetirməsi əsas verir. Hazırda o cihazlardan biri Almaniyanın Drezden şəhərində saxlanılır. Təəssüf ki, elm aləmində elə hesab edirlər ki, ilk coğrafi qlobusu alman alimi Martin Behaym hazırlamışdır. Ancaq bir daha qeyd edək ki, Azərbaycanın böyük mütəfəkkiri Nəsirəddin Tusinin London, Roma, Paris, Berlin, Vyana, Leypsiq, Drezden, Münhen, İstanbul, Kazan, Sankt-Peterburq şəhərlərinin kitabxana və elmi mərkəzlərinə səpələnmiş çoxlu sayda riyazi, astronomik və coğrafi cədvəlləri, bir sıra əsərləri hələ də öz tədqiqatçılarını gözləyir [12].

Dünyanın digər xalqları ilə mədəni əlaqələrin qurulmasında Azərbaycan ədib və alimlərinin xarici ölkələrə səfərləri də diqqət yetirilәsi məqamlardandır. Əvvəlki dövrlərdə olduğu kimi, XIII-XIV əsrlərdə yaşamış Azərbaycanın sufi poeziyasının görkəmli nümayəndəsi Şeyx Mahmud Şəbüstərinin Yaxın Şərq ölkələrinə səyahəti zamanı qələmə aldığı min beytə yaxın məşhur "Gülşəni-raz" ("Sirr gülşəni") əsəri diqqətlə öyrənilməlidir. Əsər digər xalqların elm və biliklərini əxz etmək, bu xalqlarla əlaqələr yaratmaq baxımından da dəyərli mənbələrdən hesab olunur. Təsadüfi deyil ki, bu fəlsəfi poema XIX əsrdən başlayaraq fars dilində yazılmış orijinalı ilə birlikdə alman, rus, ingilis, fransız və türk dillərində tanınmış mütəfəkkirlərin yazdığı şərhlərlə birlikdə dəfələrlə çapdan çıxmışdır. Poemanın Avropa dillərində olan ilk nəşri isə 1836-cı ildə Vyanada alman dilində,şairin Təbriz yaxınlığında doğulduğu Şəbüstər qəsəbəsinin mənzərəsi və Şeyx Mahmudun məqbərəsinin təsvirləri ilə birlikdə işıq üzü görmüşdür [7, s.313].

Ərəb və fars dillərində yazmış sələflərindən fərqli olaraq, öz əsərlərini həm də azərbaycanca qələmə almış (XIV əsr) Əhməd Qazi Bürhanəddin də Azərbaycanın Avropa ölkələri ilə mədəni əlaqələrinə töhfə vermiş görkəmli şəxslərdən sayıla bilər. Belə ki, Qazi Bürhanəddinin Azərbaycan dilində yazdığı "Divan"ının hələ müəllifin sağlığında xəttat Xəlil ibn-Əhməd tərəfindən köçürüldüyü nüsxə Britaniya muzeyində saxlanılır və çox güman ki, əsərə İngiltərə və digər Avropa ölkələrinin şərqşünasları tərəfindən tez-tez müraciətlər olunur. Bu barədə məlumata coğrafiyaçı alim N.Kərəmovun əsərlərində rast gəlinir[13, s.3].

Azərbaycan və dünya xalqlarının elmi-mədəni əlaqələrinin bir-birinə inteqrasiya olunmasında XIV əsrin sonu-XV əsrin I yarısında yaşamış Azərbaycanın görkəmli coğrafiyaşünas səyyahı, Şərq və Avropa xalqlarının etnoqrafiyası, iqtisadiyyatı, ədəbiyyat və tarixi barədə ensiklopedik bilgilərə malik Əbd ər-Rəşid əl Bakuvinin müstəsna xidmətləri olmuşdur. Təəssüf ki, alimin "Kitab Təlxis əl-əsar və əcaib əl-məlik əl-kəxxar" adlı ümumdünya coğrafiyasını əhatə edən yalnız bir əsəri bizim dövrümüzədək gəlib çıxmışdır. Professor N.Kərəmovun da qeyd etdiyi kimi, alimin səyahətlərinin və elmi bilgilərinin nəticəsi olan bu əsərdə müəllif Şərqin, Avropanın və Rusiyanın şəhərlərinin təsvirinə daha çox yer ayırır. Kitabda Orta Asiya, Hindistan, Şimali Afrika, Volqaboyu, Uralda yerləşən məntəqələrlə bərabər Qərbi Avropanın bəzi xalqları və şəhərləri – məsələn, Roma, Afina, Sevilya, Valensiya, Lissabon və s. barədə müfəssəl məlumatlar verilir.

Növbəti əsrlərdə baş verən bir çox hadisələr Azərbaycan tarixinin əlamətdar səhifələrini təşkil edir. Səfəvilər hakimiyyəti dövrünü əhatə edən XVI-XVII əsrlərdə beynəlxalq-mədəni əlaqələrin dinamikasından xəbər verən hadisələr barədə o dövrün Avropa mərkəzlərində, bir çox Avropa səyyahları və dövlət elçilərinin məlumatlarında bəhs edilir [7, s.315].

Haqqında söhbət gedən bu tarixi dövrdə Azərbaycan əsilli bir sıra qələm sahiblərinin müxtəlif Şərq və Qərb ölkələrinə səyahət edərək, mədəni yaradıcılıq mübadiləsi etmələri haqqında mənbələr də mövcuddur. Məsələn, Səib Təbrizinin Əfqanıstan, ərəb ölkələri, kiçik Asiya və Hindistanda, Tərzi Əfşarın Orta Asiya, İraq, Hindistan, hətta Avropa ölkələrində, Oruc bəy Persidskinin Rusiya,Almaniya, Çexiya və İspaniyada olmaları barədə faktlar sübut edir ki, Səfəvilər dövründə Azərbaycan ədəbiyyatı ilə dünya və Avropa ədəbiyyatlarının inteqrasiyası özünəməxsus şəkildə davam etmişdir.

Səfəvilər dövlətinin səfiri olmuş Oruc bəy Don Juan Persidskinin ədəbi yaradıcılığı Avropa dövləti olan İspaniya ilə sıx bağlı olduğundan, onu xüsusi qeyd etmək lazımdır. 1604-cü ildə İspan intibahının tanınmış nümayəndəsi Servantesin məşhur "Lamançı Don-Kixot" kitabının nəşrinə düz bir il qalmış İspan Krallığının paytaxtı olan Valyadoliddə azərbaycanlı Oruc bəy Bayatın "Don Juan Persidskinin kitabı" adlı əsəri işıq üzü görür. Mütəxəssislərin

qənaətinə görə bu əsər müəllifin öz sağlığında Avropa dillərindən birinə tərcümə olunmuş və tipoqrafiya üsulu ilə çap edilmiş ilk Azərbaycan müəllifinin əsəri sayıla bilər. Əsərdə ruslar, farslar, ispanlar haqqında dəqiq və sərrast deyimlər, onlarıfərqləndirən xüsusiyyətlər ətraflı qələmə alınmışdır. Oruc bəyin İspaniya Krallığında hörmətlə qarşılanması, işıq üzü görmüş kitabı barədə yazılanlar dolayısı ilə həm də Azərbaycanın elm və mədəniyyətinə Avropanın hələ orta əsrlərdə dərin marağından xəbər verir [12].

Ümumiyyətlə, XVI əsr Azərbaycanın Avropa və Asiya ölkələri ilə geniş əlaqələrinin yarandığı bir dövr idi. Bu məsələnin tarixi aspektinə toxunan O.Əfəndiyev yazır: "...XVI əsrdən Azərbaycanla Qərbi Avropa ölkələri arasında sıx ticarət əlaqələri yaranmağa başlayır. Bu əlaqələrin inkişafına təkan verən əsas amil isə Qərb ölkələrinin Azərbaycan ipəyinə xammal kimi böyük ehtiyacı idi. Sənayedə inkişafın ilkin mərhələsində olan Avropa ölkələri ucuz xammala olan ehtiyaclarına görə, o dövrdən başlayaraq, Azərbaycanla ticarət əlaqələrində maraqlı idilər" [15, s.57].

Bu tarixi iqtisadi əlaqələrin yaranması və gələcək inkişafı nəticəsində isə Azərbaycan mədəniyyəti və incəsənəti Avropa alim və sənətşünaslarının tədqiqat obyektinə çevrilir. İndi dünyanın bir sıra elm və tədris mərkəzlərində Azərbaycan mədəniyyətinə dair bir çox sanballı mütəxəssis rəylərinə rast gəlmək olar. Məsələn, vaxtilə ingilis tədqiqatçısı Çarlz Riyo Britaniya Muzeyində saxlanılan türk və fars əlyazmalarının katoloqlarını tərtib edərkən, orada Azərbaycan ədəbiyyatının klassikləri Xaqani, Nizami, Şəms Təbrizi, Həsənoğlu, Əssar Təbrizi, Nəsimi, Xətai, Füzuli haqqında da məlumat vermişdir. Bundan başqa,o, tərtib etdiyi kataloqlarda ilahiyyət, tarix, coğrafiya, dilçilik və s. elmlər haqqında qiymətli əlyazmaları toplu şəklində sistemləşdirmişdi. Üç cilddən və əlavədən ibarət olan bu əsər klassiklərimizin irsini öyrənməklə yanaşı, mədəniyyətimizin ayrı-ayrı sahələrinin ingilis dilli ölkələrdə tədqiq olunmasına ciddi təkan vermişdir[16, s.48; 17, s.384].

Göstərilən fakt Azərbaycan ədəbiyyatına, söz sənətinə qərblilərin verdiyi yüksək qiymət və ədəbiyyatın, mədəni əlaqələrin qurulmasında vacib rolunun olması baxımından da əlamətdardır. Özü də bu maraq təkcə ingilis və fransızlar tərəfindən deyil, həm də 350 illik araşdırma tarixinə malik Azərbaycan-Almaniya ədəbi əlaqələrinin tədqiqinə diqqət göstərən alman xalqının tanınmış simalarının timsalında zaman-zaman reallaşmışdır. Qeyd etmək lazımdır ki, qədim tarixi köklərə malik olan Azərbaycan-Almaniya mədəni əlaqələri XIX əsrdə yeni bir mərhələyə qalxır. 1815-ci ildə alman şərqşünası F.Dits "Kitabi-Dədə Qorqud" eposundan "Basat Təpəgözü öldürdüyü boyu bəyan edir" dastanını öz tərcüməsində nəşr etdirir. Azərbaycan mövzusu görkəmli şərqşünas, tədqiqatçı-qafqazşünas, M.F.Axundzadənin dostu Adolf Berjenin də yaradıcılığında xüsusi yer tutur: o, 1868-ci ildə "Qafqaz və Azərbaycanda məşhur olan şüəranın əşarına məcmuə" kitabını Leypsiqdə alman dilində çap

etdirir. Alman şərqşünası T.Nyöldeke "Kitabi-Dədə Qorqud"un birinci Drezden əlyazma nüsxəsini öz ana dilinə tərcümə etməyə başlamış, lakin işi yarımçıq qoyaraq, əlindəki materiallarını o vaxt Almaniyada tələbə olan, gələcəyin görkəmli rus şərqşünası V.V.Bartolda vermişdir.

XVIII-XIX əsrlərdə yaşamış böyük alman şairi İ.V.Höte məşhur "Şərq-Qərb Divanı"nda Nizamiyə ayrıca şeir həsr etmiş, ondan sonra gələn şairlərin sənətin sirlərini məhz Nizamidən öyrəndiklərini söyləmişdi.

Azərbaycan mədəniyyətinin dünyaya inteqrasiyasının maraqlı və əhəmiyyətli hadisələrindən biri də A.A.Bakıxanovun həyat və yaradıcılığının A.Berje, K.Kox, H.Brands və başqa alman şərqşünasları tərəfindən ehtiramla öyrənilməsi, əsərlərinin layiqincə qiymətləndirilməsidir.

Azərbaycan ədəbiyyatının XIX əsrin I yarısındakı görkəmli nümayəndəsi Mirzə Şəfi Vazehin yaradıcılığına alman şairi və tərcüməçisi F.Bodenştedtin göstərdiyi dərin maraq Azərbaycan ədəbiyyatında, mədəniyyətində beynəlxalq əlaqələrinən parlaq nümunələrindən biri kimi diqqəti cəlb edir. Mirzə Şəfi ilk dəfə öz vətənində deyil, Avropada tanınır, onun şeirlərinin çap olunaraq, məşhurlaşmasında isə F.Bodenştedt müstəsna xidmətlər göstərir. Almaniyalı xadim, Vazehin şeirlərinin müəyyən hissəsini 1850-ci ildə Ştutqartda "Minbir gecə" kitabında, tam külliyatını isə 1851-ci ildə Berlində "Mirzə Şəfinin şərqiləri" adı altında ayrıca kitab şəklində nəşr etdirir. Kitab Almaniyada yetərincə təqdir olunur və az keçmədən ingilis, fransız, italyan, norveç, holland, danimarka, polyak, çex, qədim yəhudi dillərinə tərcümə olunur və bütün Avropada sevə-sevə oxunur.

XIX əsrin I yarısında Azərbaycan ədəbiyyatında yeni tipli bədii nəsrin yaradıcılarından olan İsmayıl bəy Qutqaşınlının 1835-ci ildə Varşavada hərbi xidmətdə olarkən fransız dilində nəşr etdirdiyi "Rəşid bəy və Səadət xanım" hekayəsi Azərbaycanın nəşriyyat sahəsində də beynəlxalq əlaqələrinin inkişaf tarixindən xəbər verir.

Burada bir vacib məqama da diqqət yetirmək lazımdır. Bəzən bir xalqın yaratdığı sənət inciləri məlum və yaxud naməlum səbəbdən başqa bir xalqın sərvətinə çevrilir, yarandığı ölkədən deyil, başqa bir ölkədən dünyaya göz açır, pərvəriş tapır və öz möhtəşəmliyi sayəsində vətəninə, mənsub olduğu millətə şöhrət və hörmət gətirir. Məsələn, vaxtilə "Avesta", "Kitabi-Dədə Qorqud" dastanları kimi, Mirzə Şəfi Vazehin, İsmayıl bəy Qutqaşınlının da adı çəkilən əsərləri bu qəbildəndir. Bu dastanlar və müəllif əsərləri Avropada elm aləminə məlum olmuş və geniş tədqiq edilmişdir.

XIX yüzillikdə avropalı sənətkarların Azərbaycan ədəbiyyatını öyrənmələrinin daha bir bariz nümunəsi tanınmış fransız qadın yazarı Jorj Sandın 1843-cü ildə "Koroğlu" dastanını ingilis dilindən fransız dilinə tərcümə etməsidir. J.Sand tərcümənin əvvəlində "Koroğlu" dastanına bir məqalə də həsr edir. Məqalədə Koroğlunu Azərbaycanın milli qəhrəmanı adlandıran müəllif

aşıqların xarakter xüsusiyyətlərini açmağa çalışaraq bildirir ki, xalq aşıqları bədahətən, birnəfəsə şeir qoşub musiqi ilə oxuyan şəxslərdir. Öz məqaləsində J.Sand Koroğlunun atını antik qəhrəman Axillesin atı ilə də müqayisə edir [18, s.316].

Tarixi faktlardan da görünür ki, XIX əsrin ilk illərindən etibarən Azərbaycanda beynəlxalq mədəni əlaqələr artıq şərqyönümlü deyil, daha çox Avropa və rusyönümlü səciyyə daşıyır. Bu dövrdə Avropa və rus mədəniyyəti nümayəndələri Azərbaycan mədəniyyətinə daha çox müraciətlər edir, əsərləri tərcümə edir və onlardan iqtibaslar gətirirlər. Bu hal, xüsusilə, ədəbiyyatda özünü daha qabarıq şəkildə büruzə verir. Yuxarıda göstərilən misallar da bunu təsdiq edir. Göründüyü kimi, azərbaycanlı şair və yazıçıların, dramaturqların dünya və Avropa ədəbiyyatının görkəmli simaları ilə yaradıcılıq əlaqələri, xarici müəlliflərin əsərlərinin Azərbaycan dilinə edilmiş tərcümələri, qabaqcıl mədəni təcrübənin iqtibası və s. bu kimi hallar XIX əsrdən başlayaraq beynəlxalq mədəni əlaqələrin əsas aspektlərinin ədəbiyyatla bağlılığını sübut edir.

## Ədəbiyyat

1. Azərbaycan tarixi. 7 cilddə, I cild. Bakı: Elm, 2007.
2. Azərbaycan tarixi.7 cilddə, II cild. Bakı: Elm, 2007.
3. Vəlixanlı N. IX-XII əsrlər ərəb coğrafiyaşünas - səyyahları Azərbaycan haqqında. Bakı: Elm, 1974.
4. История Азербайджана. Баку: Элм, 1979.
5. Azərbaycan incəsənəti. 5 cilddə. I cild. Bakı: 1949.
6. Azərbaycan incəsənəti. 5 cilddə. III cild. Bakı: 1966.
7. Beynəlxalq mədəni əlaqələr. Bakı: Sabah, 2008.
8. Бертельс Е. Низами. Москва: 1956.
9. Azərbaycan tarixi. 3 cilddə. III cild. Bakı: Elm, 1962.
10. Mehrəliyev E. Şirvan Elmlər Akademiyası. Bakı: 1999.
11. Azərbaycan tarixi. 3 cilddə. II cild. Bakı: Elm, 1960.
12. Rəcəbli Q. Azərbaycan tarixi. Bakı: Elm və Təhsil, 2013.
13. Kərəmov N. Hacı Zeynalabdin Şirvani. Bakı: 1981.
14. Bünyadov Z.M. Azərbaycan Atabəylər dövləti. Bakı: 1985.
15. Эфендиев О.А. К некоторым вопросам внутренней и внешней политики шаха Исмаила I (1502-1524). Баку: 1957.
16. Rieu Ch. Catalogue of the Turkish manuscripts in the British museum. London: 1888.
17. Azərbaycan ədəbiyyatı tarixi. 6 cilddə. III cild. Bakı: Elm, 2009.
18. Fərəcullayeva Elmira. Jorj Sand və Azərbaycan. Bakı, 1997, səh. 316

# GƏNCƏ-QAZAX BÖLGƏSİNİN İLK TUNC DÖVRÜ METAL İSTEHSALI VASİTƏLƏRİ

***Leyla Məmmədqızı Rüstəmova***
***AMEA Arxeologiyavə Etnoqrafiya İnstitutu***
leyla.rustamova84@gmail.com

**Açar sözlər**: *Gəncə-Qazax, soba, qəlib, butə, spektral analiz*

*Əsası Eneolit dövründə qoyulan erkən metallurgiya ilk Tunc dövründə daha da inkişaf etmiş, ərintinin tərkibini dəyişməklə yanaşı, yeni texnoloji üsulların tətbiqi nəticəsində müxtəlif təyinatlı məişət və təsərrüfat alətləri, silahlar, bəzək nümunələri hazırlanmışdı. Gəncə-Qazax bölgəsinin Babadərviş, Menteştəpə, Uzun Rəmə kimi ilk Tunc dövrü abidələrindən metal əşyalarla yanaşı, yerli metallurgiyanın mövcudluğunu göstərən və metal istehsalı ilə bağlı olan soba, kürə, butə, qəlib və digər istehsal vasitələri də aşkar edilib.*

# СРЕДСТВА ПРОИЗВОДСТВА МЕТАЛЛА РАННЕБРОНЗОВОГО ПЕРИОДА ГЯНДЖА-ГАЗАХСКОГОРЕГИОНА

***Лейла Рустамова***

**Ключевые слова**: *Гянджа-Газах, печь, литейная форма, тигель, спектральный анализ*

*В статье нашло отражение средства производства металла, выявленное в Гянджа-Газахском регионе.Средства производства металла представлены печами, литейными формами, тиглями и т.д. Исследованные артефакты археологически выявлены на памятниках Бабадарвиш, Ментештепе и Узун Рама. Проведена типологическая классификация средства производства металла, приведены их аналогии, выявленные на памятниках Кавказа. Спектральный и кристаллографический анализы средства производства металла показывают высокий уровень развития металлургии и металлообработки в Гянджа-Газахском регионе в исследуемый период.*

# MEANS OF METAL PRODUCTION OF THE EARLY BRONZE AGE OF GANJA-GAZAKH REGION

***Leyla Rustamova***

**Keywords:** *Ganja-Gazakh, oven, mould,crucible, spectralanalysis*

*This article presents the study of means of metal production revealed in the Early Bronze Age sites of Ganja-Gazakh region. The means of metal production found belonging to this period are represented by ovens, furnaces, moulds, crucibles and etc. Investigated items were found in Babadarvish, Menteshtepe and Uzun Rama settlements. As well as a typological classification of metal items has been carried out and comparative analyses were conducted with similar analogues found from the Caucasus region. Spectral and crystallographic study researches on metal items indicate the developed dynamics of metallurgy and metalworking in the Ganja-Gazakh region during this period.*

Metaləritmə sobaları 1965-ci ildə Qazax rayonu ərazisində yerləşən II Babadərviş yaşayış yerinin ilk Tunc dövrü təbəqəsindən [1, s.17] aşkar edilib. Onlardan üçü əla,biri isə dağılmış vəziyyətdə olub. Bu dəlillər, ilk növbədə, e.ə. III minillikdə tədqiq edilən bölgədə yerli metaləritmə təsərrüfatının inkişaf səviyyəsini göstərir.

Abidənin tədqiqi zamanı 0,4 m dərinlikdə aşkar edilən birinci metalərimə kürə-sobası armudvari formada olub. Onun ən enli yerinin diametri 1,ön hissəsinin eni 0,6, uzunluğu 0,7 metrdir. Bacası və divarları odun təsirindən qırmızı-kərpici rəng alıb. Kürənin daxili divarlarında kül təbəqəsi və boz rəngdə xırda istehsal tullantılarının (şlak) qalıqları aşkar edilib. Ən iri şlak qalığının çəkisi 54 qramdır. Şlakdan götürülmüş spektral analizinin tərkibində xeyli miqdarda dəmir və alüminium, 0.1 % mərgümüş və mis izləri aşkar edilib: Cu + Al – çox, Mg – çox, Si – çox, Fe - çox, Ni- 0.003.

Birincidən 0,25 m aralıda yerləşənikinci soba oval formalıdır. Onun maksimal diametri 0,7, dərinliyi 0,25 metr olub. Bu sobada da kül təbəqəsinə və kömür hissələrinə rast gəlinib. Sobanın döşəməsinin ortasından keçən və diametri 10 sm olan deşiyin (qanov) bir ucu torpağın üst qatına qədər uzanıb.

Üçüncü sobanın yeraltı hissəsi oval formalı olub, diametri 0,8 x 0,51, dərinliyi isə 0,17 metrdir. İçərisi küllə dolu olansobanın divarları və döşəməsi qırmızı – kərpici rəngdədir. Sobadan 24 sm aralı,diametri 8 sm olan şaquli boruya əsasənmütəxəssislər hesab edir ki, bu deşikdən hava vurmaq üçün istifadə olunub. Sonuncu iki sobada kanal-deşik dəqiq izlənilir (Şəkil1, 1).

Qafqazda e.ə. III minilliyə aid edilən abidələrdə, xüsusilə ixtisaslaşmış metaləritmə sobalarının körüklə təhcizatı, bir qədər şübhə doğursada, Babadərviş yaşayış məskənində metal istehsalının bütün prosesini əks etdirən, yəni mis filizinin əridilməsindən başlayaraq, tunc əşyanın hazırlanmasına qədər olan prosesi əhatə edən qalıqların tapılması bunu təsdiqləyir. Metallurgiya istehsalına dair belə mürəkkəb prosesin mənimsənilməsi əməyin təşkilində köklü dəyişiklik yaratmışdır [1, s.17].

Metaləritmə sobalarında havavurma texnikasından istifadəni təsdiq edən digər dəlillər gildən hazırlanmış körük ucluqlarıdır. Babadərviş yaşayış məskənininilk Tunc dövrü mədəni təbəqəsindən yaxşı yoğrulmuş gildən hazırlanan, uzunluğu 15,5 santimetr olangil körük ucluğutapılmışdır(Şəkil1,3).

İlk Tunc dövrünə aid analoji metaləritmə sobaları və bu sobalarda havavurma texnikasından istifadə edilməsini təsdiq edən körük ucluqları Naxçıvan Muxtar Respublikası ərazisində I və II Kültəpələr[2, şək. 47,5; 3, s.256],Maxta [4, s.68],Cəlilabad rayonu ərazisində I Mişarçayqədim yaşayış yerlərindən, həmçinin,Cənubi Qafqazda-Gürcüstan ərazisində Xızanaat-qora, Amiranis-qora abidəsinin ilk Tunc dövrü təbəqəsindən aşkar edilib. Sonuncu abidənin müvafiq təbəqəsində tədqiq edilən təsərrüfat tikilisində daş tağları olan əritmə sobası və burada döşəmədə yüksək temperaturun əldə edilməsi üçün istifadə edilən xırda doğranmış kömürlər aşkarlanıb. Buradan tapılmış kömürün radiokarbon analizlərinin nəticəsi onun e.ə.2870± 180-ci illərə aid olduğunu göstərib [5, s.114].

Temperaturun yüksəldilməsinə xidmət edən analoji körük ucluqları Göytəpə [6, s.45-48, şək.13, №1186] (Cənubi Azərbaycan), Yanıqtəpə [7], Mişarçay, [1, s.17-19] Qaraköpəktəpə [8, s.57, tab.18]və digər həmdövr abidələrdən də tapılıb (Şəkil 1, 2, 4-7).

Metallurgiyanın formalaşması və inkişafı bu sənətin ixtisaslaşmasının dərinləşməsi və sənətkarlığın texniki bazasının yaranmasından asılı olmuşdur. İstehsalın yeni texniki bazasının yaradılmasında istilik hasil edən xüsusi kürələrin ixtirası mühüm rol oynamışdı. Belə metaləritmə kürələrinin yaradılmasının istehsalın texniki cəhətdən dəyişilməsində və iqtisadi imkanların artmasında böyük əhəmiyyəti vardır. Belə ki, müxtəlif tipli məmulatın hazırlanması texnologiyası kifayət qədər ustalıqla həyata keçirilmişdi.

Metaləritmə sobalarında havavurma texnikasının tətbiqi nəticəsində yüksək hərarətin alınması və tənzimlənməsi qədim "metallurqların" imkanlarını artırmış, xammal yataqlarının dərinliyində yerləşən sulfidli filizlərin əridilməsi üçün şərait yaratmışdı. İstehsalat praktikasında yüksək temperaturun mənimsənilməsi və istilik artıran qurğunun tətbiqi ümumi texniki prosesin tərəqqisinə nail olmaq üçün erkən əkinçilik dövrü cəmiyyətinin həyatında böyük irəliləyiş idi. Nəticədə müxtəlif növ istehsalat sahələrinin, o cümlədən də metallurgiya və metalişləmə sənətkarlığının ixtisaslaşması üçün

texniki şərait yarandı. Artıq ilk əkinçi tayfaların yaşadığı ərazidə metallurgiya istehsalı məmulatı olan tunc əşyalar istehsal olunmağa başladı. Azərbaycan ərazisində aparılan arxeoloji qazıntılardan demək olar ki, bütün tip maddi və məişət, həmçinin silah nümunələri olan əşyalar tapılmaqda davam edir. Tunc məmulatının müxtəlifliyi və kifayət qədər ustalıqla hazırlanması metallurgiyanın inkişaf səviyyəsinin yüksək olduğunu göstərir. Azərbaycan ərazisindəki erkən əkinçi və maldar tayfaların Yaxın Şərq ölkələri ilə sıx əlaqələri də cəmiyyət daxilində inkişafa kömək göstərməklə yanaşı, Eneolit və Tunc dövrü üçün yeni texniki baza əsasında, xüsusi istehsalat sahələrinin ixtisaslaşmasına təkan vermişdi.

Arxeoloji abidələrdə rast gəlinən ilkin metal istehsalı vasitələrindən bir qisminibutələr təşkil edir. Metallurgiya prosesində lazım olan maksimal istilik 1180-1350$^{o}$-yə çatanda, filiz tam maye, qaynama halında olur. Ona görə də əridilmiş tuncun bir yerdən başqa yerə və yaxud sobadan qəlibə tökülməsi üçün xüsusi alətlərdən istifadə olunurdu. Babadərvişdən aşkar olunan və ilkin metallurgiyada bu məqsədlə istifadə edilən qaşıq tipli əşya-butənin iç divarlarında metal ərintisi qalıqlarına rast gəlinib. Bubutəninyaxın analoqu Maxta,Sərkərtəpə [9], Qaraköpəktəpə[10, s.63] (Şəkil 2, 2-5), Cənubi Qafqazda Xizanaant-qora və Qarni [5, s.114] yaşayış yerlərindənməlumdur.

5 №-li Uzun Rəmə kurqanından aşkar olunan butəqırığı abidənin üst örtüyündə saxsı parçalarının içindən tapılıb. Onun gövdədən aşağı hissəsi salamat qalıb. Bu kiçik ölçülü butənin üzərində yüksək hərarətin əlamətləri hiss olunur (Şəkil 2,1). Butənin içərisində qalan metal ərintisi qalığının analizi, onun tərkibində mis izlərinin olduğunu göstərir.

Bölgənin ilk Tunc dövrü arxeoloji abidələrində rast gəlinən erkən metal istehsalı vasitələrindən biri də qəlib formalarıdır. Bu dövrün metallurgiyasının yetkin şəkildə olmasını büruzə verən qəlib formaları müxtəlifliyi ilə diqqəti cəlb edir. Metalın əridilməsi və xüsusi formalarda qəliblərin düzəldilməsi tuncun xüsusiyyətlərinin öyrənilməsi ilə bağlıdır. Tədqiqatlar göstərir ki, artıq e.ə. IV minilliyin başlanğıcında yerli sənətkarlar qəlib formaları hazırlamağa başlamışlar. Belə qəlib formalarına aid nümunələrə dəstəyi boruşəkilli və yastı baltaları misal göstərmək olar.

Babadərvişdə aparılan arxeoloji qazıntılar zamanı abidənin İlk Tunc dövrü təbəqəsindən müxtəlif əşyaların hazırlanması üçün istifadə edilən qəlib nümunəsinin hissələri tapılıb. Bu təknəyəbənzər qəlib nümunəsinin metal istehsalına aid olduğu şübhə doğurmur [5, s.20]. Analoji qəlib formaları Naxçıvan ərazisində Maxta,I və II Kültəpəqədim yaşayış yerlərindən tapılıb [2, şək. 33, 11-14; 3, s.257]. İ.R.Səlimxanov tərəfindən aparılan kimyəvi-spektral analizlərin nəticələri sübut edir ki, I Kültəpədən tapılan əşyanın əsas hissəsini mis, 8,3%-nimərgümüş və digər aşqarlar təşkil edir. Babadərviş əşyasının isə əsası misdən olmaqla, tərkibində0,4% mərgümüşə rast gəlinir [11, s.10]. Bu

tapıntılar qədim yaşayış yerlərində metal istehsalı ilə əlaqədar bütün proseslərin aparıldığının göstəricisi sayıla bilər.

Azərbaycan ərazisində bir neçə abidədə haqqında bəhs edilən dövrə aid müxtəlif formalı gil və daş qəliblərə rast gəlinib [1, s.17-19; 8, s.58; 12, s.49]. Nəticə etibarı ilə qəlibkarlıq artıq bu dövr üçün geniş yayılmış bir üsul olmuşdu. Əldə edilmiş arxeoloji tapıntılardan belə bir qənaətə gəlmək olur ki, ilk Tunc dövründə metallurgiya yüksək inkişaf səviyyəsinə çatıb. Mürəkkəb tökmə üsulunun meydana gəlməsi qədim metallurgiyanın nəzərə çarpacaq qədər inkişafına və təsərrüfatın tərəqqisinə gətirib çıxarıb. Q.Çayld belə hesab edir ki, bu cür inkişafa malik olan bölgə ilkin olaraq Şərqi Fərat ərazisi olub [13, s.64]. Əgər müqayisə aparsaq, görərik ki, metal emalında soyuq döymə üsulundan qəlib üsuluna keçmək, süni qarışıq olan tunc (arsenli-mis) ərintisi əldə etmək o dövr üçün metallurgiyanın inkişafında çox böyük sıçrayış hesab edilir.

Şübhəsiz, qəlib formalarının e.ə. III minilliyin başlanğıcına aid yaşayış məskənlərindən tapılması qəlibçi mütəxəssislərin filiz yataqlarından uzaqda işlədiklərini, daha doğrusu, metal istehsalında bir neçə ayrı-ayrı sahənin formalaşdığını, dağ-mədən işinin metal emalından ayrıldığını göstərir. Söz yox ki, tunc əşyaların çoxu daş və ya gil qəliblərdə tökmə üsulu ilə hazırlanır və qəlibdən çıxarıldıqdan sonra, əlavə olaraq döymə üsulu ilə təkmilləşdirilirdi. Xırda əşyalar əsasən mum modelləri vasitəsilə hazırlanırdı.

Xüsusi nazik-uzun, kanal formalı qəliblərdə tökülərək ehtiyat kimi saxlanılan metal külçələr sonradan əlavə mürəkkəb proseslər aparılmadan müxtəlif əşyaların hazırlanmasında istifadə edilirdi. Əgər iynə və yaxud biz kimi müxtəlif əşyaları hazırlamaq lazım idisə, bu texnoloji cəhətdən çox vaxt aparmırdı. Nümunənin işlək hissəsi müəyyən dərəcədə qızdırılır, döyülərək itiləşdirilir və yuxarı hissəsi təyinatından asılı olaraq ya deşilir və ya müxtəlif formalarda burularaq düzəldilirdi. Bu əməliyyatlar demək olar ki, çox az dərəcədə istilikdən istifadə etməklə aparılırdı. Məhsul hazırlandıqdan sonra yüksək temperaturda qızdırılır və aşağı temperaturda yüngülcə döyülürdü. Nəticədə əmək aləti kifayət qədər möhkəm və davamlı olurdu. Əsasən deşməkməqsədilə istifadə olunan bu əşyalar üçün belə vəziyyət xarakterik idi. Çünki, bu məmulatlar əyilməyə qarşı xüsusi davamlı idi. Məhsulun texnoloji cəhətdən belə yüksək məharətlə hazırlanması ustaların peşəkar olmasını təsdiq edir. Əgər məhsul son mərhələdə yenidən qızdırılsaydı, o yumşalar və iş zamanı, xüsusən də qalın dəri məmulatı emalı zamanı əyilə bilərdi.

Mütəxəssislər hesab edir ki, qəlib formalarının aşkarlanmasını nəzərə almasaq belə, Cənubi Qafqazda metallurgiya sənayesinin yüksək səviyyədə inkişafını yaşayış yerlərindən və qəbir abidələrindən aşkar edilmiş xeyli sayda müxtəlif təyinatlı metal məmulatı da sübut edir. Belə ki, bu metal nümunələrinin əksəriyyəti mərgümüşlütuncdan və eləcə də qızıldan, gümüşdən

və qurğuşundan hazırlanıb. E.ə. III minilliyə aid ilk Tunc dövrü Kür-Araz mədəniyyəti abidələrindən aşkar olunan metal istehsalı məmulatı Qafqazda metallurgiya sənətinin növbəti inkişaf mərhələsində daha geniş arealda yayıldığını bir daha təsdiqləyir.

E.ə. III minilliyin sonu – II minilliyin əvvəlində əldə edilmiş bütün bu nailiyyətlərə əsasən daha mürəkkəb mis əsaslı ərintilərdən istifadə edilməyə başlandı. İlk ərintilərə xas olan mərgümüşdən başqa digər elementlərlə də rastlaşırıq: qalay-sürmə, qalay-qurğuşun, qalay-sürmə-qurğuşun və s. Bu baxımdan, həmin mərhələdə tədricən qalaylı və sürməli-mərgümüşlü tunc geniş yayılmağa başlayır. E.ə. III minilliyin başlanğıcında və ortasında aşkar edilən metal əşyaların tərkibində mərgümüşdən başqa nadir hallarda təsadüf olunan, süni qarışıq hesab edilən, qurğuşunlu, sinkli və digər tərkibli ərintilərə də rast gəlmək olur.

Tədqiqatlar göstərir ki, e.ə. III minilliyin başlanğıcı Gəncə-Qazax bölgəsinin metallurgiya sahəsində çiçəklənmə dövrü olmuşdur. Məhz metal istehsalında ərimə üsulunun döymə üsulunu əvəz etməsi, misin əridilərək qəliblərə tökülməsi, oksidləşmiş filizin kömürlə qızdırılaraq ərinti halına gətirilməsi buna sübutdur. Bu dövrdə təbii misdən məhdud sayda istifadə etməklə hazırlanan primitiv əşyalar dövrü artıq geridə qalmışdı.

Bununla bərabər, metallurgiyanın yüksək dərəcədə inkişafı təsərrüfatın digər sahələrini də əvvəlkilərdən kəskin surətdə fərqləndirir. Metallurgiyanın meydana çıxması tayfalararası mübadiləni daha da canlandırır. Əşyalar geniş ərazilərə yayılır və tez-tez rast gəlinən nümunələrə çevrilir. Həmin əşyalar ilk dəfə istehsal olunduğu ərazidə kütləvi istehsal üçün etalon rolunu oynayır. Güman etmək olar ki, Ön Asiya ölkələrindən bölgəyə hazır məhsullar gətirilir, yerli mütəxəssislər tərəfindən onun forması götürülürdü. Xüsusən, deşikli baltalar, nizələr, süngülər və bir neçə tip bəzək əşyalarınınməhz bu yolla istehsal edildiyi güman edilir. Tədqiqatçılar hesab edir ki, Cənub Qafqazda metaldan hazırlanmış müxtəlif tip əmək alətləri, silahlar, bəzək əşyalarının bir qisminin Ön Asiya nümunələrinin təsiri altında yaranmasına baxmayaraq, onlar yüzilliklər boyu həm görünüş etibarı ilə dəyişmiş, həm də təkmilləşmişlər [5, s.136] .

Əkinçiliyin və maldarlığın təsərrüfat həyatında aparıcı yer tutması, məişət-təsərrüfat tələbatının mürəkkəbləşməsi və Ön Asiya mədəniyyəti ilə sıx əlaqələrin olması, yerli Eneolit metallurgiyasının inkişaf prosesinə zəmin yaratdı. Cənubi Qafqaz və eləcə də Azərbaycan ərazisində istifadəsiz qalmış və üzəri oksidləşmiş filizlə zəngin olan mis yataqları erkən metallurgiyanın xammal bazası olmuşdu [14, s.16].

Tədqiqatçılar hesab edir ki, ilk Tunc dövrünün başlanğıc mərhələsində hər bir yaşayış məskənində özünəməxsus metallurgiya mərkəzi mövcud olmuşdur. Amma belə müstəqil sahə sənətkara ancaq öz yaşadığı məkanı təmin etməyə

imkan verir. İlk metallurgiya ocaqları kiçik həcmli olduğu üçün qonşu yaşayış məkanlarını öz hazırladığı məmulatla təmin edə bilməzdi və geniş əhatə dairəsinin olması mümkünsüzdür.Ən çoxu onlar bir-biri ilə hazırladıqları məmulatı dəyişə bilər və ya istehsal texnologiyasını bir-birinə öyrədə bilərdilər. Azərbaycan ərazisində metallurgiya sənayesi ilk Tunc dövrü mərhələsində dövrünə görə özünün ən yüksək pilləsinə qədər inkişaf etmiş, e.ə. III minilliyin II yarısında Kür–Araz mədəniyyəti özünün son mərhələsinə çatmışdır. Ola bilsin ki, məhz bu mərhələdə ixtisaslaşmış istehsalata nail olunmuşdur [14, s.16].

Texnoloji proseslərin mürəkkəbləşməsi nəticəsində metal emalı sənəti sözsüz ki, yüksək professionallıq tələb edirdi. İstehsal edilmiş məmulatın çeşidinin əhəmiyyətli dərəcədə genişlənməsi yeni şəkildə əmək alətləri, hərbi sursatlar, ev üçün məişət əşyaları, bəzək əşyaları və s. ilk Tunc dövrünün abidələrindən xeyli miqdarda aşkar edilmişdir. Mütəxəssislərin fikrinə görə, borulu və yastı baltalar, bıçaq-xəncər tiyəsi, spiralvari qolbaqlar və digər əşyalar yerli metal istehsalı məmulatıdır [5, s.121-126]. Bunu onların ərintisinin xarakteri əsaslı surətdə sübut edir. İ.R.Səlimxanov və E.H. Çernıx apardıqları spektral analizlərin nəticələrindən bu qənaətə gəlmişlər ki, Kür-Araz abidələrindən tapılmış adı çəkilən tunc əşyalar Cənubi Qafqazda süni metaldan, yəni əsası mis olmaqla,mərgümüş qarışığındanhazırlanmışdır [11; 15].

E.ə. III minilliyin II yarısında qədim metal istehsalının intensiv inkişafı onun təşkilati strukturunda dəyişikliklərlə xarakterizə olunur. Daha mürəkkəb və müxtəlif təyinatlı metal məmulatı düzəltmək üçün yüksək səviyyədə ixtisaslaşmanın tələb olunması metallurgiyanın mərkəzdənqaçma xüsusiyyətlərinin itirilməsi ilə nəticələnir. Metal məmulatına artan tələbatı ödəmək üçün öz xüsusiyyətlərini itirərək kiçik istehsal ocaqları böyüməyə başlayır. Nəticədə istehsalçılar birləşərək iri istehsal mərkəzləri yaradırlar. Ehtimal olunur ki, e.ə. III minilliyin II yarısında Cənubi Qafqaz ərazisində geniş imkanlara malik olan iri metal istehsalı mərkəzləri yaranmışdı [16].

Azərbaycan ərazisində metallurgiya, filizçıxarma və metal istehsalı sahələri olaraq 2 qola ayrılmışdı. Mədənçıxarma sənayesi metal istehsalından ayrıldı və müstəqil inkişaf etməyə başladı. Sosial əhəmiyyətinə görə ayrılmış mərkəzlər kifayət qədər böyük olmuşdu. İstisna deyil ki, ayrılmış metal istehsalı və mədən çıxarma mərkəzləri sosial-iqtisadi cəhətdən güclü olan tayfa birliklərinə məxsus idi [14, s.16].

Gəncə-Qazax bölgəsinin metallurgiya və metal istehsalının erkən mərhələlərinə aid edilən faktlara əsasən demək olar ki, e. ə. IV-III minilliklərdə bu ərazilərdə xammal filizinin əldə edilməsindən, ilkin emalından və metal əşyaların-əmək alətləri, silah və bəzək əşyalarının hazırlanmasına qədər bir mürəkkəb proses davam etmişdi. Əldə olunmuş maddi mədəniyyət nümunələrinin təhlili göstərir ki, Azərbaycanda ilk Tunc dövrü metallurgiyası Qədim

Şərq ölkələri ilə əlaqəli şəkildə tərəqqi etmişdi. Aşkar edilmiş nümunələr həmin dövrdə tayfalararası mübadilədə metal əşyaların, xüsusilə də yarımfabrikatların istifadə edildiyini təsdiqləyir. Azərbaycan ərazisində metallurgiya və metalişmənin yerli zəmində formalaşıb inkişaf etməsinə baxmayaraq, Şərq ölkələrinin nailiyyətlərindən də istifadə edilmişdi. Azərbaycan ərazisi Cənubi Qafqaz və Şərq ölkələrini xammal və hazır metal məmulatı ilə təmin edən başlıca istehsal mərkəzlərindən biri olmuşdur.

Arxeoloji tədqiqatlardan əldə edilmiş metallurgiya və metal istehsalı məmulatı və istehsal vasitələrinin təhlili göstərir ki, məhz ilk Tunc dövründə metallurgiya və metal emalı böyük texniki irəliləyişə nail olmaqla, nəinki xarakterini dəyişdi, həm də yeni inkişaf səviyyəsinə çatdı.

## ƏDƏBİYYAT


1. Махмудов Ф.Р., Мунчаев Р.М., Нариманов И.Г. К древней металлургии Кавказа // СА, М.: 1968, № 4, с. 16-26.
2. Сеидов А.Г. Памятникикуро-аракскойкультурыНахичевани. Баку, 1983.
3. Seyidov A.Q. Naxçıvan e.ə. VII-II minilliklərdə. Bakı: Elm, 2003, 338 s.
4. Aşurov S.H., Baxşəliyev V.B, Hüseynova S.A., Əliyeva F.A., Əliyev O.K. I Maxta qədim yaşayış yerində 2010-cu il qazıntıları // Azərbaycanda arxeoloji tədqiqatlar 2010. Bakı: 2011, s. 65-69.
5. Кушнарева К.Х., Чубинишвили Т.Н. Древние культуры Южного Кавказа. Ленинград: Наука, 1970, 191 с., с илл.
6. Brown T.B. ExcavationsinAzerbaijan. 1948, John Murray, Albemarle Street, W. XIV, London: 1951, 279 p.
7. Burney C.A. Excavations at JanikTepe. (NorthWest Iran) Iraq, 1961, vol XXIV, 63, pp. 2-134.
8. Исмаилзаде Г.С. Азербайджан в системе раннебронзовой культурной общности Кавказа. Баку: 2008, 304 с.
9. Гасанова А.М. История познания и использования цинка и латуни. Баку: Элм, 2002, 198 с.
10. Исмаилов Г.С. Археологическое исследование древнего поселения Баба-Дервиш. Баку: Элм, 1978, 102 с.
11. Селимханов И.Р. Историко-химические и аналитические исследования древних предметов из медных сплавов. Баку: Издательство АН Азербайджанской ССР, 1960, 183 с.
12. Мусаев Д.Л. Серкертепе- поселения эпохи ранней бронзы. Баку: “Nafta-Press”, 2006, 173 с.

13. Чайлд Г. Древнейший Восток в свете новых раскопок. М.: ИНЛ, 1956, 383 с.

14. Исмаилов Г.С. Этапы развития древнейшей металлургии и металлообрабатывающего производства на территории Азербайджана // КСИА, 192, М.1987, с. 14-18.

15. Черных Е.Н. Металлургические провинции и периодизация эпохи раннего металла на территории СССР // СА., № 4, 1978, с.53-82.

16. Джапаридзе О. К истории грузинских племен на ранней стадии медно-бронзовой культуры. Тбилиси: 1961, 144 с



1

*İlk Tunc dövrü metaləritmə sobası. Babadərviş (Махмудов Ф.Р., Мунчаев Р.М., Нариманов, 1968).*



**234567**

**Şəkil 1.** *Gil körük ucluqları. 2-Yanıqtəpə, 3- Babadərviş, 4-Mişarçay, 5, 6-Qaraköpəktəpə, 7-I Kültəpə*



2 1



3



4



5

**Şəkil 2.** *İlk Tunc dövrü qəlib formaları və butələr.1-Uzun Rəmə, 2-5Qaraköpəktəpə.*

**TARİX, İNSAN VƏ CƏMİYYƏT-2020, 1 (28), s.111-122**

# ORTA ƏSRLƏRDƏ MONQOLLARIN HƏRB SƏNƏTİ VƏ İSTİLA TAKTİKASI

*(Monqolustanda apardığım araşdırmalarım əsasında)*

***Abbas Qadir oğlu Seyidov***
***Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)***
abbas.seyidov@gmail.com

**Açar sözlər:***Çingiz xan, Monqol imperiyası, döyüş taktikası, hərb sənəti, orta əsrlər*

*Məqalədə monqol döyüşçülərinin hərb sənəti və döyüş taktikası Çingiz xanın dünyanın ən geniş vahid əraziyə malik Böyük Monqol imperiyasını qurması üçün şərait yaradan əsas faktorlar kimi araşdırılır. Həmçinin, sayı az olan monqolların 50-dən artıq xalqın yaşadığı 24 milyon kvadrat kilometrlik ərazidə hakimiyyətlərini hansı üsullarla 400 ildən artıq qorumağı bacarması məsələsi də müzakirə olunur.*

## ВОЕННОЕ ИСКУССТВО И ЗАВОЕВАТЕЛЬНАЯ ТАКТИКА МОНГОЛОВ В СРЕДНИХ ВЕКАХ

*(наосновеличныхисследований в Монголии)*

***Аббас Сеидов***

**Ключевые слова**: *Чингисхан, Монгольская империя, военноеискусство, завоевательная тактика, средние века*

*В статье рассматриваются военное искусство и боевая тактика монголов как базовые факторы, позволившие Чингисхану создать крупнейшую по площади единую державу – Монгольскую империю. Также обсуждается вопрос сохранения власти немногочисленными монголами на протяжении более 400 лет на завоеванных территориях площадью 24 миллионакв. км., где проживали свыше 50 народов.*

# THE MEDIEVAL MILITARY ART AND CONQUEST TACTICS OF MONGOLS

*(based on own research in Mongolia)*

***Abbas Seyidov***

**Keywords:***Genghis Khan, Mongol Empire, military art, conquest tactics, Middle Ages*

*The military art and combat tactics of the Mongols are investigated in this article as the basic factors that allowed Genghis Khan to create the Mongol Empire, the largest unified empire. The issue, how the Mongols with small population managed to maintain power for more than 400 years in the conquered territories of 24 million sq. km., wherein over 50 nations lived, is also discussed.*

Dünya yaranandan bəri yer üzü makedoniyalı Aleksandr, Sezar, Çingiz xan, Əmir Teymur, Şah İsmayıl, Sultan Mehmet Fateh, Süleyman Qanuni, Napoleon və digərləri kimi böyük sərkərdələrə və onlarınyaratdıqları nəhəng imperiyalara şahidlik edib. Hər birinin məqsədi fəth və hakimiyyət olsa da, hamısı işin əsasında qanlar axıtsa da, onların işğal etdikləriərazilərin iqtisadiyyatına və mədəniyyətinə qatqıları fərqli idi. Aleksandr kimi sərkərdə öz ölkəsinin mədəniyyətini tabe etdiyiərazilərə yayırdı. Sezar kimiləri elmi ön plana çəkərək, çoxsaylı islahatlar sayəsində dövlətini, həmçinin dolayısı ilə, müstəmləkələri irəli aparırdı. Teymur da ayaq basdığı bütün torpaqlardan elm və incəsənət adamlarını paytaxt Səmərqəndə köçürürdü [1, s.70]. Lakin, bəzi sərkərdələr də var idi ki, onların dahiliyi döyüş sənətindən kənara çıxmayıb, yaxuddaçıxmağa macal tapmayıb. Çingiz xanın bu kateqoriyalardan hansına aid olduğuna dair mütəfəkkirlər arasında fikir ayrılıqları mövcuddur. Xüsusən də son dövrlərdədünyada humanizm prinsipləri təkmilləşdikcə, Monqol imperiyasına qarşı mənfi təsirləri ön plana çıxaranlar artmaqdadır.

Araşdırmalar göstərir ki, böyük sərkərdələrin yaratdıqları dövlətlər əksər hallarda özlərindən sonra dağılırdı. Məsələn, Böyük Aleksandrın, Əmir Teymurun ölümü ilə imperiyaları parçalandı. Lakin, Monqol imperiyası 428 il (1206-cı ildən sonuncu monqol hökmdarıLigden xanın1634-cü ildə vəfatına-dək) necə mövcudluğunu qoruya bildi? Necə oldu ki, monqollar tarixin ən geniş vahid əraziyə malik imperiyasını[2, s.4375]yüzilliklər boyu qoruya bildilər?

Monqol tayfaları XII əsrdə Kulun-Bugir gölündən Altay dağlarına, şimalda Baykal gölünə, cənubda Böyük Çin səddinə yaxın geniş ərazidəya-şayırdılar. Aparılan genetik araşdırmalarladamüəyyən olunub ki, müasir

Monqolustan və Sibir sakinlərinin Avrasiyanın qərbinə qədər yaşayanmonqol və türkdillilərlə qeyri-adi dərəcədə yüksək uzun xromosom traktıvardır [3]. Monqollar əsasən maldarlıq və ovçuluqla məşğul olurdular. Onların çoxlu at ilxıları, qoyun sürüləri və qaramal naxırları var idi. Elə günümüzdə olduğu kimi: 2018-ci ilin məlumatına görə, Monqolustanda mal-qaranın sayı təxminən 66,5 milyondur[4].Mənbələrdə göstərilir ki, Çingiz xanın yüksəlişi dövründə baş vermiş iqlim dəyişikliyi otlaqların çoxalmasına və at sayının artmasına şərait yaradıb [2, s.4375]. Bu isə, öz növbəsində,orduda süvarilərin sayını rahatlıqla artırmağa imkan verirdi.

Onon çayı sahilində 16 aprel 1206-cı ildə toplanan monqol noyonlarının qurultayıTemuçini(1206-1227) monqol tayfalarının – göy qurdların böyük xanı (xaqanı) elan etdikdə, o, adət üzrə adını dəyişir [5, s.11]. Temuçin(türkcə*temir* – dəmir;*çin* və ya *çi* – şəxsin peşəsini bildirən şəkilçi) artıq yeni – Çingiz xan adı ilə tanınmağa başlayır(türkcə *tengiz* – dərya, dəniz; *xan* – hökmdar mənasını verən *xaqan, kağan* sözlərinin qısaldılmış formasıdır).“Çinq” sözü monqol dilində “qüvvət”, “güc” mənasında da işlədilir[6, s.284]. L.N. Qumilyov yazır ki: “...monqollar boz qurdu və maralı...,türklər isə hun şahzadəsini və dişi canavarı öz əcdadları sayırdılar [7, s.30].

İlk beş xanın dövründə Çingizxan imperiyası çox geniş ərazilərə malik olub. Çingiz xan və Ugedeydən sonra böyük xan taxtına ardıcıl olaraq Çingizin nəvəsi Göyük xan (1246-1248), Münkə xan (1251-1258) və Xubilay xan (1260-1294) seçilmişlər (Çingiz xanın kiçik oğlu Tuluy xaqan seçilməsə də, 1241-1246-cı illərdə monqol imperiyasını idarə etmişdi). Bunların dövründə imperiyanın ərazisi 50-dən artıq xalqın yaşadığı 24 milyonkm$^2$ sahəni əhatə edir ki, bu da Sibirdən cənub-şərqi Asiyaya, Koreya yarımadasından Bolqarıstana qədər olan ərazi idi. Bu dövrdə imperiyanın tərkibinə Çin-Yuan imperiyası, Qızıl Orda, Hülakülər və Cığatay dövlətləri daxil idi [8, s.28].

Ugedey xaqanın Qərbə doğru hərbi yürüşlər etmə barədə qərarı1235-ci ildə Böyük qurultayda qəbul edilir. Batı xan (Cuçinin oğlu) başkomandan təyin olunur. Hələ Ugedey xanın dövründə Çinin çox hissəsi işğal olunur. Xubilay xanın zamanında Yapon arxipelaqı istisna olmaqla, demək olar ki, bütün Şərqi Asiya işğal altına düşür. 1264-cü ildə Xubilay xan paytaxtı Qaraqorumdan (türkcə “qara daşlardan ibarət sədd”) Pekinə köçürür və 1271-ci ildə imperiyaya yeni– Yuan adını verir [8, s.33].

Məlumdur ki,XII-XIII əsrlərdə yaşamış monqollara aid məlumatlar onların qəhrəmanlıq dastanlarında qalıb. Monqolların, xüsusilə də hakim ailənin həyatına dair qeydlər xəzinədarlıqda saxlanılırdı. Bunlar 1240-cı ildə Çingizxanın oğlu Ugedey xanın əmri ilə,“Monqolların məxfi tarixi” adı altında bir yerə toplanılır.Lakin onun orijinalı dövrümüzə qədər gəlib çatmayıb. 1247-1318-ci illərdə yaşamış, Qazan xanın, Olcaytu xanın və Əbu-Səidin divan başçısı-vəziri olmuş Fəzlullah Rəşid-əd-din[9] «Cami-ət-təvarix» -- «Tarixlər

toplusu» (Salnamələr məcmuəsi) əsərində çox qiymətli xatirələr yazmışdır. O, monqol tayfaları, onların başçıları, Çingiz xanın 5-ci babasından başlamış, ümumi nəsil şəcərəsi haqqında, Çingiz xanın arvadları, uşaqları, qardaşları, kənizləri, nəvə və nəticələri, onların keçdiyi döyüş yolları haqqında məlumat verir. Rəşid-əd-din əsərində Ugedey xanın "Monqolların məxfi tarixi"ndən daha çox istifadə etmişdir.

Monqol qoşunlarının sayına dair XIII əsrə aidbilgilərin çoxu tarixi mənbələri yazanların eşitdiklərindən, gözə-yarı hesablamalarında nibarətdir. Çünki bu ordunun hərəkəti alışılmayan formatda idi. Belə ki, mobilliyi təmin etmək üçün monqol döyüşçülərinin evləri at arabalarının üzərində qurulurdu [10, s.16]. Bu da ordunun üstünlüklərindən birinə çevrilirdi.Çünki əsgərlərinailələrindən, evlərindən ayrı düşmək kimi problemləri yox idi. Bu evə silahla və çirkli ayaqqabı ilə girilməzdi. Beləliklə, döyüşçülərin ailələri, evləri, içindəki əşyaları və hətta müəyyən təsərrüfatları da səfər boyunca həmişə yanlarında olardı. Elə monqolların böyük fəthlərinin əsasında dayanan əsas amil o idi ki, Çingiz xan iqtidarı bir xalqı bütöv bir orduya çevirməyi bacarmışdı.

Tarixdə iz qoymuş digər böyük orduların belə bir psixoloji rahatlığı yox idi. Müqayisə üçün, Böyük Aleksandr Qanq çayına çatan zaman evə dönmək istəyən döyüşçülərirəliləməkdən imtina edərək, üsyana qalxır [11, s.1949]. Onlarneçə il idi ki, görmədikləri evlərinə dönmək istəyirdilər. Hərçənd, Aleksandr döyüşçülərinə əsir qadınlarla evlənməyə icazə vermişdi [12, s.13].

Monqolların hərəkət edərkən "yeriyən şəhər"ə bənzər ordusunun düşmənlər üzərindəki psixoloji təsiri də böyük olurdu. Eyni zamanda, hiylə məqsədilə qurulmuş əlavə çadırlar, gecələr artıq sayda yandırılan tonqallar da ordunun sayının şişirdilməsinə səbəb olan amillərdən idi. Monqollar ulu babaları hunlardan qalma çox şeyi mənimsəmişdi. Məsələn, uşaqlar qoyunlara minib, quşlara və siçovullara ox atardılar [13, s.118].Təbii ki, 5-6 yaşında olan uşağı ata mindirmək olmazdı. Onlar atdan yıxılıb xəsarət ala bilərdi. Ona görə də, kiçik yaşlarından hərəkət edən heyvanın üstündə oturub, hərəkət edən obyektə ox atan uşaqlar, artıq 12-13 yaşlarında rahatlıqla düşmənisərrast vura bilirdi.Monqol süvariləri sanki atla bütövləşirdilər.

Bu gün müasir dövr araşdırmaçılarının böyük qisminin fikrincə, Çingiz xan 1206-cı ildə dövləti monqol və türk qəbilələrini birləşdirərək yaratmışdı. Rəşid-əd-din 1310-cu ildəqeyd edirdi ki,qədimdə monqollar türk tayfalarından biri idi.Daha sonra,o, belə yazır: "Türklərin böyük hissəsi indi monqol adlandırılır" [14].Hunlar türk xalqlarının ilkin əcdadları olub. Mənbələrdə hunların adına e.ə. 1764-cü ilə aid Çin mənbələrində rast gəlinir [15, s.23]. Böyük Hun imperiyası və hun tayfalarının eramızın əvvəllərində parçalanması nəticədə varis kimi hundilli xalqlar formalaşdı. VI əsrdə yaranan Böyük türk xaqanlığı(420-546) Çin, Sasani və Bizansla rəqabətdə idi.Sonuncular Böyük

türk xaqanlığında yaşayan bütün hundilli xalqları "türk" adlandırmağa başlamışdılar.

Tədqiqatçı Anatoliy Olovinçov "Türklər yoxsa monqollar? Çingiz xan dövrü" adlı kitabında 11 əsaslı dəlil gətirir ki, Çingiz xan imperiyasının dövlət dili türk dili olub. O, buraya Göyük xanın dövlət möhürünü (Vatikandan tapılmış məktub üzərində), xələflərinin məktublarını, Çin kağız pulu "Yuan" üzərində Xubilay xanın möhürünün uyğur şriftləri ilə türk dilində olan yazısını misal gətirir. O, həm də qeyd edir ki, "monqol" adlı xalq əvvəl mövcud olmayıb. Bu terminin siyasi anlam daşıdığını iddia edən tədqiqatçı amerikalıları misal olaraq göstərir.Qeyd edir ki, əhalinin əsası alman, fransız, ispan və başqalarından ibarətdir. Çingiz xan da tayfaları hansısa ümumi bir ad altında birləşdirmək məqsədilə neytral olan "monqol" adını seçmiş ola bilər ("menku" – türkçə "əbədi", "kol" - "ordu") [16].

Azərbaycan ərazisi də müxtəlif fasilələrlə 190 il (1221-1410) monqolların əsarətində qalıb. Onlar Azərbaycana gələndə, ölkə dörd əsrdən artıq Xilafət istilasının nəticələrindən hələ də tam qurtula bilməmişdi.Amma xalq öz ana dilini-- Azərbaycan türkcəsini unutmamışdı. Monqollar yerli əhali ilə təqribən bənzər dili bölüşdüklərini nəzərə alıb, Azərbaycan (türk) dilini dövlət dili kimi ön plana çıxarıblar. Mühüm dövlət sənədləri əhaliyə üç dildə -- ərəb, fars və türk dillərində çatdırılırdı. Bu da tatar (türk)-monqol imperiyasının dilinin türk dili olmasına dair daha bir göstəricidir.Təəssüf ki, Çingiz xanın 1206-cı ilin qurultayında dövləti yaradarkən söylədiyi nitqin bir hissəsi sonradan naməlum şəxslər tərəfindən məqsədli şəkildə "Monqolların məxfi tarixi"ndən silinib [17, s. xı].

Monqolustanda olarkən bir neçə vacib məqamda gördüm ki, bu gün monqollar hakimiyyətə gəlməzdən əvvəlki dövrə özlərinin və babalarının mirası kimi böyük hörmətlə yanaşırlar. Onların mümkün olan yerdə köçəriliyini xatırladan bir çadırı olmalıdır.Ulan-Bator şəhərinin mərkəzində Milli Tarix Muzeyi yerləşir. Muzey bir neçə böyük zaldan ibarətdir. Qədim və orta əsrləri əks etdirən zallar üç tarixi-xronoloji dövrü əhatə edir: birinci zal – Böyük Hun imperatorluğu (e.ə. III-eramızın I əsri), ikinci zal – Göytürk İmperatorluğu (VI-VIII əsrlər) və üçüncü zal – Böyük Monqol imperatorluğu dövrünü (1206-cı ildən 1634-cü ilədək 37-ci – sonuncu monqol xaqanı Ligden xaqanın vəfatınadək olan dövr). Buradan da görünür ki, bu coğrafiyanın qədim dövlətləri türk dövlətləri olub.

Bəzi mənbələrdə şimal türkləri "tatar" adlandırılıb. Tədricən "tatar" sözü "türk" kəlməsi ilə də sinonimləşib. Təbii ki, ayrı-ayrı dövlətlər tabeliyində olan türk xalqlarının soykökünü gizlətmək, onları bir-birindən ayırmaq üçün məqsədli şəkildə bu sinonimləşmənin möhkəmlənməsini təmin ediblər. Məsələn, Azərbaycan xalqının böyük hissəsini təşkil edən türkləri "Azərbaycan

tatarları" və ya "Zaqafqaziyatatarları", Krım türklərini "Krım tatarları", Volqaboyu türkləri "Volqa tatarları" adlandırıblar [18, s.143].

Məlum olduğu kimi, sovetlərin hakimiyyəti illərində bütün türk xalqlarının tarixinə dair izlərin itirilməsi üçün ciddi siyasət aparılıb. Məsələn, sovet rəhbəri İ.V.Stalin (1924-1953) 1938-ci ildə Moskvada keçirilən Azərbaycan Mədəniyyət Ongünlüyündə: «Siz türk deyilsiniz. Siz midiyalıların törəmələrisiniz – siz azərbaycanlılarsınız!» nitqindən sonra, respublikamızda əhalinin əksəriyyətini təşkil Azərbaycan türklərinin adı dəyişildi. Həmin ildən bütün sənədlərdə hər kəsin milli kimliyi və dili müvafiq olaraq, "azərbaycanlı" və "Azərbaycan dili" ilə əvəz olundu [19, s.33]. O illərdəsovet dövrü Monqolustanında da Çingiz xanın adı tarix kitablarından və dərsliklərdən silinmiş, onun haqqında danışmaq qadağan olunmuşdu.Bu da Çingiz xanın milli mənsubiyyətindən irəli gəlirdi. Əsas məsələni "işğalçı" damğası altında gizlədirdilər.

Baxmayaraq ki, Çingiz xan bir çöllük və yüksək mədəniyyətdən uzaq olan tayfanın nümayəndəsi idi, bir sıra böyük addımlar atmışdı.Amerikalı yazıçı və tarixşünas HaroldLambın yazdığı kimi:"Şəhər görməmiş hansısa bir köçəri monqol, dünyanın yarısını idarə edən bir imperiya yaratdı; hansısa bir ovçu və vəhşi heyvanların çobanı üç sivilizasiyanın ordularını manevrdə geridə qoyaraq dağıtdı; yazıdan istifadə edə bilməyən hansısa bir barbar əlli xalq üçün qanunlarməcmuəsihazırladı"[20, s.1099-1110].

Onun hakimiyyətə gələn kimi hazırladığı "Yasa" qanunlar məcmuəsi Konstitusiyaya bərabər tutula bilər. "Yasa" həm də daxili çəkişmələrin yaranma ehtimalının aradan qaldırılmasına köməkçi olurdu. Çingiz xanın Monqol dövləti müxtəlif tayfaları öz ətrafında toplamaqla, günümüzdə effektivliyinə görə aktual olan "Dairənin mərkəzindən idarəetmə" prinsipi ilə yaradılmışdı. Patrisiyalar və plebeylər yox idi, bütün tayfaları bərabər idi.

Bir çox törəməsi olan Çingiz xan, özündən sonra hakimiyyət uğrunda ara müharibələri olmasın deyə, qərar vermişdi ki, onun ölümündən sonra, ancaq ilk və sevimli qadınıBörtə-Fucindən olan nəslinin nümayəndələri taxta çıxa bilər.Bu qərar Çingizdən sonra onilliklər boyunca qüvvədə olub.

XIV əsrin ikinci yarısında Əmir Teymur da bundan yararlanmaq istəmişdi.Səmərqənddə Çingiz xanın nəslindən olan gənci hakim təyin etdirib, özü sadəcə "Əmir" ("komandan") titulu daşıyırdı. Lakin, de-fakto hakimin Teymur olduğu yaxşı məlum idi. O, özünü Çingiz xanın sülaləsindən olduğunu bildirirdi. Praudinin qeyd etdiyi kimi: "Teymur monqol yox, Çağatay ulusundan olan bir türk və dindar müsəlman olsa da, özünü Çingiz xanın varisi kimi görürdü" [21, s.127].

Mənbələrdən görünür ki, Çingiz xanın xüsusi fərmanı ilə xanın siyasəti və iradəsinə zidd olmadıqca, bütün dinlərə və sektalara tolerantlıq və hörmətlə yanaşılırdı [22, s.5]. Ticarət və təsərrüfat ilə məşğul olmayan dini məbədlər və

mülklər vergidən azad edilirdi [23, s.16]. Hərçənd, Monqolustanda XVII əsrə qədər daha çox Tanrıçılıq dini öndə olub. Tanrıçılıq dini İkinci Göytürk imperiyası zamanında da (681-744-cü illər) mövcud idi. O zamandan qalan daş kitabələrdə də bu dinin mövcudluğuna dair işarələr var [7, s.364-380].

Roma İmperiyasının 400 ilə tuta bildiyi ərazidən də artığını monqollar cəmi 25 ilə zəbt etdilər [22, s.1]. Onların idarəetmə baxımdan təcrübələrinin az olmasına baxmayaraq,imperiyanın uzandığı geniş əraziləri yüz illərlə əldə saxlaya bildilər.

Monqolların ümumi sayları da az idi. Elə müasir Monqolustanın əhalisi 2001-ci ildə 2,4 milyon [24], 2018-ci ildə isə cəmi 3,2 milyon [25] təşkil edib. Hesablamalara görə, XX əsrin 70-ci illərinədək sayları heç vaxt 1 milyonu keçməyib.

Şahidi olduğu hadisələri qələmə almış ərəb tarixçisi İbn-əl-Əsir (1160-1234-xü illər) 12 cilddən ibarət "Əl-Kamil fi-t-Tarix" (Mükəmməl tarix) əsərindəmonqolların Azərbaycana yürüşü haqqında belə yazır: "Bu hadisə çox ağır və iyrənc olduğu üçün mən bir neçə il bunu yazmaqdan çəkindim.... Kaş anam məni doğmamış olaydı, yaxud mən bu hadisədən əvvəl ölmüş və tamamilə unudulmuş olaydım...Bunlar bir nəfəri də salamat qoymadılar; arvadları da, kişiləri də, uşaqları da -hamısını öldürdülər. Hamilə arvadların qarnını yarıb, çağalarını da çıxarıb öldürdülər...Bunların dininə gəldikdə, günəş doğarkən ona səcdə edərlər, heç bir şeyi haram saymazlar, bütün dördayaqlı heyvanları, hətta iti, donuzu və qeyrilərini də yeyərlərdi...Anadan olan uşaq atasının kim olduğunu bilməzdi" [26, s.161-162].

Monqlların taktiki gedişlərindən biri də o idi ki, onlar zəbt etdikləri ərazilərin əhalisinin gözünü vəhşilikləri ilə qorxudurdular. Döyüşə bilən əhalini məhv edib, əsasən kəndliləri və qadınları saxlayırdılar. Əhali fikrindən belə keçirmirdi ki, monqollara müqavimət göstərmək olar. İbn əl-Əsirin qeyd etdiyi kimi: "...tatarlardan bir kişi içərisində yüz kişi olan bir həyətə girib, onları bir-bir öldürmüş, heç bir kimsə ona mane olmamışdı. İnsanlar o qədər ruhdan düşmüşdülər ki, özlərini müdafiə etmirdilər..." [26, s.207].

Çingiz xan yaxşı anlayırdı ki,hücum etdiyi ölkələrdə şəhərləri mühasirədə saxlamaq nə qədər çətin və itki ilə başa çatır. Ona görə də o, hücum edəcəyi şəhərə öncədən məktub və ya elçi göndərər, ona təslim və tabe olmağı tələb edərdi. Ona müqavimətsiz təslim olanların çox vaxt azadlıqlarını və canlarını bağışlayar, dirəniş göstərən şəhərlərin isə əhalisinin hamısını qılıncdan keçirərdi. Bu səbəbdən, monqolların "namı"özlərindən öndə yayılır, qonşu bölgələrin əhalisini lərzəyə salardı.

Əsasən, monqol yürüşləribəzi məmləkətlərdə o dövrə təsadüf etmişdi ki, onlardaparçalanma və feodal pərakəndəliyi hökm sürmüş, gücsüz və müqavimətsizqalmışdılar. Monqolların Azərbaycana ilk yürüşü zamanı (1221-1222) Azərbaycan Atabəyləri dövləti tənəzzül dövrünü yaşayırdı. Monqollar

Azərbaycanı tərk edən kimi Xarəzmşah Cəlaləddin Atabəylər dövlətinə son qoydu (1225) və özü Azərbaycanın hakimi oldu. Monqolların ikinci yürüşü zamanı (1231-1239-cu illər) bütün Azərbaycan ərazisi monqol imperiyasının tərkibinə daxil oldu və Hülakü xanın (1256-1265) yürüşünə qədər Arqun ağa adlı bir məmurun idarəçiliyinə keçdi. 1258-1359-cu illərdə monqol Hülakülər, 1359-1410-cu illərdə Cəlairilər Azərbaycanda hakim oldular.

Çingiz xanın qəbrinin bu gün də harada olması çoxlarını maraqlandırır. Fikrimizcə, qəbirin tapılması genetik kodu müəyyən etməklə yanaşı, bir sıra mübahisəli məsələlərə də son qoyacaqdır. Monqolustandaolduğum zaman, eşitdiyimə görə, hələ sağlığında Çingiz xan qeyd edib ki, mənim qəbrimi tapan şəxs mənim yolumla gedəcək və bütün dünyaya hakim olacaqdır.

Yazılanlardan bu nəticəyə gəlirik ki, daxili dövləti möhkəmlədib, bütün istiqamətlərə yönələn monqol qoşunlarısürətli həmlələri, xüsusi hazırlıq və amansızlıqları sayəsində geniş əraziləri əsrlərlə əsarətdə saxlamağa müvəffəq ola biliblər.

## Ədəbiyyat


1. G. Vamberi. Əmir Teymur. Bakı: Elm və Təhsil, 2013.
2. N. Pederson, A.E. Hessl, N. Baatarbileg, K.J. Anchukaitisd & Di N.Cosmo. (2014, 03 25). Pluvials, droughts, the Mongol Empire, and modern Mongolia. Proceedings of the National Academy of Sciences of the United States of America, 111(12), pp. 4375-4379.

   Bu, https://www.pnas.org/content/pnas/111/12/4375.full.pdf mənbədən tapılıb.
3. B. Yunusbayev, M. Metspalu, E. Metspalu, A. Valeev, S. Litvinov, R. Valiev, R.Villems (2015, 04 21). The genetic legacy of the expansion of Turkic-speaking nomads across Eurasia. PLoS genetics, 11(4).

   Bu,https://journals.plos.org/plosgenetics/article?id=10.1371/journal.pgen.1005068 mənbədən tapılıb.
4. Статистикийн Мэдээллийн Нэгдсэн Сан. (2018). Малын Тоо. Үндэсний Статистикийн Хороо. 10 18, 2019 tarixində bu, http://1212.mn/tables.aspx?tbl_id=DT_NSO_1001_021V1&BAG_select_all=0&BAGSingleSelect=_0&TYPE_OF_LIVESTOCK_select_all=0&TYPE_OF_LIVESTOCKSingleSelect=_01&YearY_select_all=0&YearYSingleSelect=_2018&viewtype=table mənbədən tapılıb.
5. A.Q. Seyidov. Azərbaycan XIII-XIV əsrlərdə: Monqol işğalları. Bakı, 2009.
6. Ə.İ. Muxtarova. Türk xalqlarının tarixi. Bakı, 2002.
7. L.N. Qumilyov. Qədim türklər. Bakı, 1993.
8. Национальный Музей Монголии. Ulan-Bator: 2013.

9. Ф. Рашид-ад-дин. Сборник летописей (том 1),Москва-Ленинград, 1952.

10. İslam Tarihi Ansiklopedisi. TurkiyeDiyanetVakfiYayinlari (1994) (Cild 8,) 1994.

11. J.D. Lerner &P.J. Kosmin. (2015, 12 09). The Land of the Elephant Kings: Space, Territory, and Ideology in the Seleucid Empire. The American Historical Review, 120(5). Bu, https://doi.org/10.1093/ahr/120.5.1949 mənbədən tapılıb.

12. E.W. Donald. Alexander the Great and the Logistics of the Macedonian Army. Univ of California Press, 1978.

13. B. Ögəl. Böyük Hun imperiyası (Cild 1). Bakı: Gənclik, 1992.

14. К.-А.- Х.-Ж.-Т. Каримжанулы. Заблуждение, длившееся веками. Almatı: Білім, 2013.

15. Л. Н. Гумилев. Хунны. Москва, 1960.

16. А.Г. Оловинцов.Тюрки или монголы? Эпоха Чингизхана. LEM, 2014.

17. O. Weatherford. The Secret History of the Mongol Queens: How the Daughters of Genghis Khan Rescued His Empire (Edition 1). New-York: Crown Publishers, 2010.

18. Советская историческая энциклопедия (том 14), Москва: Советская энциклопедия, 1973.

19. С. Алиев. Иран: история, экономика, культура. Памяти С. М. Алиева — Москва, ИВ РАН, 2009, с. 33-34.

20. E. Denison Ross. Nomadic Movements in Asia: Lecture IV. — Chinghiz Khan and the Mongols. Journal of the Royal Society of Arts, 1929, 77(4012), pp. 1099–1110.

21. M. Prawdin. The Mongol Empire. Its Rise and Legacy. (Edition 1) Routledge, 2017.

22. S. Safavi-Abbasi, L.B. Brasiliense, R.K. Workman, M.C. Talley, I. Feiz-Erfan, N. Theodore, . . M.C. Preul.The fate of medical knowledge and the neurosciences during the time of Genghis Khan and the Mongolian Empire. Neurosurg. Focus, 23, 2007, 07, p. 1-6.

23. Р. Набиев. Стимулирующая функция налоговой политики Империи Джучидов. Проблемы экономики и юридической практики, № 6, 2013, с. 15-18.

24. Статистикийн Мэдээллийн Нэгдсэн Сан. (2001). Хүн ам. Үндэсний Статистикийн Хороо. 10 18, 2019 tarixində bu http://1212.mn/stat.aspx?LIST_ID=976_L03&year=2001 mənbədən tapılıb.

25. Статистикийн Мэдээллийн Нэгдсэн Сан. (2018). Хүн ам. Үндэсний Статистикийн Хороо. 10 18, 2019 tarixində bu http://1212.mn/stat.aspx?LIST_ID=976_L03&year=2018 mənbədən tapılıb.

26. İ. İbn-əl-Əsir. Əl-Kamil fi-t-Tarix. Bakı: Azərbaycan SSR EA Nəşriyyatı, 1959.




Şəkil 1.Böyük Monqol İmperiyası. (Ulan-Bator Tarix Muzeyi)



Şəkil 2.Monqol döyüşçüsü



Şəkil 3. Çingiz xanın abidəsi önündə

*UOT 94*

# XX ƏSRİN 90-cı İLLƏRİNİN BİRİNCİ YARISINDA AZƏRBAYCAN-RUSİYA MÜNASİBƏTLƏRİ: PROBLEMLƏR VƏ ZİDDİYYƏTLƏR

***P.Ş.Səfərov***
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
*parviz.safarov60@mail.ru*

***Açar sözlər:*** *Azərbaycan, Rusiya, münasibətlər, ziddiyyətlər, problemlər, münaqişələr, siyasi qarşıdurmalar, tarazlaşdırılmış siyasətə keçid*

Məqalədə müəllif XX əsrin 90-cı illərinin birinci yarısında Azərbaycan-Rusiya münasibətlərində baş verən proseslərdən, yaranan ziddiyyətlərdən və anlaşılmazlıqların təbiətindən və səbəblərindən, onların fəsadlarından danışır. Müəllif təəssüflə qeyd edir ki, SSRİ-nin süqutundan sonra özünü onun hüquqi varisi elan etmiş Rusiya imperiya təfəkkürünü yaxın xaric adlandırdığı keçmiş sovet respublikalarına qarşı münasibətlərdə əsas ideoloji və strateji amilə çevirdi. Azərbaycan da özünə qarşı aparılan belə siyasətin burulğanına düşdü. Rusiya inteqrasiya adı altında yaratdığı müxtəlif qurumlara Azərbaycanı zorla daxil etmək istəyirdi. Azərbaycan isə bu qurumlara müstəqilliyi üçün təhlükə kimi baxaraq inadla onlara daxil olmaq istəmirdi. Ona görə də həm Qarabağ cəbhəsində, həm ikitərəfli münasibətlərdə, həm də Rusiyanın ictimai fikrində və kütləvi informasiya vasitələrində açıq-aydın hücumlara məruz qalırdı. 1992-1993-cü illərdə ikitərəfli əlaqələrdəki gərginlik Azərbaycanda hakimiyyət dəyişikliyinə səbəb oldu. Artıq yeni iqtidar bütün sahələrdə fəaliyyət proqramında Rusiya amilini nəzərə almağa məhkum idi.

## АЗЕРБАЙДЖАНО-РОСИЙСКИЕ ОТНОШЕНИЯ В НАЧАЛЕ 90-хгг. XX ВЕКА: ПРОБЛЕМЫ И ПРОТИВОРЕЧИЯ

***П.Ш.Сафаров***

***Ключевые слова***: *Азербайджан, Россия, отношения, противоречия, проблемы, конфликты, политическое противостояние, переход к сбалансированной политике*

В статье речь идет о процессах происходящих в азербайджано-российских отношениях в первой половине 90-х гг. XX века. На первых порах эти отношении были окутаны противоречиями и недоразумениями, о природе и причинах возникновения которых говорится в этой статье. Автор с сожалением отмечает, что после распада СССР Россия,

объявившая себя его правопреемницей, по отношению к бывшим советским республикам, которых она именовала «ближнем зарубежьем», стала проводить стратегическую линию, основанную на имперском мышлении. Азербайджан тут же попал в водоворот этой политики. Россия стала оказывать давление на Азербайджан с целью привлечения его в разные так называемые интеграционные структуры военно-политического характера. Однако Азербайджан рассматривал эти структуры какугрозу для своей независимости, поэтому упорно отказывался участвовать в их работе. Поэтому в двусторонних отношениях и на карабахском фронте создалась напряженная ситуация. Общественное мнение в российских средствах массовой информации было направлено против Азербайджана. Военные поражения на фронте и напряжение возникшее в азербайджано-российских отношениях в 1992-1993 гг. привели к смене власти в Азербайджане в июне 1993 г.Со второй половины 1993 года Азербайджан стал проводить многовекторную внешнюю политику, где учитывалисьиинтересы России.

## AZERBAIJANI-RUSSIAN RELATIONS IN THE EARLY 90'S XX CENTURY: PROBLEMS AND CONTRADICTIONS

***P.Sh.Safarov***

***Keywords***: *Azerbaijan, Russia, relations, contradictions, problems, conflicts, political opposition, transition to balanced policy*

The article deals with the processes taking place in Azerbaijani-Russian relations in the first half of the 90s. XX century. At first, these relations were shrouded in contradictions and misunderstandings, the nature and causes of which are discussed in the article. The author notes with regret that after the collapse of the USSR, Russia, which declared itself to be its successor, in relation to the former Soviet republics, which she called "near foreign", began to pursue a strategic line based on imperial thinking. Azerbaijan immediately fell into the maelstrom of this policy. Russia began to put pressure on Azerbaijan in order to attract it into various so-called integration structures of a military-political nature. However, Azerbaijan considered these structures as a threat to its independence, and therefore stubbornly refused to participate in their work. Therefore, in bilateral relations and in the Karabakh front, a tense situation has arisen. Public opinion in the Russian media was directed against Azerbaijan. Military defeat at the front and the tension that arose in Azerbaijani-Russian relations in 1992-1993. led to the change of power in Azerbaijan in June 1993. New power was doomed to take into account the

Russian factor in the program of actions covering all areas of the life of the state.

SSRİ dağıldıqdan sonra Azərbaycanın yenidən müstəqil olması ilə regiona digər dövlətlərin nüfuz etməsi rəqabəti gücləndirərək yeni şərait yaratdı. Azərbaycan regionda maraqları olan dövlətlər arasında əməkdaşlıq meydanından daha çox rəqabət meydanına çevrildi. Azərbaycan müstəqillik qazanması ilə sərhədləri xeyli daralan, fövqəldövlət rolunu itirən Rusiya böyük ölkə kimi qalmaq səyləri göstərməyə başlayaraq əməkdaşlığa deyil, qarşıdurmaya getdi. Azərbaycanda Moskvanın yerini tutmaq uğrunda mübarizə regionuna dair xarici siyasət konsepsiyaları toqquşan Rusiya ilə Qərb-Türkiyə alyansı və İran arasında kəskinləşdi. Rusiyanın Cənubi Qafqazda yeni reallıqda yeni strategiya yeritməsinin konturları görünmürdü. Onun burada qorumaq istədiyi keçmiş imperiya psixologiyası ağıla və bərqərar olmuş reallığa uyğun deyildi. Azərbaycana münasibətdə Rusiyada yekdil fikir yox idi. Rusiya ənənəvi olaraq Azərbaycana öz strateji mənafe rayonu kimi baxırdı. Müstəqilliyin ilk illərinin təbii çətinliklərindən və hələ SSRİ dövründən miras qalmış, Ermənistanın Azərbaycanın Dağlıq Qarabağ bölgəsinə iddiası nəticəsində iki ölkə arasında baş vermiş və qarşılıqlı toqquşmalara çevrilmiş münaqişədən məharətlə istifadə edən Moskva Azərbaycanı təsir dairəsində saxlamaq üçün Ermənistanı açıq-aşkar dəstəkləyirdi. 1992-ci ilin iyun ayında Moskvada Azərbaycanın səfiri H.Hacızadə ilə görüşən Rusiyanın dövlət katibi G.Burbulis açıq etiraf etmişdir ki, istər fevral ayında Xocalının, istər may ayında Şuşa və Laçının işğalı Rusiyanın hərbi yardımı nəticəsində olmuşdur [1, s.17]. Göründüyü kimi, Rusiya onun üçün həyati əhəmiyyət kəsb edən cənub sərhədlərində iqtisadi cəhətdən digər Cənubi Qafqaz dövlətlərindən güclü olan və qərbpərəst siyasət yeridən müstəqil Azərbaycan dövlətinin mövcudluğunu qəbul edə bilmirdi. Moskva müasir dünya reallığında Azərbaycan dövlətinin formal müstəqilliyini tanısa da, onu zəif, asılı və Rusiyapərəst görmək istəyirdi. Bunun üçün hətta dolayısı təcavüzdən belə çəkinmirdi. 1993-cü ilin oktyabrında Rusiya prezidenti B.Yeltsinin hakimiyyətinə qarşı qiyam qaldırmış Rusiya Ali Sovetinin güllələboran edilməsindən sonra bəzi rus hərbçilərinə elə gəlirdi ki, keçmiş sovet respublikalarında öz mövqelərini möhkəmləndirmək üçün hər cür fəaliyyət sərbəstliyinə malikdirlər [2]. Hətta Londonda çıxış edən RF xarici işlər naziri A.Kozırev "yaxın xaric" adlanan keçmiş sovet respublikalarında sülhü bərqərar etmək üçün əməliyyatlar aparmaq məqsədilə Rusiya ordusuna BMT-nin xüsusi mandatı verilməsi təklifini etmişdir [2].

Rusiya prezidenti B.Yeltsin MDB ölkələri ərazilərində və Latviyada RF-nin, eləcə də qeyd olunan dövlətlərin təhlükəsizliyini təmin etmək, həmçinin yeni silahların və hərbi texnikanın sınaqdan çıxarılması üçün hərbi bazaların yaradılması barədə RF Müdafiə Nazirliyinin təklifini dəstəkləmişdir [3]. Rusiya

Federasiyası Müdafiə Nazirliyi Baş ştabının rəisi Mixail Kolesnikov bildirmişdir ki, MDB və Latviya ərazilərində Rusiya 30 hərbi baza qurmağı planlaşdırır [3].

Rusiya diplomatiyası Azərbaycandan aşağıdakı iddiaların yerinə yetirilməsini tələb edirdi: Azərbaycanın Türkiyə və İranla sərhədlərinin Rusiya və Azərbaycan sərhədçiləri tərəfindən birgə qorunması, erməni-azərbaycanlı münaqişə zonasına MDB bayrağı altında rus sülhməramlı hərbi qüvvələrinin göndərilməsi. Rusiyanın hərbi bazalarını Cənubi Qafqazda yerləşdirməsi Azərbaycandan başqa digər region dövlətlərini də narahat edirdi. İran öz rəsmi mövqeyini açıq bildirməsə də, Türkiyə məsələnin bu cür qoyuluşuna qısqanclıqla yanaşırdı. Ölkənin mətbuat orqanları rus qoşunlarının yenidən Cənubi Qafqaza qayıtmasını Rusiyanın imperialist siyasəti, itirilmiş mövqeləri geri qaytarmaq cəhdi kimi qiymətləndirirdilər. Rusiyanın rəsmi orqanları isə bu ittihamı inkar edərək qoşunların Cənubi Qafqazda yerləşdirilməsini cənub sərhədlərinin möhkəmləndirilməsi ilə izah edirdilər. RF-in Bakıdakı səfiri V.Şoniya bu barədə fikirlərini belə açıqlamışdır: "Türkiyənin kütləvi informasiya vasitələri Rusiyanı imperialist siyasət yürütməkdə günahlandırırlar, əslində isə Türkiyənin özü bu regiona imperialist gözü ilə baxır. Əlbəttə, Rusiyanın Qafqazda marağı vardır və o, regiondakı dövlətlərdə işgüzar əlaqələrini qurmağa çalışır" [4].Bununla da səfir açıq aşkar Qafqaz regionunda Rusiya-Türkiyə qarşıdurmasının olduğunu etiraf etmişdir.

1994-cü il yanvarin 3-də Bakıya gələn Rusiya Federasiyası sərhəd qoşunlarının komandanı A.Nikolayev Azərbaycan-İran və Azərbaycan-Türkiyə sərhədlərinin Rusiya ilə birgə qorunmasını təklif etmişdi. Dövlət başçısı H.Əliyev göstərilən sərhədlərdə heç bir problemin olmadığını, Azərbaycan-Ermənistan sərhədinin Azərbaycan üçün daha təhlükəli olduğunu qeyd edərək, iki ölkə arasında sərhəd probleminin digər məsələlərlə kompleks şəkildə həllinin vacibliyini vurğuladı. Həmin vaxt Bakıya gələn Zaqafqaziyada yerləşən Rusiya qoşunlarının komandanı general F.Reut Gürcüstanda və Ermənistanda yerləşən Rusiya qoşunlarına hərbi yüklərin çatdırılmasına nərarət üçün Bakıda komendantlıq yaradılmasını Azərbaycan rəhbərliyinə təklif etdi. Lakin ölkə rəhbərliyi bu təkliflərin heç birini qəbul etmədi [5, s.76].

90-cı illərin əvvəllərində Azərbaycan faktiki olaraq Rusiyanın informasiya məkanında yerləşirdi. Rusiya televiziyaları Azərbaycanda yayınlanırdı. Rusiya kütləvi informasiya vasitələrində Azərbaycan əleyhinə xəbərlər və şərhlər baş alıb gedirdi. Müxtəlif ictimai formalarda Azərbaycan hücumlara məruz qalırdı.

1994-cü ildə yanvar ayının 29-30-da Moskvada Rus icmalarının konqresində Azərbaycanın rus icmasının nümayəndələri də iştirak etmişlər [6]. Konqresin rəhbəri, tanınmış rus siyasətçisi D.Roqozin hələ 1992-ci ildə Azərbaycanda olmuş, o vaxtkı rəhbərliklə görüşmüş və qeyd etmişdir ki,

Azərbaycanda rusların vəziyyəti digər yeni müstəqil ölkələrdə yaşayan ruslardan qat-qat yaxşıdır [6]. II konqresdə diskussiyalar normal davam etsə də, təşkilat komitəsinin üzvü P.Artyomov adlı birisi öz çıxışında Azərbaycanın rus icmasını saxta adlandırmışdır. 12 nəfərlik Azərbaycan rus icmasının heyətinə rəhbərlik edən M.Zabelin söz alaraq ölkəsindəki rus icmasının çətinliklərinin Qarabağ savaşı ilə əlaqədar olduğunu, Moskvada rus miqrantlarına erməni miqrantlarından fərqli olaraq pis yanaşıldığını qeyd etməsini konqresin bir çox üzvləri dəstəkləmişlər. İ.Zabelinin və konqresin rəyasət heyətinin təkidindən sonra P.Artyomov Azərbaycan rus icmasının nümayəndə heyətindən üzr istəmişdir [6].

80-ci illərinin sonlarında Moskva Azərbaycanı, eləcə də bütün Cənubi Qafqazı əldə saxlamaq üçün uydurma "Dağlıq Qarabağ" problemini qızışdırdı. Rusiyanın kütləvi informasiya vasitələri Qarabağ konfliktini etnoslararası, milli münaqişə kimi qələmə verir. Dağlıq Qarabağın erməni icmasının öz müqəddəratını təyin etmək, Azərbaycandan ayırmaq və hətta Ermənistanla birləşmək uğrunda mübarizə kimi təqdim edirdilər. Hətta bu münaqişəyə xristian-müsəlman qarşıdurması prizmasından baxmağa da cəhdlər olurdu. Akademik R.Mehdiyev qeyd edir ki, "müxtəlif münaqişələrə dini rəng vurulması şəraiti həmişə onların həqiqi səbəblərinin gizlədilməsi üçün sərfəli pərdə olmuşdur" [7, s.184].

Rusiya keçmiş SSRİ ərazisində nüfuz dairəsindən əl çəkmək istəmədiyi və Azərbaycan MDB-yə daxil olmağa məcbur etmək niyyətində olduğu üçün əsas təzyiq vasitəsi olan Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin qarşısını almaqda maraqlı deyildi. Həm də münaqişənin həll olunması istiqamətində dominant rolunu da saxlamaqda təkidli idi. 1992-ci il aprel ayının 13-də Azərbaycan Respublikası Prezidentinin vəzifəsini icra edən Y.Məmmədova göndərdiyi məktubda Rusiyanın xarici işlər naziri A.Kozırev aşağıdakı təkliflərini verirdi: Biz həll sxemini... təxminən belə görürük:

1. Təcrübə göstərir ki, DQ-da effektli atəşkəsə nail olmaq etibarlı nəzarət mexanizmi olmadan mümkün deyildir.

2. Atəşkəs rejiminə nəzarət mexanizmlərini yaratmaq barədə razılaşma aşağıdakıları nəzərdə tuta bilər:

a) Atəşkəs rejiminin qorunmasına nəzarət edən beynəlxalq müşahidəçilər postlarının yaradılması (Rusiya, MDB, ATƏM və BMT-nin hərbçilərindən təşkil olunur)

b) 30 mart 1992-ci ildə Kiyevdə MDB-nin iştirakçı ölkə başçıları tərəfindən imzalanmış "Hərbi müşahidəçi qrupları və MDB-nin sülh yaratma üzrə kollektiv qüvvələri barədə" anlaşmaya əsasən Azərbaycan və Ermənistanın razılığı ilə beynəlxalq, ayırıcı qüvvələrin yerləşdirilməsi, maraqlı tərəflərin razılığına əsasən bu qüvvələrə hər iki tərəfdən ATƏM-in və BMT-nin müşahidəçilərini və ekspertlərini, həmçinin BMT-nin sülhməramlı

əməliyyatlarında işitraketmədə təcrübələri olan ölkələrin (misal üçün, Avstriya, Finlandiya) zabitlərini də cəlb etmək olardı.

3. Nizamlanmanın ikinci mərhələsinə aid danışıqlarda aşağıdakı məsələlər barədə anlaşma əldə edilə bilərdi:

a) Münaqişə rayonunda əhalinin vəziyyətinin normallaşdırılması üçün konfliktin iştirakçılarına Dağlıq Qarabağ ətrafında lazımi tədbirlərin görülməsinə imkan verəcək təhlükəsizlik zonasının yaradılması.

b) Qarabağ konfliktinin nizamlanması barədə Azərbaycanın və Ermənistanın öz üzərlərinə götürdükləri öhdəliklər çərçivəsində Azərbaycanın konstitusiyaquruluşuna uyğun, Dağlıq Qarabağın insan hüquqlarının, milli azlıqların ATƏM və BMT prinsiplərinə uyğun qorunmasını, o cümlədən onun beynəlxalq təminatını təmin edən hüquqi statusunun işlənməsi ilə məşğul olmaq. Təminatçı ölkələr kimi Rusiya, Azərbaycan və Ermənistan çıxış edə bilərlər.İlk addım kimi Rusiyanın xarici işlər naziri Azərbaycanın və DQ əhalisinin nümayəndələrinə onun iştirakı ilə cənub şəhərlərinin birində görüş keçirməsi təklif etmək istəyindədir” [8].

Təbii ki, Dağlıq Qarabağa hərbi nəzarətin birbaşa Rusiya qüvvələrinə keçməsinə, Dağlıq Qarabağ ətrafındakı inzibati rayonların da daxil olduğu böyük bir ərazidə Azərbaycan hökumətinin və konstitusiyasının fəaliyyətini məhdudlaşdıran üzdəniraq təhlükəsizlik zonasının yaradılmasına, nəhayət Azərbaycanın mərkəzində saxlanılan erməni üsul-idarəsinə üstəlik Rusiya və Ermənistanın da ATƏT və BMT çərçivəsində, onların prinsipləri arxasında gizlənərək beynəlxalq qarant almasına Azərbaycan razı ola bilməzdi. Digər tərəfdən, Rusiya tərəfinin nizamlanma çərçivəsində ilk dəfə DQ ətrafında “təhlükəsizlik zolağı” yaratmaq təklifi hansı gələcək təhlükələrdən xəbər verdiyini o dövrün siyasətçiləri anlamalı idilər. Ona görə də təkliflərdə Azərbaycanı qane etməyən müddəaların olmasına baxmayaraq onları həmən rədd etməkdənsə, müzakirələrə getmək, hazırlanan qorxunc planın qarşısını almaq ölkə üçün, Qarabağın taleyi üçün daha səmərəli olardı. Azərbaycanın inadkarlığı 1992-ci ilin mayın 8-də Şuşanın, 18-də isə Laçının işğalı ilə nəticələndi [9, s.403].

Azərbaycan öz ərazisində Rusiya hərbi hissələrinin qalmasının mümkünsüzlüyünü inadla bildirir və keçmiş SSRİ-dən qalma hərbi hissələrin əmlakının ölkənin mülkiyyəti olduğunu bəyan edirdi. 1992-ci ilin aprel ayının 8-də Azərbaycan Respublikası Ali Soveti Milli Məclisinin “Zaqafqaziya sərhəd dairəsinin Azərbaycan Respublikası ərazisində yerləşən hissələri və Xəzər donanması haqqında” qərarında deyilirdi: “RF Prezidentinin fərmanı ilə Zafqaziya sərhəd dairəsinin AR ərazisində yerləşən hissələri və Xəzər donanması RF yurisdiksiyasına keçirilmişdir... AR Prezidentinin 16 oktyabr tarixli fərmanına əsasən AR ərazisində yerləşən bütün hərbi hissələr AR tabeçiliyinə keçirilmiş, AR ərazisində yerləşən sərhəd qoşunlarının hissələrinin

idarə olunması AR Dövlət Sərhəd Mühafizə Komitəsinin ixtiyarına verilmişdir.

Yuxarıda göstərilənləri nəzərə alaraq AR Dövlət sərhədinin başqa dövlətin qoşunları tərəfindən qorunmasını və AR ərazisində yerləşən və respublikanın vəsaiti hesabına yaradılan Xəzər donanmasının başqa dövlət tərəfindən mənimsənilməsini əsas tutaraq Azərbaycan Respublikası Ali Sovetinin Milli Məclisi qərara alır: Zaqafqaziya sərhəd dairəsinin AR ərazisində yerləşən hissələrinin Xəzər donanmasının RF yurisdiksiyasına keçməsi barədə RF Prezidentinin fərmanı AR suverenliyinə zidd akt kimi qiymətləndirilsin və onun Azərbaycan Respublikası ərazisində hüquqi qüvvəsi olmadığı qeyd edilsin.

Zaqafqaziya sərhəd dairəsinin AR ərazisində yerləşən hissələrinin AR ərazisində qalma şərtləri və müddəti barədə RF ilə danışıqlara başlansın. Həmin hissələrin AR yurisdiksiyasına keçməsi məsələsini RF qəbul etməsə, onlar qısa müddətdə respublikanın ərazisindən çıxarılsın” [10, s.50-151]. Ölkə ərazisindən RF hərbi obyektlərinin çıxarılması siyasətini ardıcıllıqla həyata keçirən AR rəhbərliyi Qəbələ radiolokasiya stansiyası barədə də xüsusi qərar qəbul etdi. AR AS MM-nin 5 may 1992-ci il qərarında deyilirdi: “Qəbələ radiolokasiya stansiyasının fəaliyyəti nəticəsində respublikanın iqtisadiyyatına və təbiətinə vurulmuş ziyanın dərəcəsini və həcmini müəyyən etmək üçün AR AS MM-nin komissiyası yaradılsın [11, s.74].

Bu müddətdə Azərbaycan nümayəndələrinin Rusiya rəhbərliyi ilə apardığı danışıqlarda onların Azərbaycanda öz təsir dairələrini saxlamaq arzularına konkret cavab verilməməsi, Azərbaycanın MDB-dən kənar, dövlətlərarası ikitərəfli münasibətlər qurmaq istəyi Azərbaycan Rusiya münasibətlərini çox soyutmuşdur. 1992-ci il iyunun 10-da ARAS MM-in iclasında çıxış edən Azərbaycanın Rusiyadakı səfiri H.Hacızadə Azərbaycan nümayəndə heyətinin RF rəhbər şəxsləri, o cümlədən Dövlət katibi G.Burbulislə danışıqlarına toxunaraq bildirmişdir ki, Rusiya tərəfi bizim qarşımıza üç əsas məsələni qoydu: 1.Sərhədlərin birgə qorunması, 2. Azərbaycandakı rus ordusunun taleyi, 3. Rus dilli əhalinin vəziyyəti. H.Hacızadə qeyd etmişdir ki, G.Burbulis açıq bildirmişdir ki, Qarabağ probleminin həllinin açarı bizdədir. Nə NATO, nə ATƏT, nə də başqa bir dövlətin (məsələn, Türkiyə Cümhuriyyəti) burada vasitəçi kimi iştirakını istəyirik. H.Hacızadə Azərbaycanın öz problemləri ilə tək qaldığını, heç kimin, hətta Türkiyənin də əməli yardım göstərmək iqtidarında olmadığını nəzərə çatdırmışdıq. O, Moskvada Türkiyə prezidenti S.Dəmirəllə görüşdüyünü, S.Dəmirəlin Azərbaycanın MDB-yə girmək istəməməsi barədə RF prezidenti B.Yeltsin narazılıq etdiyini deməsini və təkidlə MDB-yə daxil olmağı məsləhət bilməsini qeyd etmişdir [12, s.2-20].

1991-ci ilin dekabrın 8-də “Brest şəhəri yaxınlığındakı Viskuli iqamətgahında Rusiya, Ukrayna və Belarusun dövlət başçıları “Müstəqil Dövlət

Birliyi"(MDB) yaradılması haqqında müqavilə imzaladılar. "Belovejsk sazişi" adlanan müqavilədə SSRİ-nin artıq bir beynəlxalq hüquq subyekti kimi mövcudluğuna son qoyuldu [13, s.475]. SSRİ-nin süqutundan sonra A.Mütəllibov hakimiyyəti Qarabağ probleminin həllini Azərbaycanın MDB-yə daxil olmasında görürdü. Hətta rəsmi dəvət olmadan 1991-ci il dekabr 21-də Qazaxıstanın paytaxtı Alma-Ataya gedərək MDB dövlət başçılarının zirvə görüşündə iştirak etmiş və Azərbaycan Respublikasının MDB-yə qoşulması barədə müvafiq sənədi imza etmişdir [22, s.69-70]. Müxalifət isə MDB-yə imperiyanı bərpa etmək cəhdi kimi baxırdı. MDB-yə daxil olmaq məsələsi ətrafında gərgin siyasi mübarizə gedirdi. Hadisələrin gedişi göstərdi ki, Azərbaycan mütləq MDB-yə daxil olmalıdır. Belə ki, keçmiş sovet respublikaları ilə iqtisadi əlaqələrin birdən-birə qırılması Azərbaycanı çətin duruma sala bilərdi. MDB-yə daxil olmaqla Azərbaycan dünya siyasətində vacib diplomatik əlaqə vasitəsi əldə etmiş olardı. Lakin müstəqil milli dövlətin təşəkkülünün ilkin mərhələsində sadalanan dəlillər nəzərə alınmadı. Qaraguruhçuluq ağıla üstün gəldi. Onların təzyiqi altında 7 oktyabr 1992-ci ildə AR AS MM belə qərar qəbul etdi: "1991-ci il dekabrın 21-də Alma-Ata şəhərində AR adından imzalanmış MDB haqqında saziş təsdiq edilməsin" [14, s.30]. Nəticədə, Dağlıq Qarabağ probleminin diplomatik yolla həlli variantı kölgədə qoyuldu. Hərbi yola üstünlük verildi. Hərbi yolun tam Azərbaycanın istəyinə uyğun nəticə verəcəyinə Moskvanın imkan verəcəyinə isə ümid o qədər də yox idi. Çünki nizami ordu o səviyyədə və təchizatda deyildi. Diplomatik cəbhədə isə iki ölkə arasında inamsızlıq hökm sürürdü. Lakin RF kimi nəhəng qonşu ilə konstruktiv dialoqun vacibliyini anlayan iqtidar qarşı tərəfə doğru addım ataraq 1992-ci ilin oktyabrında RF-də, Moskva şəhərində və RF-nin Tatarstan Respublikasında –Qazan şəhərində Azərbaycan Respublikasının ticarət nümayəndəliyinin açılması barədə qərar verdi [15, s.10-16].

1992-ci ilin iyun ayında Azərbaycanda hakimiyyətəgəlmiş Ə.Elçibəy hökuməti Rusiya ilə işgüzar münasibətlər yarada bilmədi. Rusiyaya münasibətdə düşünülmüş, ardıcıl siyasət yox idi. 1992-ci il sentyabrın 31-də Bakıya gələn Rusiya Federasiyasının hökumətinin sədri vəzifəsini icra edən Y.Qoyder ölkə rəhbərliyi ilə görüşərkən demişdir: "Rusiya Azərbaycanda iqtisadi əlaqələri heç vaxt respublikaya təzyiq vasitəsi kimi istifadə etməyəcək" [16]. Bu səfəri Rusiyanın Azərbaycanla münasibətləri normallaşdırmaq cəhdi kimi qəbul edən Ə.Elçibəy Rusiya prezidenti B.Yeltsinə göndərdiyi məktubda deyirdi: "Ümid edirəm ki, bu səfər Azərbaycan-Rusiya münasibətlərinin yeni mərhələsinin başlanğıcı olacaqdır" [16].

1992-ci il oktyabrın 12-də Ə.Elçibəy Moskvaya rəsmi səfər etdi [17, s.102]. Səfər zamanı prezident özünü həddindən artıq müstəqil apardı. Hətta B.Yeltsinlə rus dilində danışmaqdan belə imtina etdi. Səfər zamanı müxtəlif məzmunlu sənədlər imzalansa da, Rusiya ilə Azərbaycan arasında anlaşma hələ

yox idi. Tezliklə bu vəziyyət özünü cəbhədə büruzə verdi. 1992-ci ilin noyabrından başlayaraq cəbhənin bütün istiqamətlərində vəziyyət gərginləşdi. Milli Ordunun iyun-sentyabr hərbi kompaniyası nəticəsində qazandığı bütün üstünlüklər 1993-cü ilin mart ayınadək əldən verildi [18, s.147-149]. Rus hərbçilərinin Qarabağda emrənilər tərəfindən döyüşdüyünü artıq Ermənistan və Rusiyanın rəsmi dairələri də gizlətmirdilər. 1993-cü il aprelin 3-də Azərbaycan Respublikasının Kəlbəcər rayonu rus hərbi birləşmələrinin yardımı ilə ermənilər tərəfindən işğal edildi [13, s.486]. Rəsmi Bakı bütün beynəlxalq qurumlara, o cümlədən BMT və ATƏT-ə müraciət edərək işğalçılıq müharibəsinin qarşısını almağı və Ermənistana qarşı sanksiyalar tətbiq edilməsini tələb etdi [19, s.55-102]. Lakin 1993-cü il aprelin 6-da Milli Məclisdə çıxış edən Dövlət müşaviri V.Quluzadə bu gözləntilərin də əbəs olduğunu belə ifadə etdi: "...Nyu-Yorkla kontaktdayam (əlaqədəyəm – P.S.) hər gün və sözün düzü... Təhlükəsizlik Şurasının (BMT-nin – P.S.) tərkibini biz bilirik, yada da sala bilərəm: Rusiyadır, Fransadır, Çindir və s. Deməli, mənim gözlədiyimə görə Ermənistan pislənəcəkdir, ancaq güclü dokument (sənəd – P.S.) əldə olunmayacaqdır. Bunu mənə informasiya kimi veriblər... mənə deyiblər ki, Təhlükəsizlik Şurasından güclü dokument gözləməyin... yəni güclü dokument o deməkdir ki, təcavüzkarın əleyhinə sanksiya qəbul olunsun" [20, s.78]. V.Quluzadə vəziyyətin belə acınacaqlı olduğunu Azərbaycanın xarici siyasəti kursunun tamamilə yanlış, diplomatiyanın zəif olması ilə bağlılığını etiraf etdi: "Hamımız məsələyə dərindən baxanda başa düşürük ki, bizim regionda böyük qüvvələrin böyük oyunları var. Burada Amerikanın perspektiv nöqteyi-nəzərdən, gələcək nöqteyi-nəzərdənmaraqları var. İranın da maraqları var və bunların maraqları heç də bizim maraqlarla üst-üstə düşmür, ona görə də bizim zəif xarici siyasətimiz qatığın ağ olduğunu isbat edə bilmir... [20, s.71]. Bu dörd il içərisində Ermənistan altda-altdan əvvəl kommunist Sovet ittifaqının köməyi ilə, ondan sonra Rusiyanın köməyi ilə həm öz qüvvələrini səfərbərliyə alırdı, həm də razvedka (kəşfiyyat – P.S.) ilə məşğul idi, həm də propaqandasını (təbliğatını – P.S.) təşkil edirdi, biz isə lay-lay ilə yatırdıq ki, hərəkət etməyək... Bütün bu müddətdə ermənilər orada güclənəndə biz sakit otururduq ki, Rusiya bizi müdafiə edəcək, amma sonra elə oldu ki, Azərbaycan istiqlaliyyət yolunu seçdi, Ermənistan Rusiya ilə hərbi bloka daxil oldu..." [20, s.78]. V.Quluzadə iqtidarın vaxtından əvvəl ortaya atdığı birtərəfli qərbpərəst siyasətin iflasa uğradığını dolayısı il etiraf etdi: "...doğrudan da faktiki surətdə Dağlıq Qarabağı Ermənistan işğal edib və heç birimizin ümidi yoxdur ki, Qərb ölkələri danışıqlar yolu ilə bunu bizə qaytaracaqlar. Mənim şəxsən buna ümidim yoxdur" [20, s.78].

Kəlbəcərin işğalında Rusiyanın hərbi birləşmələrinin birbaşa iştirakının həmin iclasda çıxış edən digər dövlət rəsmiləri də faktlarla təsdiq etdilər [20, s.78].Ə.Elçibəy Kəlbəcərin işğalının bir neçə səbəbdən baş verdiyini qeyd etdi:

1. Azərbaycanın qəti surətdə MDB-yə girməkdən imtina etməsinə görə, 2. Davamlı olaraq keçmiş sovet – hazırda Rusiyanın tabeliyinə keçmiş hərbi hissələrin və Xəzər donanmasının Azərbaycanı tərk etməsi tələbinə görə, 3. Dağlıq Qarabağ probleminin həlli istiqamətində ATƏM-nin 5 üzvünün – Azərbaycan, Ermənistan, Türkiyə, Rusiya və Amerikanın Cenevrədə apardıqları danışıqları pozmaqda tərəflərdən birinin (Rusiyanın – P.S.) maraqlı olması səbəbinə görə [20, s.115-116]. O, bir daha qeyd etdi ki, MDB-nin gələcəyi yoxdur, o yaşamayacaq [20, s.116]. Ə.Elçibəy Dağlıq Qarabağ münaqişə zonasına MDB-nin (əslində Rusiyanın – P.S.) hərbi bölmələrinin cəlb olunmasına qəti etiraz etdi: “Bu həyata keçirilə bilməz, belə ki, Azərbaycan MDB-nin üzvü deyil” [21]. Təəssüf ki, Ə.Elçibəy Azərbaycan ərazilərinin zəbt edilməsi siyasətinin Ermənistanda dövlət səviyyəsinə qaldırılması və Kəlbəcərin də bu siyasətin qurbanı olması barədə konkret fikir söyləməmişdi.

Ə.Elçibəy hökuməti ultimativ formada Azərbaycan ərazisində dislokasiya olunmuş Rusiya tabeliyində olan hərbi hissələrin taleyinin birdəfəlik həll olunmasını qəti şəkildə tələb etdi. Azərbaycan Respublikası Müdafiə Nazirliyinin 8 aprel 1992-ci il tarixli bəyanatında qeyd olunurdu ki, Rusiya Federasiyası, çökmüş imperiyadan miras qalmış iqtisadi, siyasi, maliyyə, dövlət strukturlarından və hərbi gücdən istifadə edərək imperiya siyasəti yeridir. MDB-nin yaranmasının əsassızlığına, məqsədlərinə şübhə etməyərək bildiririk ki, Rusiya millətlərarası zəmində toqquşmaları qızışdıraraq bir-birinə qarşı duran tərəfləri silahlandırır, imperiya siyasəti yeridərək hərbi gücündən öz siyasi məqsədinə və məramlarına çatmaq üçün bir vasitə kimi istifadə edir [22].

1992-ci il aprelin 16-da AR müdafiə naziri R.Qazıyev və vitse-admiral V.Lyaşenko Qırmızı bayraqlı Xəzər donanmasının qüvvə və vasitələrinin bir hissəsinin Azərbaycana verilməsinin prinsip və şərtləri barədə Bakıda protokol imzaladılar [17, s.99]. Həmin ilin aprel ayının sonunda Rusiyanın və Azərbaycanın müdafiə nazirləri arasında silah, sursat və digər əmlakın sonuncuya verilməsi barədə bağlanmış protokol, həm də daha əvvəl müxtəlif yollarla Azərbaycan tərəfinin ələ keçirdiyi hərbi texnika və sursatları da əhatə etməklə, onları da legallaşdırdı [17, s.100].

1993-cü il mayın 28-də Rusiya qoşunlarının sonuncu hissələri iki dövlət arasında razılaşdırılmış vaxtdan xeyli əvvəl Azərbaycanı tərk etdi [18, s.154]. Hətta Rusiyaya qarşı radikal mövqedə duran iqtidarı belə təəccübləndirən bu aksiya Azərbaycanın ciddi təlatümlər qarşısında olduğunu, Rusiya rəhbərliyinin öz əsgərlərini gözlənilən siyasi gərginlik vaxtı hər cür təhlükədən uzaq tutmaq istəyindən xəbər verirdi.

Azərbaycan ordusunun hücum əməliyyatlarının uğursuzluğa düçar olması və Kəlbəcərin işğalı ölkədə geniş rezonansa səbəb oldu. Bu hadisə iqtidarı nüfuzdan saldı. Ə.Elçibəy ordu rəhbərliyində “təmizləmə” aparmağa məcbur oldu. R.Qazıyev müdafiə naziri vəzifəsindən uzaqlaşdırıldı [23, s.55]. 1992-ci il

avqustun 8-də müdafiə naziri tərəfindən 2-ci korpusun komandanı təyin edilmiş və Azərbaycan Prezidentinin 1992-ci il 8 oktyabr tarixli fərmanı ilə "Milli Qəhrəman" adına layiq görülən S.Hüseynov 1993-cü il fevralın 23-də korpus rəhbərliyindən azad edildi. [23,s.53-55]. Lakin S.Hüseynov əmrə tabe olmayaraq Gəncədə 709 saylı hərbi hissədə möhkəmləndi və Müdafiə Nazirinə tabe olmaqdan imtina etdi [18, s.155]. Ölkə rəhbərliyi qiyamçı hərbi hissəni ləğv etmək üçün xüsusi əməliyyata rəhbərlik edəcək qərargah yaratdı [23,s.60]. Əməliyyat 1993-cü il iyunun 4-də başladı və hökumət qüvvələrinin tam uğursuzluğu ilə nəticələndi [23, s.60]. Gəncə hadisələrini müzakirə edən Milli Məclisdə iyun ayının 6-da çıxış edən Baş Nazir P.Hüseynov hadisələrin hazırlanma prosesinin və gedişinin xaricdən (Rusiyadan – P.S.) idarə olunmasına işarə etdi: "...Gəncə hadisələri planlaşdırılıb. Gəncədə əməliyyat hazırlanıb. Onun çox yəqin başqa bir adı olub... Amma bu harada hazırlanıb, kimlər tərəfindən həyata keçirilib. İndidən qiymət verməyə tələsməyin... Həmişə şübhələnirik ki, necə oldu ki, hətta Almaniyadan rus qoşunları çıxmayıb hələ, Pribaltikadan çıxmayıb, yeganə dövlətdir ki, Azərbaycandan rus qoşunları çıxıb, özü də çox böyük sürətlə çıxdı. Bir gündə 12 təyyarə gəlirdi. İndi məlum olur ki, niyə belə tələm-tələsik çıxdı" [24, s.77].

Hakimiyyət yetkililərinin gözləmədiyi qətiyyəti nümayiş etdirən S.Hüseynov Bakıya doğru yeriməyə, prezident və hökumətin istefasını tələb etməyə başladı. Onun hərbçiləri müqavimətə rast gəlmədən paytaxta yaxınlaşdılar. Başlanmış təhlükəli proseslərin qarşısını ala bilməyən iqtidar son anda kömək üçün Naxçıvan MR Ali Məclisinin sədri, 1969-1982-ci illərdə Azərbaycana rəhbərlik etmiş, xalq arasında böyük nüfuza və hörmətə layiq olan H.Əliyevi Bakıya dəvət etdi. Baş nazir P.Hüseynov və Ali Sovetin sədri İ.Qənbər istefa verdilər [25, s.6]. H.Əliyev Ali Sovetin sədri seçildi [26, s.44]. Elçibəy hakimiyyətinin taleyi artıq həll olunmuşdur. İyunun 18-nə keçən gecə prezident Ə.Elçibəy Bakını gizlicə tərk edib Naxçıvan MR-ə doğulduğu Kələki kəndinə getdi. Dəfələrlə müraciət olunmasına baxmayaraq Bakıya qayıdıb vəzifə səlahiyyətlərini icra etməkdən imtina etdiyinə görə Milli Məclis bu vəzifəni icra etməyi Heydər Əliyevə həvalə etdi [27, s.119].Gəncə hadisələri, ölkədəki vətəndaş qarşıdurması və Ə.Elçibəyin vəzifəsini icra etməkdən imtina edib Naxçıvana getməsi Ermənistan və onun havadarlarının əlinə fürsət verdi. Ölkədəki hərc-mərclikdən istifadə edən düşmən bütün cəbhə boyu hücum edərək – Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarını ələ keçirərək hələ 1992-ci ilin aprelində Rusiyanın xarici işlər naziri A.Kozırevin təklif etdiyi Dağlıq Qarabağ ətrafı "təhlükəsizlik zolağı"nı yaratdılar. Ölkənin 20 faizdən çox torpağı 1993-cü ilin payızına qədər işğal edildi. Bu rayonların əhalisi qaçqın və didərginlərə çevrildilər, xeyli sayda insan öldürüldü, yaralandı və əsir götürüldü [18, s.165-178].

1993-cü il oktyabrın 3-də keçirilmişümumxalq səsverməsi nəticəsində

Azərbaycan Respublikası Prezidenti seçkilərində H.Əliyev seçicilərin 98,8 faizinin səsini toplayaraq ölkə prezidenti oldu [17, s.130]. Onun üzərinə çox ağır missiya düşmüşdür. Cəbhədə ağır məğlubiyyətlərdən sonra dağılmış ordunu yenidən təşkil etmək, dövlət quruculuğuna yenidən başlamaq, iqtisadiyyatı dirçəltmək, xalqın dövlətə olan inamını yenidən qaytarmaq, qanunçuluq və intizamı bərqərar etmək və ən əsası, Dağlıq Qarabağ münaqişəsinin gedişində dönüş yaratmaq, işğal olunmuş torpaqların azad edilməsinin siyasi diplomatik yollarını aramaq. Bunun üçün tam yeni xarici siyasət konsepsiyası işlənib hazırlanmalı idi. Əvvəlki, iqtidarın qonşu dövlətlərlə, xüsusilə Rusiya kimi nəhəng güclə diplomatik münasibətlərdə, həmçinin müxtəlif beynəlxalq, regional qurumlarla münasibətlərdə buraxdığı səhvlər, onların Azərbaycana hansı qiymətə başa gəlməsi analiz edilməli və yeni xarici siyasət kursu müəyyənləşməli idi. Azərbaycanın gələcəkdə tam dəyərli dövlətə çevrilməsinin və dünya birliyində layiqli yer tutmasının taleyi H.Əliyevin xarici siyasət strategiyasından çox asılı idi.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikası Ali Sovetinin arxivi. Fond 2941, siyahı 1, iş 76, s.17
2. Azərbaycan Respublikası XİN cari arxivi. MDB ölkələri idarəsinin materialları. "Rusiyanın yeni hərbi doktirinası və sülhməramlılıq", 11 noyabr 1993 il
3. «Новая русская скова» (Nyu-York) 1994, 7 апреля
4. Azərbaycan Respublikası Ali Sovetinin arxivi. Milli Məclisin beynəlxalq əlaqələr şöbəsi. Aparat üzrə məktublaşma qovluğu 04-5, 1994-cü il
5. *Səfərov P.* 90-cı illərdə Azərbaycanın xarici siyasəti və beynəlxalq vəziyyəti. Bakı, 1999, 117 s.
6. Azərbaycan Respublikası XİN-nin cari arxivi. MDB ölkələri idarəsinin materialları, 1994-cü il
7. *Мехтиев Р.Э.* Межнациональные отношения на исходе XX столетия: проблемы теории и политики. Баку, Азернешр, 1995, 222 с.
8. Azərbaycan Respublikası Ali Sovetinin arxivi. Milli Məclisin beynəlxalq əlaqələr şöbəsinin materialları. Azərbaycanın xarici ölkələrlə əlaqələrinə dair sənədlər, görüşlər, protokollar qovluğu. 13.04.1992-ci il
9. *Məmmədov İ.* Azərbaycan tarixi: Dərslik. Bakı: Ağaoğlu, 2005, 486 s.
10. Azərbaycan Respublikası Ali Sovetinin arxivi. Fond 2941, siyahı 1, iş 20
11. Azərbaycan Respublikası Ali Sovetinin arxivi. Fond 2941, siyahı 1, iş 47
12. Azərbaycan Respublikası Ali Sovetinin arxivi. Fond 2941, siyahı 1, iş

76,

13. XX əsr Azərbaycan tarixi: ali məktəblər üçün dərslik. II c.,. Bakı: Təhsil, 2009, 560 s.
14. Azərbaycan Respublikası Ali Sovetinin arxivi. Fond 2941, siyahı 1, iş 58
15. Azərbaycan Respublikası Ali Sovetinin arxivi. Fond 2941, siyahı 1, iş 60
16. "Azərbaycan" qəz., 1 oktyabr 1992-ci il
17. *Чернявекий С.И.* Новый путь Азербайджана. Москва: Азер Медиа, 2002, 352 с.
18. *Səfərov P.* Azərbaycan Respublikası Rusiya, İran və Türkiyənin geosiyasi maraqlarında. Bakı: Elm və təhsil, 2011, 264 s.
19. Azərbaycan Respublikası Ali Sovetinin arxivi. Fond 2941, siyahı 1, iş 147
20. Azərbaycan Respublikası Ali Sovetinin arxivi. Fond 2941, siyahı 1, iş 185
21. "Azərbaycan" qəz., 14 oktyabr 1992-ci il
22. "Azərbaycan" qəz., 16 aprel 1992-ci il
23. Azərbaycan Respublikası Ali Sovetinin arxivi. Fond 2941, siyahı 1, iş 153
24. Azərbaycan Respublikası Ali Sovetinin arxivi. Fond 2941, siyahı 1, iş 203
25. Azərbaycan Respublikası Ali Sovetinin arxivi. Fond 2941, siyahı 1, iş 204
26. Azərbaycan Respublikası Ali Sovetinin arxivi. Fond 2941, siyahı 1, iş 205
27. Azərbaycan Respublikası Ali Sovetinin arxivi. Fond 2941, siyahı 1, iş 152

# ARDNŞ-NİN YARANMASI VƏ FƏALİYYƏTİ (1992-2020)

**_Gülnar Yalçın qızı Təhməzli_**
AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu
gtahmazli@gmail.com

**Açar sözlər:**_ARDNŞ, yeni neft strategiyası, Əsrin müqaviləsi, beynəlxalq əlaqələr_

_Məqalə ARDNŞ-nin yaradılması və fəaliyyəti tarixinə həsr edilmişdir. Müəllif mövcud rəsmi sənədlər, elmi ədəbiyyat və statistik materiallar əsasında ARDNŞ-nin yaranması və fəaliyyəti tarixinə xronoloji ardıcıllıqla işıq sala bilmişdir. Məqalədə ARDNŞ-nin "Əsrin müqaviləsi"nin həyata keşirilməsində iştirakına, onun beynəlxalq əlaqələrinin genişləndirilməsi tarixinə və ölkənin sosial-iqtisadi həyatında fəaliyyətinə geniş yer ayrılmışdır._

## СОЗДАНИЕ И ДЕЯТЕЛЬНОСТЬ SOCAR (1992-2020)

**_ГюльнарТахмазли_**

**Ключевые слова:** _SOCAR, новая нефтяная стратегия, Контракт века,международны еотношения_

_Статья посвящена историю создания и деятельности SOCAR. Автору удалось в хронологическом последовательности пролить свет на историю создания и деятельности SOCAR на основе фактов, ссылаясь на официальные документы, научную литературу и статистические материалы. В статье автор уделяет особое место участию SOCAR в реализации «Контракт века», развитие международных отношений и историю её деятельности социально-экономической жизни страны._

## ESTABLİSHMENT AND ACTİVİTY OF SOCAR (1992-2020)

**_Gulnar Tahmazli_**

**Key worlds:** _SOCAR, new oil strategy, Contract of the Century, international relations_

*The article is dedicated to the history of the establishment and the activity of SOCAR. The author was able to shed light on the history of the establishment and activities of SOCAR in chronological order based on the existing official documents, scientific literature and statistical materials. In the article, the author focuses on SOCAR's participation in the implementation of the "Contract of the Century", the history of the expansion of its international relations and its activities in the socio-economic life of the country.*

Dövlət müstəqilliyinin bərpasından keçən 30 ilə yaxın dövr sübut etdi ki, enerji resursları Azərbaycan Respublikasının milli iqtisadiyyatının inkişaf etdirilməsinin əsas vasitəsi olmaqla yanaşı, həm də onun uğurlu xarici siyasətinin həyata keçirilməsi və beynəlxalq iqtisadi əlaqələrin inkişafı üçün ən təsirli vasitələrdən biri hesab olunur. Dünya iqtisadiyyatı və diplomatiyası üçün beynəlxalq enerji təhlükəsizliyi məsələsi hər zaman xüsusi əhəmiyyət daşımış və ölkələrin iqtisadi siyasət fəaliyyətlərində enerji resursları ilə təmin olunma məsələsixüsusi yer tutur.

Dövlət müstəqilliyi bərpa olunduqdan və Heydər Əliyev hakimiyyətə gəldikdən sonra,1993-cü ilin ikinci yarısından başlayaraq Azərbaycan Milli Neft Strategiyasının formalaşdırılmasına və fəaliyyət planının həyata keçirilməsinə başlanıldı. Bu strategiyanı reallaşdırmaq missiyası Azərbaycan Respublikası Prezidentinin 13.09.1992-ci il Fərmanı ilə Azərneft Dövlət Konserninin və Azərnefkimya İstehsalat Birliyininin bazasında yaradılmış aparıcı müəssisə olaraq, Azərbaycan Respublikasının Dövlət Neft Şirkətinə həvalə edildi. Azərbaycan Respublikası Prezidentinin 26 fevral 1993-cü il tarixli təlimatı ilə ARDNŞ-nin idarəetmə strukturu təsdiq edildi. Azərbaycan Respublikası Prezidentinin 24 yanvar 2003-cü il tarixli “Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin strukturunun yaxşılaşdırılması” fərmanına əsasən Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Nizamnaməsi və strukturu təsdiq edildi[1].

Bu Nizamnaməyə əsasən suda və qurudakı neft yataqlarının kəşfiyyatının aparılması, öyrənilməsi, istifadəsi,neft, qaz, kondensat və ondan alınan məhsulların təkrar emalı, nəqli, satışı, mövcud enerji daşıyıcılarına stabil tələbatı, davamlı ödənişin və gəlirin təmin edilməsi və digər istiqamətlər ARDNŞ-nin fəaliyyət sahələri hesab edilir.ARDNŞ-nin yaradılmasından sonra neft layihələrinin həyata keçirilməsinə start verilməsinin başlanğıc nöqtəsi 1994-cü il sentyabrın 20-də “Əsrin müqaviləsi”nin imzalanması oldu. Ümummilli lider Heydər Əliyevin neft strategiyasının təməli olan “Əsrin müqaviləsi” imzalandıqdan sonra Azərbaycan Respublikasının iqtisadiyyatında əsaslı dönüş və inkişaf başlandı. Bu müqavilənin bağlanması Azərbaycan Respublikasının dünya iqtisadi sisteminə qoşulmasına və dünya arenasında tanınmasına ciddi təkan verdi[2,s.168].

ARDNŞ öz fəaliyyətini mövcud qanunvericiliyə əsasən aşağıdakı istiqamətlərdə həyata keçirir:

- neft sənayesinin inkişafı üçün uzunmüddətli proqram və layihələrin inkişafı;
- məqsədyönlü elmi, texniki, idtisadi və sosial proqramlarda ixtisaslaşır;
- enerji və maddi ehtiyatların qənaət rejimi siyasətini həyata keçirməklə istehsalın effektivliyinin artırılması;
- şirkətə daxil olan idarələrin modernləşdirilməsi, investisiya edilməsi, genişləndirilməsi və rekonstruksiya edilməsi;
- müasir tikinti texnologiyaları və texniki avadanlıqların yardımı ilə geoloji kəşfiyyat işləri, yataqların istismarının effektivliyinin artırılması, neft və qaz quyularının tikintisinin sürətləndirilməsi, həmçinin, ətraf mühitin müdafiəsilə bağlı mövcud qanunvericiliyi nəzərə alaraq yataqların istismara verilməsi işlərinin sürətləndirilməsi və keyfiyyətinin artırılması işlərinin yerinə yetirilməsi;
- maliyyə vəsaiti cəlb edilməsi;
- öz fəaliyyətinin dövlət orqanları, xarici şirkətlər və sahibkarlar ilə nizamlanması;
- inkişafın lazımi geofiziki istiqamətlərdə aparılmasına yardım edilməsi;
- daşıma təşkilatının xam neft və təbii qazla təmin edilməsi və bütün xərclərin ödənilməsi;
- xam neftin və təbii qazın emalının təşkili;
- xam neftin, təbii qazın və neft məhsullarının satışı üçün şərait yaradılmasının təmin ediiməsi;
- torpaqların rekultivasiyası və ərtaf mühitin qorunması üçün tədbirlərin həyata keçirilməsi;
- xarici iqtisadi əlaqələrin yaradılması, dəstəklənməsi və .s

Xəzər dənizinin Azərbaycan Respublikası sektorundakı "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərin hissəsinin birgə işlənməsi haqqında SOCAR ilə 11 xarici neft şirkəti arasında 20 sentyabr 1994- cü ildə Bakıda imzalanmış "Əsrin müqaviləsi" üzrə ilkin neft hasilatına 1997-ci il noyabrın 12-də başlanıldı [3, s. 6.]

“Əsrin müqaviləsi” xarici şirkətlərə Azərbaycan Respublikasının DNŞ ilə yeni sazişlərin imzalanması üçün geniş yol açdı. "Əsrin müqaviləsi”ndən bu günə qədər ARDNŞ və xarici neft şirkətləri arasında karbohidrogenlərin kəşfiyyatı, hasilatı və məhsulun pay bölgüsü prinsipi üzrə 19 ölkənin və 41 neft şirkətinin iştirak etdiyi 26 saziş imzalanmasına da şərait yaratdı. Azərbaycan Milli Neft Strategiyasında “Əsrin müqaviləsi”ndən sonra önəmli layihələrdən biri də Azərbaycan neftinin dünya bazarlarına nəqli ilə bağlı beynəlxalq normativ-hüquqi əsaslarla həyata keçirilmiş ƏİNBK-ri marşrutlarıdır.

Bakı – Qroznı – Novorossiysk (Şimal marşrutu) ilə bağlı 1996-cı il yanvarın 18-də Moskvada Azərbaycan neftinin Rusiya Federasiyası ərazisindən keçməklə, Qara dənizin Novorossiysk limanına nəql olunması haqqında müqavilə imzalanmışdır. ABƏŞ, ARDNŞ və Transneft şirkəti arasında imzalanan üçtərəfli sazişdə neftin Novorossiysk limanına qədər daşınmasını nəzərdə tutan bütün hüquqi və texniki məsələlər öz əksini tapmışdır. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 29 yanvar 1996-cı il müqaviləsinin təsdiq edilməsi barədə "Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında Azərbaycan neftinin Rusiya Federasiyası ərazisindən tranziti haqqında" sərancam imzalamışdır. Müqavilənin ilkin şərtlərinə uyğun olaraq, 1997-ci il oktyabrın 25- dən Azərbaycanın nefti şimal boru kəməri vasitəsi ilə dünya bazarına çıxarılmış oldu [4].

Prezident Heydər Əliyevin 29 dekabr 1999-cu il tarixli 240 nömrəli Fərmanı ilə Azərbaycan Respublikası Dövlət Neft Fondu təsis edildi.Neft Fondunun Əsasnaməsi Azərbaycan Respublikası Prezidentinin 29 dekabr 2000-ci il tarixli 434 nömrəli Fərmanı ilə təsdiq edilmişdir [5]. Fondun yaradılmasında məqsəd neft strategiyası sahəsində neftdən gələn gəlirlərin toplanaraq səmərəli idarə edilməsi, həmin vəsaitlərin öncül sahələrin inkişafına və sosial-iqtisadi baxımdan mühüm əhəmiyyət kəsb edən layihələrin həyata keçirilməsinəyönəldilməsini təşkil etmək, xalqın sərvəti olan neftdən gələn gəlirlərin gələcək nəsilərin rifahına xidmət etməsini təmin etməkdir[1,s.131].

ARDNŞ-nin nailiyyətləri ona öz resurslarından istifadə etməklə. yeni strukturun hazırlamasına imkan yaratdı. "Azəri-Çıraq-Günəşli", "Şahdəniz", eləcə də, Xəzər dənizində yerləşən qonşu dövlətlərin neft yataqları azərbaycanlı geofizik-kəşfiyyatçıların seysmik tədqiqatları nəticəsində aşkar edilmiş,neft və qaz ehtiyatlarının artırılması məqsədi ilə geofiziklər qarşısında yeni perspektivli yataqların axtarılması, qazıntıya hazırlanması və mədənlərdə qabaqcıl geofiziki tədqiqat işlərinin aparılması kimi mühüm vəzifə qoyulmuşdur.

2007-ci ilin əvvəllərində Rusiya Federasiyasından gələn qazın dayandırılmasından sonra, Dövlət Neft Şirkətinin üzərinə qoyulan məsuliyyət daha da artdı. Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin qazın hasilatının artırılması ilə bağlı verdiyi fərman və göstərişləri yerinə yetirmək məqsədilə Dövlət Neft Şirkəti proqram lahiyəsi hazırladı ki, onun da həyata keçirilməsi öz müsbət nəticələrini verdi. Bütün dünyaya bir daha enerji müstəqilliyini sübut edən Azərbaycan neftçiləri qazçıxarma sahəsində ciddi uğurlara imza atdılar. Keçən müddət ərzində onlarla yeni qaz boru kəməri istismara verilmiş və qaz yataqlarının qazma prosesi sürətləndirilmişdir. ARDNŞ hazırda ölkənin daxili qaz tələbatını ödəməklə bərabər, həm də hasil etdiyi qazın bir hissəsini qonşu Gürcüstana, qardaş Türkiyəyə və Avropa ölkələrinə ixrac etməyə başlamışdır. Bu vəziyyət bir daha sübut edir ki, Azərbaycan dövləti regionda enerji baxımından müstəqil olan yeganə dövlətdir.

Dünyanın aparıcı dövlətlərinin iqtisadi və siyasi maraqları sisteminə daxil olmaqla, Azərbaycan dövləti öz təhlükəsizliyinin, əhalisinin dinc həyat şəraitinin və region dövlətləri ilə sivil birgəyaşayış əlaqələrinə daxil olmanın tam beynəlxalq təminatını qazanmışdır [6,s.14].

ARDNŞ-nin xarici ölkələrdə fəaliyyəti Azərbaycan Respublikasının xarici ticarət əlaqələrində neft və neft məhsullarının rolunun daha da artmasına gətirib çıxarmışdır. ARDNŞ-nin Gürcüstan, ABŞ, Türkiyə, Rumıniya, Avstriya, İsveçrə, Qazaxıstan, Böyük Britaniya, İran, Almaniya, Ukrayna və Belçikada yaradılmış nümayəndəlikləri, İsveçrə, Sinqapur, Vyetnam, Nigeriya və s. ölkələrdə isətreydinq şirkətləri təsis olunmuşdur. Qeyd etmək lazımdır ki, ARDNŞ Gürcüstanda neft məhsullarının və qazın satışını, Ukraynada neft məhsullarının satışını, BƏƏ-də neft satışı və treydinq, Türkiyədə emal, neft məsullarının və qazın satışını, İsveçrədə neft məhsullarının satışı və treydinq, Rusiyada neft məhsullarının satışı, Rumıniyada neft məhsullarının satışını həyata keçirir. ARDNŞ respublikanın neft və neft məhsullarına olan tələbatını ödəmək, daxili tələbdən artıq hissəni isə ixrac etmək imkanına malikdir. Bunu təmin etmək üçün ARDNŞ müvafiq istehsal güclərinə, inkişaf etmiş xidmət sektoruna, böyük elmi və texniki potensiala malikdir.

Beynəlxalq bazara neft, qaz məhsulları və xammal göndərməklə, ARDNŞ qlobal enerji bazarının aktiv iştirakçısı hesab olunur. Eyni zamanda ARDNŞ nəhəng investisiya layihələri hazırlayır, özünün intellektual kapitalı, istehsal və idarəetmə səriştəsini bölüşür. ARDNŞ artıq xarici investorlardan asılı deyil, əksinə özü dünya dövlətlərindəki biznes layihələrinə maliyyə sərf etməklə, Azərbaycan Respublikasının nüfuzunu qaldırır. Bu strategiyanın davam etdirilməsi, Azərbaycan Respublikasının xarici sərmayələr üçün cəlbediciliyinin artırılması, iqtisadiyyatın müxtəlif sferalarına yönələn investisiyaların qeyri-neft sektoruna, regionların inkişafına doğru istiqamətləndirilməsi, sahibkarlıq fəaliyyəti üçün daha münbit şəraitin formalaşdırılması, vətəndaşlarının sosial müdafiəsi tədbirləri dövlətimizin iqtisadi siyasətinin əsas müddəalarını təşkil edir [7, s. 167].

ARDNŞ bir sıra beynəlxalq layihələrdə vəməşhur neft şirkətləri ilə əməkdaşlıq iştirak edir, eyni zamanda rəqabət aparır. 2005-ci ildən etibarən ARDNŞ orta, orta-texniki və ali tədris müəssisələrini əhatə edən bir sıra proqramlar həyata keçirir. Bu proqramlar gənclər arasında böyük maraqla qarşılanır.

ARDNŞ-nin imkanlarının və fəaliyyət miqyasının genişləndirilməsi, həmçinin Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin ən qısa zamanda şirkəti dünya arenasında rəqabətə davamlı təşkilat halına gətirilməsi haqqında verdiyi göstəriş ARDNŞ-nin vahid strateji inkişaf planınınhazırlanmasına səbəb oldu. Bununla əlaqədar olaraq,ARDNŞ-nin idarəetmə strukturunda Strateji inkişaf şöbəsi yaradılmış və Strateji inkişaf üzrə vitse-prezident vəzifəsi təsis

edilmişdir. “2025-ci ilədək dövr üçün ARDNŞ-ninsrtateji inkişafının Kompleks planı” tərtib olunmuşdur. Sənədin hazırlanmasında bütün vitse-prezidentlər, şirkətin müxtəlif strukturlarının rəhbərləri, həmçinin beynəlxalq konsalting şirkəti olan “PricewaterhouseCoopers” iştirak etmişdir. “2025-ci ilədək dövr üçün ARDNŞ-nin srtateji inkişafının Kompleks planı” 8 hissədən ibarətdir. Plana əsasən ARDNŞ fəaliyyətin diversifikasiyaedilməsində vahid mövqe tutur.

ARDNŞ-nin strateji inkişaf planının əsasında ölkənin yanacaq-enerji təhlükəsizliyinin təmin olunması, Azərbaycan Respublikasının neft, qaz və neft kimya sənayesinin inkişafını təmin etmək durur. Bu inkişaf planına əsasən ARDNŞ bütün səylərini ölkənin elmi-texniki, iqtisadi və intellektual potensialını dəstəkləməyə yönəltməli, qabaqcıl və ekoloji təmiz texnologiyaları tətbiq etməli, regional və beynəlxalq enerji layihələrində özünün layiqli yerini tapmalıdır. Əsas vəzifə-məhsulların satışından və onların xarici və yerli bazarlarda emalından maksimal gəlir əldə etmək idi. ARDNŞ-nin perspektivi onu üfüqi inteqrasiya edən və dünya standartlarına cavab verən nəhəng beynəlxalq neft şirkətinə çevrilmək cəhdləridir.

ARDNŞ-nin kompleks planının strateji vəzifəsi, neftqaz sektorunun və neft kimya sənayesinin modernləşdirilməsi idi. Bu mövqe özünü “Azərbaycan-2020: gələcəyə baxış” konsepsiyasında da tapmışdır. Adı çəkilən konsepsiya Azərbaycan Respublikasının 29 noyabr 2011-ci il tarixli tapşırığına əsasən Prezident Administrasiyasi tərəfindən hazırlanmış və ictimai müzakirəyə çıxarılmışdır.ARDNŞ neft və qaz hasilatının artırılması üçün çalışır. SOCAR-in məlumatlarına əsasən 2011-ci ildə Azərbaycanda 45,6 mln.ton neft və 25,8 mlrd. kubmetr qaz əldə edilmişdir [1].

ARDNŞ-nin fəaliyyətdə olan yataqlarda neftin hasilatının artırılmasına və yeni texnologiyalar vasitəsilə effektiv olmayan yataqların istismarının optimallaşdırılmasına cəhd göstərir. ARDNŞ neft, qaz, neftkimya məhsullarını ölkə hüdudlarından kənarda realizə edir. Gürcüstan, Ukrayna, Qazaxstan, Türkiyə, Almaniya, Avstriya, Böyük Britaniya, ABŞ, İran, Rumıniya, İsveçrə də digər ölkələrdə SOCAR-ın nümayəndəlikləri açılmışdır. Onlar sistematik olaraq marketing tədqiqatları aparırlar. Bundan əlavə, şirkət neft məhsullarının pərakəndə satışının geniş şəbəkəsini də yarada bilmişdir.

“SOCAR Georgia Petroleum” Gürcüstanda neft məhsullarının topdan və pərakəndə satışını, təbii qazın alqı-satqısını həyata keçirir, Gürcüstanın qazpaylayıcı şəbəkəsinin idarə olunmasının başında dayanır və Kulevsk neft terminalını uğurla idarə edir. Gürcüstanda “SOCAR” brendi altında 100-ə yaxın yanacaq doldurma məntəqəsi fəaliyyət göstərir.

Hazırda Azərbaycan Neft Sənayesinin neft və neftdən alınan məhsulları müxtəlif marşrutlarla ABŞ, Çin, İngiltərə, Almaniya, Fransa, İtaliya, İspaniya, Hindistan, İndoneziya, Cənubi Koreya, Tayland, Braziliya və Çiliyə ixrac olunur.

ARDNŞ-nin 2011-ci ildə Avropanın ən iri pərakəndə şəbəkəsi hesab olunan "EssoSwitzerland" satınalması böyük uğur hesab edilə bilər. ARDNŞ suda və quruda irimiqyaslı layihələri həyata keçirən qabaqcıl neft-qaz korporasiyasıdır. Xəzərin dərin hissəsində karbohidrogenlərin perspektivli axtarışlarını həyata keçirən əhəmiyyətli bir şirkətdir. "Babək", "Naxçıvan", "Məşəl", "Zəfər", "Qarabağ", "Əşrəfli" və "Dan Ulduzu" belə perspektivli strukturlardan hesab olunur.

ARDNŞ respublikanın yalnız iqtisadi deyil, həm də ekoloji siyasətini nəzərə alaraq fəaliyyət göstərir. Ölkənin paytaxtı Bakıda yaşıllaşdırma və abadlıq işləri həyata keçirilir. Təhsil sahəsində isə ARDNŞ özünü müxtəlif rayon və şəhərlərdə yeni məktəblərin, kitabxanaların, xəstəxanaların, idman komplekslərinin, körpülərin, parkların və istirahət sahələrinin tikintisi ilə göstərir.

Səhiyyə sahəsində ARDNŞ"Azərbaycan Respublikasının regionlarınnın sosial-iqtisadi inkişafı Dövlət proqramı" çərçivəsində Lənkəran, Naxçıvan, Şirvan, Qazax, Zakatala, Qəbələ, Bərdə, Gəncə, Quba, Şamaxı, Cəlilabad və Xızıda ən qabaqcıl avadanlıqlarla təchiz olunmuş müalicə-diaqnostika mərkəzlərinin tikintisi və açılışı ilə məşğul olur.

## Ədəbiyyat

1. http://www.socar.az/socar/az/company/regulations/socar-charter
2. Yüzbaşova G.Z., Abdullayev Z.S. Azərbaycanın neft-qaz strategiyası: problemlər və proqnozlar. Bakı: 2006.
3. Neftçilər qarşıdakı hədəflərə doğru inamla irəliləyirlər. "İki sahil" qəzeti – 2017 - 20 sentyabr, № 169, s. 6.
4. Şimal ixrac boru kəmərinin istifadəyə verilməsi Azərbaycanın yeni neft strategiyasının təntənəsi idi. "İki sahil" qəzeti, 25 oktyabr, 2018.
5. https://www.oilfund.az/storage/images
6. Əsrin müqaviləsi -10. Azərbaycan böyük inkişaf yollarında // Həsənov Ə. Neft strategiyası və Azərbaycanın xarici siyasət fəaliyyətinin qurulması, Bakı: 2000.
7. Mehdiyev R. Yeni siyasət: inkişafa doğru. I cild.

# MÜNDƏRİCAT

***Həbibə Mirpaşa qızı Əliyeva .*** ŞİRVAN MEMARLIQ MƏKTƏBİNİN YADİGARI-TUBA ŞAHİ MƏSCİDİ..............................................................3
***Эльмира Казым гызы Сулейманова .*** ОБРАЗОВАНИЕ АРМЯНСКОЙ ГОСУДАРСТВЕННОСТИ НА ЮЖНОМ КАВКАЗЕ – РЕЗУЛЬТАТ МИГРАЦИИ И МАССОВОГО ПЕРЕСЕЛЕНИЯ АРМЯН НА ИСТОРИЧЕСКИЕ ЗЕМЛИ АЗЕРБАЙДЖАНА………………..………..13
***Mehman Sənan oğlu Ağayev .*** ÖTƏN ƏSRİN 20-Cİ İLLƏRİNDƏ TÜRKİYƏ HÖKUMƏTİNİN SİYASƏTİNDƏ AZƏRBAYCANLI MÜHACİRLƏR MƏSƏLƏSİ.................................................................................23
***Cəbi Əmirvar oğlu Bəhramov.*** ERMƏNİSTANIN AZƏRBAYCAN RESPUBLİKASINA QARŞI HƏRBİ TƏCAVÜZÜ CƏNUBİ QAFQAZ REGİONUNDA HƏYATA KEÇİRİLƏN BEYNƏLXALQ ENERJİ LAYİHƏLƏRİ ÜÇÜN TƏHLÜKƏDİR (1991-2016).......................................30
***Tamam Şaməmməd qızı Cəfərova.*** AZƏRBAYCAN RESPUBLIKASININ ƏRAZI BÜTÖVLÜYÜ UĞRUNDA GEDƏN DÖYÜŞLƏRDƏ QADINLARIN İŞTİRAKI (1992-1994)........................................................40
***Naibə Əhmədağa qızı Əhmədova.*** "ƏKİNÇI" QƏZETİ DÖVRÜN TARİXİ SALNAMƏSİ KİMİ..................................................................................50
***Kamil Fərhad oğlu İbrahimov, Tural Kamil oğlu İbrahımov.*** BAKI XAN SARAYININ TARİXİ VƏ TALEYİ...............................................................59
***Zakir Hafis oğlu Kərimov.*** MƏHƏMMƏDQULU BƏY KƏNGƏRLİ ÜÇÜN- "VƏTƏN FƏRYADNAMƏSİ".......................................................................73
***Aygün Musa qızı Məmmədova.*** ELXANİLƏR DÖVRÜNƏ AİD TOVUZ ZƏRBXANASI SİKKƏLƏRİ ......................................................................79
***Səyyarə Məmmədova.*** AZƏRBAYCANIN AVROPA ÖLKƏLƏRİ İLƏ MƏDƏNİ ƏLAQƏLƏRİ TARİXİNDƏN.........................................................90
***Leyla Məmmədqızı Rüstəmova***. GƏNCƏ-QAZAX BÖLGƏSİNİN İLK TUNC DÖVRÜ METAL İSTEHSALI VASİTƏLƏRİ............................................100
***Abbas Qadir oğlu Seyidov.*** ORTA ƏSRLƏRDƏ MONQOLLARIN HƏRB SƏNƏTİ VƏ İSTİLA TAKTİKASI...........................................................111
***Pərviz Şahin oğlu Səfərov***. XX ƏSRİN 90-cı İLLƏRİNİN BİRİNCİ YARISINDA AZƏRBAYCAN-RUSİYA MÜNASİBƏTLƏRİ: PROBLEMLƏR VƏ ZİDDİYYƏTLƏR...................................................... 123
***Gülnar Yalçın qızı Təhməzli.*** ARDNŞ-NİN YARANMASI VƏ FƏALİYYƏTİ (1992-2020)...............................................................................................136

# YAZI QAYDALARI

- Məqalələr **Azərbaycan, ingilis** və **rus** dillərində jurnalın elektron ünvanına – jhhsadpu@mail.ru göndərilir.

- Məqalələr **Microsoft Word** proqramında Times New Roman şrifti ilə 12 pt. ölçüdə 1,0 intervalla yazılmalıdır. Səhifə ölçüləri: sağdan və soldan 2,0 sm, yuxarıdan 2,5 sm, aşağıdan 2,2 sm olmalıdır.

- **Başlıq** ortada qara və böyük hərflərlə yazılmalıdır.

- Məqalənin quruluşu aşağıdakı bölümlərdən ibarət olmalıdır: müəllifin adı, ata adı və soyadı, iş yeri, elmi dərəcəsi və elmi adı, üç dildə açar sözlər və xülasə (100-150 sözdən ibarət, 12 pt. ilə) ədəbiyyat siyahısı. Hər üç dildə yazılmış xülasələr bir-birinin eyni olmalı və məqalənin məzmununa uyğun olmalıdır.

- Məqalələrdə verilən **şəkil, rəsm, qrafik və cədvəllər** düzgün, aydın və mətn içərisində olmalı, onlara aid olan yazılar altında yazılmalıdır.

- **İstinadlar** mətn içərisində kvadrat mötərizədə göstərilməklə məqalənin sonunda əlifba ardıcıllığı ilə nömrələnməlidir. Məsələn: [1, 8].

- Ədəbiyyat siyahısında verilən hər bir istinad haqqında məlumat tam və dəqiq olmalıdır. İstinad olunan mənbənin biblioqrafik təsviri onun növündən (monoqrafiya, dərslik, elmi məqalə və s.) asılı olaraq verilməlidir. Simpozium, konfrans materiallarına və ya tezislərinə istinad edilərkən məqalə və ya tezisin adı göstəriməlidir.

- Məqalələrin həcmi: 5-12 səhifə.

- Məqalələr mütəxəssis rəyi (məxfi olaraq) əsasında jurnalın redaksiya heyətinin qərarı ilə çap olunur. Redaksiya düzəlişlər etmək üçün məqaləni müəllifə qaytara bilər.

- Məqalədə gedən hər hansı bir elmi yenilik, tezis və s. üçün müəllif şəxsən məsuliyyət daşıyır.

- Jurnalda dərc olunmayan məqalələr geri qaytarılmır.

# Tarix, insan və cəmiyyət

*Elmi-nəzəri və elmi-metodiki jurnal 2020, 1 (28)*

***Çapa imzalanmış 08.07.2020-ci il***
***Kağız formatı 60x84 1/16, çap vərəqi 17***
***Sifariş 140, sayı 200***

***Bakı, Ü.Hacıbəyli küçəsi, 68***
***Telefon: (+994 12)493 05 85***
***E-mail:*** *jhhsadpu@mail.ru*
***www.adpu.edu.az***